SONA XƏYAL

BAKI GÜLZARININ BÜLBÜLLƏRİ

BAKI – 2011

Kitab **SEYİDMURADIN** (1961-2009)
50 illik yubileyinə ithaf olunur

Toplayıb tərtib edən:
ŞAHİN KAMİL

Redaktorlar:
CƏNNƏT NAĞIYEVA
filologiya üzrə elmlər doktoru
İLAHƏ ZAUR KAMİYAB

Ön söz müəllifi:
MÖHSÜN NAĞISOYLU
filologiya üzrə elmlər doktoru

Sona Xəyal. Bakı gülzarının bülbülləri.
Bakı-"MBM"- 2011. 128 səh.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin "İRS" komissiyasının sədri, 70-ə yaxın kitabın (təlif və tərtib) müəllifi Sona Xəyalın "Bakı gülzarının bülbülləri" adlı növbəti kitabında Bakı-Abşeron ədəbi mühitində yaşayıb-yaradan şairlər haqqında məqalələr toplanmışdır.

ISBN 978-9952-29-048-4

© S.Xəyal, 2011
Bakı, "MBM"

ŞEİR-SƏNƏT ŞƏHƏRİNİN YETİRMƏLƏRİ HAQQINDA NOTLAR

Azərbaycanın bir çox bölgələri kimi, ölkəmizin paytaxtı Bakı, xüsusilə də onun kəndləri qədimdən bəri şeir, sənət beşiyi kimi tanınmış, ad çıxarmışdır. Bakı kəndlərinin bir çoxunda, xüsusilə də Maştağa, Buzovna və Nardaranda XIX yüzillikdən başlayaraq mütəmadi olaraq şeir və musiqi məclislərinin qurulması, meyxananın geniş yayılması buna əyani sübutdur. Bakı və ətraf kəndlərində yaşayıb–yaratmış istedadlı şairlər haqqında müəyyən işlər görülmüş, onlardan bir çoxunun şeirləri işıq üzü görmüşdür. Bu sahədə müntəzəm olaraq məşğul olan, maraqlı tədqiqatlar aparan araşdırıcılardan biri də istedadlı qələm sahibi Sona Xəyaldır. Çoxlu sayda bədii, elmi və publisistik kitab müəllifi olan Sona Xəyal özü də qələm əhlidir, əruz vəzninə dərindən bələddir və qəzəl yazır. Bundan əlavə Sona xanım neçə illərdir ki, Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmi işçi kimi fəaliyyət göstərir və əsasən, türkdilli əlyazmalar üzərində çalışır. Bütün bu keyfiyyətlərə görədir ki, Sona xanımın istər ayrı-ayrı çağdaş şairlərimiz haqqında yazdığı kitabları - araşdırmaları, istərsə də XIX-XX yüzilliklərdə yaşayıb-yaratmış Bakı şairləri haqqındakı axtarışları, yazıları ilk növbədə peşəkarlığı, mövzuya yaxından bələdliyi ilə seçilir və maraqla qarşılanır.

Sona Xəyalın dəyərli oxucuların ixtiyarına verilən bu növbəti kitabında isə Mirzə Əbdülxalıq Yusif, Mirzə Əbdülxaliq Cənnəti, Hacıəli Pərişan, Səməd Mənsur kimi tanınmış Bakı şairləri ilə yanaşı, Səfa Nəbiyev, Əminağa Arif, Mikayıl Xosrov və başqaları

kimi, oxuculara demək olar ki, ilk dəfə təqdim edilən qələm sahibləri haqqında da maraqlı yazıları toplanmışdır. Sona xanımın Bakı şairləri haqqında bu kitabındakı yazları da ilkin qaynaqlar - əlyazmalar, eləcə də şəxsən tanıdığı insanların söhbətləri, xatirələri əsasında yazılmışdır və məhz bu baxımdan mötəbərliyi, dəqiqliyi ilə diqqəti çəkir.

Bütövlükdə hesab edirəm ki, Sona Xəyalın "Bakı gülzarının bülbülləri" kitabı ədəbiyyat tarixi ilə maraqlananlar və şeir həvəskarları üçün dəyərli bir töhfədir. İstedadlı qələm sahibinə - həmkarıma bu yolda yeni-yeni uğurlar diləyirəm.

Möhsün NAĞISOYLU
filologiya elmləri doktoru

HƏZRƏT ƏLİ SEVGİSİ

Allah-təala hər bir insanı dünyaya gələndə dəyərləndirir, ona yazdığı ömürlə layiq olduğu tale yolunu seçir. Hər kəsə Allah sevgisi, peyğəmbər sevgisi, Əli sevgisi verilibsə, hansı qəlbə iman işığı, təqva ziyası saçılıbsa, hansı şüura din günəşindən bir zərrə düşübsə, elə ağlı kəsəndən öz gələcəyini düşünür, gedəcəyi yolu müəyyənləşdirir, o istiqamətdə savadını, biliyini artırır, öz həyatını tutduğu yola həsr edir. O insanların həyatda müəllimləri olsa da, əsasən onları gözəgörünməz qüvvələr idarə edir. Belə düz yolun yolçularından biri də Hacı Soltandır. Az yaşda, az vaxtda ortaya qoyduğu sanballı kitablarla bütün Azərbaycanda tanınan, məclislərdə yuxarı başa çağırılan, danışarkən diqqət kəsilən, dinləyənləri sözünün sehrinə salan, qazi adına layiq görülən, Buzovnadakı Məşədi Qərib Məscidinin axundu kimi fəaliyyət göstərən Hacı Soltan təkcə ilahiyyatla məşğul olmur. Onun bir-birinin ardınca nəşr etdirdiyi kitablar hər bir ədəbiyyat adamının stolüstü kitablarıdır. Bu kitablarda bütün klassik ədəbiyyatımızın dəyərli incilərini tapmaq olar. Ədəbiyyat tariximizə düşən və yaddaşlardan köçürülüb ilk dəfə çap olunan əsərlər, eləcə də görkəmli şairlər haqqındakı məlumatlar hardasa hamımıza gərək olur. Bəzən hansı bir şairinsə bir əsərini axtaranda, mütləq digər toplularla yanaşı Hacı Soltanın çap etdirdiyi kitabları axtarırıq. Çox vaxt elə istədiyimizi bu kitablarda tapırıq. Ona görə də hər dəfə Hacı Soltanın yeni bir kitabı işıq üzü görəndə, xüsusən də onu bizə göndərəndə çox sevinirik. Mənim kitabxanamda Hacı Soltanın kitabları ayrıca yer tutur. Çünki, mən haradasa bu kitablara müraciət etməli oluram.

Hacı Soltanın istər din xadimləri ilə bağlı əsərləri, istər xətaişünaslığa hədiyyə etdiyi kitablar, istər özünün şeir kitabları və s. hamısının öz çəkisi, öz sanbalı vardır. Amma məni ən çox çəkən onun Həzrət Əli(ə) ilə bağlı kitablarıdır. Uşaqlıqdan Əli sevgisi ilə böyüdüyümdən, Həzrət Əli(ə) ilə bağlı yazılan hər bir kitab da, hər

bir məqalə də, şeir də, hətta haradasa deyilmiş bir cümlə də mənim üçün qiymətlidir. Əlidən yazanlara xüsusi hörmətim, rəğbətim, məhəbbətim var. Bu müəlliflər içərisində məni ən çox qənaətləndirən və mənə çox şey öyrədən Hacı Soltanın kitablarıdır.

Müəllifin ən dəyərıi kitablarından biri "Həzrət Əli(ə) və dünya ədəbiyyatı" adlanır. 2001-ci ildə "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzinin nəşri olan, görkəmli şair Arif Əşrəf Buzovnalının redaktorluğu ilə çap olunan bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulsa da, öz sanbalı, xüsusi çəkisi ilə elmi kitablar sırasında yer ala bilər. Kitab iki hissədən ibarətdir.

Birinci hissə altı fəsildə cəm edilib. Birinci fəsil "Şərq ədəbiyyatında İmam Əli(ə) şəxsiyyəti" adlanır. Burada Şərqin ən böyük, dahi şairlərinin əsərlərinə istinad edən müəllif Şərq ədəbiyyatında Əlinin mədhinə həsr olunmuş nümunələrlə Əli şəxsiyyətini, Əli şücaətini, Əli dəyanətini, Əli səxavətini, Əli ibadətini bütün ünvanlara nümunə kimi göstərən fikirləri diqqətə çatdırır. Fəslin əvvəlində Qurani-Kərimin "Həl-əta" surəsinin Şeyxülislam Məhəmməd Həsən Mövlazadə Şəkəvidən olan təfsirini verən müəllif yazır:"Vilayət və imamət asimanının parlaq ulduzu, insanlıq nümunəsi olan Həzrət Əlinin şan və şərəfini təbliğ edənlər və onu müsbət nişan verənlərin siyahısını 12 bölmə ilə göstərmək olar:

1.Allah-təbarəkə və təala(Quran və mələklər vasitəsi ilə)
2.Peyğəmbərlər(hədislər və möcüzələrlə).
3.Həzrət Mühəmməd(s) dilindən deyilən hədislər
4.Məsum imamların gözü ilə.
5.Həzrət Əli(ə) dili ilə(Nəhcül-bəlağə və Divani-Əli vasitəsi ilə).
6.Şairlərin gözü ilə.
7.İslam və qeyri-islam alimlərinin gözü ilə.
8.Dostların gözü ilə.
9.Düşmənlərin gözü ilə.
10.Hökmdarların gözü ilə.
11.Ən məşhur şəxsiyyətlər və ən sadə insanların gözü ilə.
12.Dərviş və rövzəxanların gözü ilə.

Bu fəsildə müəllif Qurandan, Əli divanından, Nəhcül-bəlağədən

sitatlar gətirir və fikirlərini əsaslandırır. Burada Şeyx Abbas Qumidən, Həsən ibn Sabitdən, İbni Əbül Hədiddən, Məhəmməd İdris Şafeidən, Sövdə Həmədanidən, Cəlaləddin Rumidən, Sədi Şirazidən, Hafiz Şirazidən, Əbdürrəhman Camidən, Əli Nəzmi Təbrizidən, Şah Nemətullah Vəlidən, Fikri Ərdəbilidən, Zikri Ərdəbilidən, Firdovsidən, Nəsimidən, Xətaidən, Yunis İmrədən, Əmanidən, Füzulidən, Nəbatidən, Racidən, Şəhriyardan, Vaqifdən, Vidadidən, Məsihidən, Sabirdən, Qumridən, Nəvvabdan, Dilsuzdan, Dilrişdən, Sərrafdan, Qüdsidən, Abdulla Şaiqdən, Mircəlaldan, Hacı Maildən və bir çox müasir şairlərin şeirlərindən sitatlar gətirərək, Əlinin şəxsiyyətini, təbiətini, səciyyəvi cəhətlərini diqqətə çatdırır.

Kitabın ikinci fəsli ancaq Nizaminin və Xaqaninin yaradıcılığından bəhs edir və elə fəslin adı da "Nizami Gəncəvi və Xaqani Şirvani yaradıcılığında İmam Əli(ə) şəxsiyyəti" adlanır.

Üçüncü fəsildə o taylı-bu taylı Azərbaycanın görkəmli şairlərinin fikirləri, yazılı ələbiyyatımızın ən dəyərli dini nümunələri təqdim olunur və bu əsərlərdə Əli(ə) şəxsiyyəti, Əli(ə) xarakteri açıqlanır, diqqətə çatdırılır.

Növbəti fəsillərdə aşıq şeirimizin görkəmli nümayəndələrinin şeirlərinə, bir sıra dastanlarımızda Əli(ə) ilə bağlı fikirlərə müraciət edən müəllif Aşıq Qurbani, Aşıq Alı, Aşıq Ələsgər yaradıcılığında Əli sevgisindən bəhs açır. Habelə "Kitabi-Dədə-Qorqud"da və digər dastanlarımızda Əli(ə) ilə bağlı məqamlara aydınlıq gətirərək dəyərli fikirlərini oxucularla bölüşür.

Kitabın ikinci hissəsi üç fəsildən ibarətdir. Birinci fəsil "Həzrət Əli(ə) və Qərb ədəbiyyatı" adlanır. Bu fəsildə bir sıra xaçpərəst alimlərin Əli haqqındakı fikirləri ilə tanış oluruq: Süleyman Kəttani, Fuad Cordaq, Corc Cordaq, Karlin Mixail Nueymə və s. Müəllif bir sıra yazıçıların da Əlidən dediyi kəlamları diqqətə çatdırır: Volter, Baron Kardova, Qabriel Dangiri, Cürban Xəlil Curban Livani və s. Bu fəsil Əşrəf Nəzərlinin və Şafeinin şeirləri ilə yekunlaşır.

İkinci fəsil "Həzrət Əli – dostlar və düşmənlər" adlanır. Burada imamların, xəlifələrin və bir sıra islam alimlərinin fikirləri səslənir.

Üçüncü fəsil "Həzrət Əli(ə) və islamda birlik" adlanır və burada

da müxtəlif alimlərin və şairlərin fikirlərinə istinadən müəllifin açıqlamaları ilə tanış oluruq. Sonda isə dəyərli şeir nümunələri təqdim olunur.

Hacı Soltanın Əli(ə) ilə bağlı ikinci kitabı "Duayi-Heydəri və ya Həzrət Əli(ə) zirvəsinə bir baxış" adlanır. Kitab 2002-ci ildə filologiya elmləri namizədi Rasim Nəbioğlunun redaktorluğu ilə nəşr olunmuşdur bu müəllifin sayca on beşinci kitabıdır.

Kitabda dualardan bəhs açılır, duanın qəbul olunması şərtləri, faydaları açıqlanır. "Duayi-Heydəri", "Nadi-Əli" duası, "Duayi-Əli", "Təvəssül" duası, Əlinin doğulduğu yerdə oxunan dua, onun qəbrini ziyarət edərkən oxunan dua, "Fəyyaz" duası, namazlardan sonra oxunan dualar, kamil dinlə aqibətin xeyir olması üçün oxunan dua, İmam Zaman(ə) duası və s. təqdim edilir, onların tərcüməsi də verilir. Burada Əlinin sələvatı, hirzi, ziyarətnaməsi, peyğəmbərə sələvatı, Qədir Xümlə bağlı fikirlər, Əlinin yeddi fəziləti və bir sıra hədislər hər bir müsəlman üçün bu kitabın dəyərini açıqlayır.

Hacı Soltanın 2004-cü ildə Leyla Nazimqızının redaktorluğu ilə çap olunan "Həzrət Əli(ə) kimdir" adlı kitabı da maraqlıdır. Burada Əlinin bir şəxsiyyət kimi, bir din xadimi kimi, ən başlıcası isə nümunəvi bir insan kimi xarakterik cəhətləri ön plana çəkilir. Müəllif bir sıra hədislərə müraciət edir, Əli haqqında deyilənləri dəqiqləşdirərək oxuculara çatdırır. Burada "Həzrət Əli və elm", Əlinin xasiyyəti və əxlaqı, Əlinin qəzavətləri, Əlinin möcüzələri, Əlinin ictimai xidmətləri, Divanından nümunələr verilir. Kitabın sonunda isə müəllifin öz şeirləri ilə tanış oluruq.

Hacı Soltanın şeir yaradıcılığında əsas yeri dini şeirlər tutur. Onun məşhur kitabı olan "Məsumnamə"sində əsasən on dörd məsuma həsr olunmuş şeirlər diqqəti çəkir. İstər yuxarıda haqqında söz açdığımız kitablardakı şeirlər, istərsə də "Məsumnamə"dəki şeirlər şairin dini şəxsiyyətlərə olan münasibətini–sevgisini, rəğbətini açıq-aydın göstərir. Bu əsərlər içərisində Həzrət Əliyə yazılmış şeirlər çoxluq təşkil edir.

Bir səda gəldi Xudadən mümkün olsun bu əməl,
Eşq nuriylə qoyulsun mülki-dünyayə təməl.

Verdi fərmanın cahanə ol qədimü ləmyəzəl,
Söyləsin hər bir yaranmış bu sözü biixtiyar:
"La fəta illa Əli la seyfə illa Zülfüqar".

Bu, Hacı Soltanın Əliyə həsr olunmuş müxəmməsindəndir. Bu şeirlə şair hələ dünya yaranmamışdan, külli-aləm var olmamışdan belə bir şüarın səmada nur ilə yazıldığını və Allahdan nida gəldiyini, Cəbrailin insü cinnə bir sirr açdığını, bütün mələklərin təkrar edərək "La fəta illa Əli la seyfə illa Zülfüqar" söylədiyini, bu sözün hər cəngdə səsləndiyini obrazlı ifadələrlə bizə çatdırır. Müəllifin "Əlidir" rədifli qəzəlində də onun aliliyi, misilsizliyi vurğulanır. Əlinin təqva sahibi, imamlığın ölçüsü, meyarı, halalın həddi, paklıq rəmzi olduğunu bədii təsvir və ifadə vasitələri ilə oxucuya çatdıran şair yazır:

Tanrının şəfqət mehrinə odur layiq olan,
Özü ali, sözü ali, adı əla Əlidir.
Əli gər hər nə ibadət eləyə, məqbuldur,
Çün ibadətlərə də ziynətü ziba Əlidir.
Qapısı pir, özü nur, kərəm sahibidir,
Aləmi-mərifəti eyləyən inşa Əlidir.

Şair bu dünyadakı sərvi, o dünyadakı Tubanı belə Əlinin mədhində aciz sayır və Allahın adındakı əlifin icrasının Əli olduğunu diqqətə çatdırır. Qeyd edir ki, Allahı tanıyan kimsə Əlidən dönməz, çünki insanlara hər iki dünyada mövla Əlidir.

Hacı Soltanın "Əli" adlı digər şeirində də Əlinin mədhini görürük. Şair burada Eynullah, Yədullah, Əsədullah kimi təqdim etdiyi Əlinin tərifinin göylərə çatdığını, onun dünya nemətlərinə göz yumub nəfsini ayağı altına atdığını, Allaha yetmək eşqilə yaşadığını, din yolunda şəhid olduğunu və xalqın candan keçməyi ondan öyrəndiyini yazır və bəşəriyyətə şah, lakin Allaha nökər olan, Həsənə sərdar, Hüseynə sərvər, xanımlar xanımı Fatiməyə ər olan, peyğəmbər dizində yatan Əlinin mədhini belə yekunlaşdırır:

Soltanam, Əlini etmişəm şüar,
Ey bəşər, Əlidən üstünümü var?
Onu nə gözdə gör, nə sözdə axtar,
Ürəklərdə məkan tutandır Əli.

Şairin “Əlidir dövlətü varım” adlı bəhri-təvili də maraqlıdır. Bütöv bir cümlə olan bu əsərdə müəllif demək olar ki, Əlinin həm səciyyəvi cəhətlərini verir, həm Əliyə olan sevgini izhar edir, həm də insanları Əli yoluna dəvət edir.

Şairin “Eylə” rədifli qəzəlində Allahdan kərəm qılıb onu fanilikdən uzaq etməsini, ruhunu ilahi qüdsiyyətə bir dəm qonaq etməsini acizanə surətdə rica etdiyinin şahidi oluruq. Burada müəllif özünü Əli yolunun yolçularından görmək istəyir və üzünü insanlara tutub bu yolun məziyyətlərindən söz açır, eyni zamanda bu yolun çətinliklərini də göstərir. O yazır:

Tərk etdi Əli nəfsini, ad aldı Yədullah!
Qafil, nə nişandır o nişan, get, soraq eylə.
Allah sifətin aldı olub piri-xərabət,
Kimdir Əli, o əhli-xərabət, maraq eylə.
Gəl axirət istərsən ola ruhuna rahət,
Üç dəfə bu dünyayə Əli tək talaq eylə.

Göründüyü kimi şair şeirlərində bəzi hədislərə müraciət etmiş, Əli ilə bağlı deyilənlərdən, yazılanlardan istifadə edərək, obrazlarla Əli şəxsiyyətinə güzgü tutmuşdur.

Hacı Soltanın “Ya Əli” adlı sürudu və İmam Əlinin şəhadətinə yazdığı növhəsi də diqqəti çəkir.

Ey dost, məndən etmə möcüzə tələb,
Qəlbində Əlidən yoxdusa mətləb,-

beytilə başlayan “Əli eşqi” adlı məsnəvidə şair peyğəmbərdən başlayır, on iki imama qədər bütün məsumların mədhini verir və sonda yenə də Əliyə qayıdaraq yazır:

Bir qəlb ki, Əliyə yox məhəbbəti,
Hər iki aləmdə yeri yox qəti.

Həzrət Əli sevgisindən çox danışmaq olar, çox yazmaq olar. Hacı Soltanın bütün kitablarından söz açsaq, elə bir kitab da yazmaq olar. İnşaallah gələcəkdə Hacı Soltan haqqında kitablar da yazılacaq. Bu kiçik yazımızda sadəcə onun yaradıcılığından bəzi məqamlara nəzər

yetirdik. Şair dostumuzun 50 illik yubileyini təbrik edir və ona yaradıcılıqda yeni uğurlar arzulayırıq.

"Söz mülkünün Soltanı" kitabından. Bakı, 2008.

SƏMƏD MƏNSUR

Allah-təala insanı yaratmamışdan əvvəl sözü yaratdı. Bütün canlıların şərəflisi kimi yer üzünə öz canişini olan insanları göndərəndə də onları sözlə ziynətləndirdi. İnsan sözün qüdrəti ilə qüdrət tapdı, sözün gözəlliyi ilə bəzəndi. Amma seçilmiş insanlara başqalarından fərqli olaraq ilham verdi, yeni söz demək istedadı verdi. şair adına layiq gördüyü insanlara həm də başqalarından fərqli yaşam tərzi, çox vaxt da faciəli tale yazdı. Hər şair öz dövrünün övladı kimi doğuldu, bəşəriyyətin, dünyanın övladı ola bilənlər isə zaman-zaman yaşadı. Əlyazmaları yandırılsa da, torpağlara gömülsə də, anbarlarda çürüsə də ədəbi irsi ölmədi…

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinələrini, arxivləri göz önünə gətirəndə, bir anlıq ömrünü-gününü şeirə-sənətə həsr etmiş, lakin keşməkeşli həyat tərzi yaşamış, faciələrlə üz-üzə gəlmiş şairlər xəyalən həmsöhbətin olur. Rəngi solub-saralmış, kənarları didilmiş, cırılmış adi kağız parçaları bəzən əlində zər-zibaya dönür. Oxuyursan, köçürürsən, bir də yoxlayırsan, bir də, bir də və bircə onunla təsəlli tapırsan ki, nə yaxşı Allah imkan verib yazılanların hamısı məhv olmayıb, qədirbilən insanlar onları nə yollasa qoruyub saxlayıb bu gün bizə çatdırıblar…

Əlyazmalar İnstitutunda illər boyu bağlı qalan qovluqlar arasında Bakı ədəbi mühitində yaşayıb-yaradan şairlərin də payı var. Ən çoxu XIX-XX əsrdə yaranan şeir nümunələri diqqəti çəkir. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakıda istər ictimai-siyasi, istərsə də ədəbi mühitin qaynarlığı həmin dövrdə yaranan ədəbiyyatda daha çox öz əksini tapmışdır. Bu dövrün ən fəal iştirakçılarından biri istər sağlığında, istərsə də vəfatından sonra da həmişə diqqət mərkəzində olan Səməd Mənsurdur. Səməd Mənsur Bakıda doğulmuşdur. Lakin onun doğum tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Ədəbiyyat Cəmiyyətinə qəbul zamanı doldurduğu anketdə şairin, 1879-cu ildə

dünyaya gəldiyini qeyd etməsi məhz bu tarixin doğruluğuna inam yaratsa da hardasa Səməd Mənsurun 47 il deyil, 45 ildən az yaşadığı ehtimal olunur. Ümumiyyətlə, o dövr şairlərinin hamısının təvəllüd tarixində səhvlərin olması ehtimalı var…

Əksəriyyət bakılı şairlər kimi Səməd Mənsurun da qismətinə yüksək təhsil almaq düşməyib. Amma o öz qabiliyyəti, istedadı, şəxsi mütaliəsi sayəsində ədəbi səviyyəsini yüksəldib istər yaradıcılığda, istərsə də gördüyü başqa işlərdə müvəffəqiyyət qazanmışdır. O zaman yaradılmış «Səfa» və «Nicat» cəmiyyətlərinin işində yaxından iştirak edən şair «Ədəb yurdu»nun işində çalışmış, daha sonra «Turan» mətbəəsinin yaradılmasında və fəaliyyətində böyük xidmətlər göstərmişdir. Ömrünün son beş ilini isə Dövlət Plan Komissiyasının İşlər müdiri vəzifəsində çalışmışdır.

Səməd Mənsur «İqbal», «Səda», «Bəsirət» və sair qəzetlərdə, eləcə də «Molla Nəsrəddin», «Tuti», «Zənbur», «Şeypur» kimi jurnal larda müntəzəm çıxışlar etmiş, bir neçə dəfə özü də müstəqil qəzet və jurnal çap etməyə cəhd etmişdir. Səməd Mənsurun müxtəlif orqanlarda gizli imzalarına rast gəlmək olur: Mənsur, Əyar, Pompuşalı, Mığmığa, Tuti və sair.

Səməd Mənsur həm də dramaturq və aktyor kimi tanınmışdır. Pyesləri tənqid-təbliğ teatrında oynanılmışdır. Şairin ona yaxın pyesi məlumdur.

Bütün bu sahələrdəki fəaliyyəti, xidmətləri paralelində Səməd Mənsurun bir şair kimi yaradıcılığı daha çox diqqəti çəkir. Xüsusən onun ictimai-siyasi lirikası daim təqdir olunub, bu günün özündə də Səməd Mənsur adı çəkiləndə məhz bu şeirlər yada düşür. Amma təəssüflər olsun ki, hələlik şairin ən çox satirik şeirləri əldə edilmişdir. Əlyazmalar İnstitutunda Səməd Mənsurun xeyli əsəri saxlanılır: Fraqment–835 şifrəli qovluqda qəzetlərdə çap olunmuş qəzəl, təxmis və sair şeirlər 36 makina vərəqində bənövşəyi mürəkkəblə yazılmışdır. Fraqment–284 şifrəli qovluqda şairin qara mürəkkəblə qara və bənövşəyi karandaşla yazılmış 149 pərakəndə, müxtəlif ölçülü vərəqlərdə şeirləri vardır. Fraqment–293 şifrəli qovluqda 126 vərəq həcmində şeirlər saxlanılır. B–3552 şifrəli

qovluqda şairin üç şagird dəftəri həcmində avtoqrafları vardır.

C–348 şifrəli qovluqda Əliabbas Müznibin xətti ilə yazılmış əsərlər və haqqında qısa məlumat vardır. Bu yazıda Səməd Mənsurun musiqişünas, tarçalan, yaxşı oxuyan olduğunu, osmanlı türkcəsindən azəri türkcəsinə pyeslər tərcümə etdiyinin, ədəbi mühitdə və səhnədə böyük xidmətlər göstərdiyini qeyd edən müəllif yazır ki: «Səməd Mənsur istedadda simalar, Azərdaycanda deyil, başqa yerlərdə də nadir yetişə bilir».

Müasir oxucular Səməd Mənsurun şeirlərinə ilk dəfə Cəfər Rəmzinin «Deyilən söz yadigardır» toplusunda rast gəliblər. Şairin şeirləri daha sonra «Molla Nəsrəddinçi şairlər» adlı antologiyada, Məmməd Nurinin «Azərbaycan qəzəlləri» toplusunda çap olunub. Səməd Mənsurun şeirləri ilk dəfə kitab şəklində xalq yazıçısı Anarın tərtibində «Həpsi rəngdir» adı altında nəşr olunub.

Şair haqqında yazılan əsərlərə gəlincə, ASE-nin VIII cildində verilmiş kiçik biblioqrafik yazıda, Anarın tərtib etdiyi kitaba yazdığı «Dünyanı rəng bilən şair» adlı ön sözdə, araşdırıcı və pedaqoq Abbas Abdullayevin mətbuatda gedən maraqlı məqalələrində, gənc tədqiqatçı Yadigar Mehdiyevanın Səməd Mənsurda bağlı dissertasiyası ilə əlaqədar çap etdirdiyi məqalələrində şairin yaradıcılığına müxtəlif baxışların şahidi oluruq.

Mircəlal Paşayev özünün doktorluq dissertasiyasında ədəbi məktəblərdən danışarkən bakılı şairlərdən Əbdül Xalıq Cənnətiyə və Səməd Mənsura xüsusi bəhs ayırmışdır. Səməd Mənsur haqqında yazıda həm şairin həyatı, həm də yaradıcılığı haqqında dəyərli məlumatlar oxuyuruq.

Səməd Mənsur haqqında ən böyük əsəri isə f.e.d. Nazif Ələkbərli yazmışdır. «Bir ömrün rəngiləri» adlanan bu kitabda müəllif «Sənətkarın söz xəzinəsi»ndə, «Rənglərlə yaşayan şair»in həyata, dünyaya, insanlara, ədəbi mühitə münasibətindən söz açır, «Teatr və sənətin xidmətində» dayanan şairi həm də bir dramaturq və aktyor kimi təqdim edir. «Sərt həqiqətlər»in öz əksini tapdığı şeirlərdə şairin vətəndaşlıq mövqeyini açıqlayan müəllif «Publisist sözün kəsəri» və «Ənənələr və sənətkarlıq xüsusiyyətləri» adlı yazılarda Səməd

Mənsur yaradıcılığının ən qabarıq xususiyyətlərini oxuculara çatdırmışdır.

Əlyazmalar İnstitutu iki il öncə Səməd Mənsurun «Birinin bayramı, birinin matəmi» adlı kitabını nəşr etdirmişdir. İnstitutun direkdoru Məmməd Adilov da şairin arxivlərdə saxlanılan şeirləri və bəzi sənədlər haqqında mətbuatda yazılar çap etdirmişdir.

Oxuculara təqdim edilən bu kitaba isə əvvəlki kitabdan fərqli olaraq şairin daha çox şeiri daxil edilmişdir. Tərtib zamanı şeirlər çap mənbələrinə görə və çap tarixləri ardıcıllığı ilə yerləşdirilmişdir.

1927-ci il yanvarın üçündə ədəbi ictimaiyyət ağır itki ilə üzləşdi. Yanvarın 5-6-sı qəzetlərdə nekroloqlar çap olundu. Səməd Mənsurun vaxtsız vəfatı təkcə ədəbiyyat adamlarını deyil, adi oxucuları da, tamaşaçıları da kədərləndirdi. Hüznlü xəbərlər, təəssüf dolu etiraflar, doğrudan da görkəmli bir sənət, ədəbiyyat adamının dünyadan köçdüyünü anlatdı. Şairlər sənət dostlarının ölümündən kədərlənib, ona ağılar yazdılar. Bakılı şairlərdən Ağadadaş Müniri yazdığı rübailərdə Səməd Mənsurun həm sənətini, ədəbi-ictimai fəaliyyətini qeyd etmiş, həm də onun vəfatına dair maddeyi-tarix yazmışdır.

Bir naşir idi, nəşrin ötürdü, getdi.
Töxmi-hünərin əkib bitirdi, getdi.
Pürbar nihal idi Səməd, axırda
Barü bərini verib yetirdi, getdi.

Tarixi-vəfati-Səmədəm ba əbcəd,
Zərbi-ədəd eylədikdə ba sifrü ədəd,
Oldu bu rübai hicri ilə təkmil:
Tarixi-Səməd adıyla tarixi-Səməd.
1345 hicri.

Səməd Mənsurun hələ xeyli çap olunmalı əsərləri, şeirləri və pyesləri vardır. Səməd Mənsur hələ də öz tədqiqatçılarını gözləyən sənətkardır. Ümid edirik ki, gələcəkdə şairin daha sanballı kitabları işıq üzü görəcək və haqqında dəyərli monoqrafiyalar yazılacaqdır.

Səməd Mənsur. Əsərlər. Bakı-2008. "Ədəbiyyat qəzeti",

ƏBDÜLXALIQ CƏNNƏTI

Görkəmli Azərbaycan şairi Əbdülxalıq Cənnəti Qafarzadə 1855-ci ildə Bakıda anadan olmuşdur. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yeddi qovluqda şairin əsərləri saxlanılır. Şair haqqında ən dəyərli məlumatı 1475 şifrəli fraqmentdən oxuyuruq. Şairin ana babasının, Bakı xanı Hüseynqulu xanın ovçubaşısı olan Səfərəlinin oğlu olduğunu, şairin doqquz yaşında dərsə gedib, xüsusi müəllim yanında iki il yarım dərs oxuduğunu, on iki yaşından işləyərək ailəyə kömək etdiyini bildirən yazıda həm də şairin yaradıcılıq fəaliyyəti ilə tanış oluruq. On səkkiz yaşından şeir yazmağa başlayan Əbdülxalıq gündüzlər işləyib, gecələr ürəfa məclislərinə gedər, ədəbiyyat söhbətlərinə qulaq asarmış. Şairlərlə şeirləşmədə dəfələrlə üstünlük qazanmış Əbdülxalıq şeirlərini Vasif, Əttar, Həccarzadə, Daşkəsənoğlu təxəllüsləri ilə yazmış, sonralar bağa, bostana, gülüstana vurğun olduğundan daimi "Cənnəti" təxəllüsünü götürmüşdür. Bir dəfə yeddi şairin şeirləşdiyi məclisdə Seyid Əzim də iştirak edirmiş. Cənnəti hamıya üstün gəldiyində Seyid Əzim demişdir: "Təəccüb edirəm ki, bunlar hamısı məşhur ikən, siz nə üçün belə kəmnam qalmısınız?" Cənnəti bu suala belə cavab vermişdir: "Kiminin məşhurəti olur, kiminin hünəri".

Cənnətinin həyatında çox faciələr olmuş, o övladlarını vaxtsız itirmişdir, buna görə də əsəb xəstəliyinə tutulmuşdur. Şair 1931-ci ildə Bakıda vəfat etmişdir.

Cənnəti millət yolunda, tərəqqi yolunda daim mücadilə etmişdir. Əlabbas Müznib onu şeirimizin "Hürriyyət peyğəmbəri" kimi təqdim edir və Cənnətinin hürriyyət şeirləri yazdığı vaxtlarda nə Sabirin, nə Hadinin hürriyyət haqqında düşünüb şeir yazmadığını qeyd edir.

1905-ci ildə Bakıda mətbuat yaranandan sonra ən fəal şairlərdən biri kimi tanınan Cənnəti "Təkamül"də, "Dirilik"də, "İrşad"da müntəzəm çap olunmuşdur. Qeyd etdiyimiz əlyazmada şairin dini mövzuda "Mühəssənati-şəriət" adlı risaləsinin, nəsihətnaməsinin, "Yənbuil-hikmət", "Təhvilül-övzan" adlı ədəbiyyat qaydaları kitabının, əxlaq elminə dair üçcildlik əsərinin, altı min beytlik divanının və

"Əs-səfər fil-həzər" adlı romanının olduğunu bilirik. Şairin həm fars, həm Azərbaycan dilində bir sıra əsərləri haqqında sovet dövründə də tədqiqatçı-alimlər məlumat vermişlər. 1946-cı ildə Akademiyanın Ədəbiyyat və Dil İnstitutunun əsərləri seriyasının birinci cildində Mircəlalın Cənnəti haqqında ilk məqaləsi çap olunmuşdur. Sonra 1956-cı ildə Ədəbiyyat qəzetinin 10 iyun taririxli sayında Cəfər Xəndanın məqaləsi dərc edilmişdir. Qəribədir ki, məqalənin sonunda müəllif "Cənnəti böyük irs qoyub getmişdir, onun bir çox şeirləri indi də öz əhəmiyyətini itirməmişdir. Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən toplanmış bu şeirləri çapa hazırlayıb şairin heç olmazsa "Seçilmiş əsərləri"ni buraxmaq lazımdır" – yazır. Görəsən, o zaman şairin toplanmış əsərləri indi haradadır?

Cənnəti haqqında daha bir məqalə RƏF-in əsərlərində 1963-cü ildə çap olunmuşdur. Əlyazmalar İnstitutunun əməkdaşı Nəsrəddin Qarayev bu məqaləsində yazır: "Azərbaycan SSR EA Respublika Əlyazmalar Fondunda şair Əbdülxalıq Əbdülqafar oğlu Cənnətinin (1855-1931) B-1545, B-1199, B-2700 və M-152 nömrəli şifrələr altında avtoqrafları saxlanılır. B-1545 şifrəli ümumi dəftərdə Cənnətinin ictimai xarakter daşıyan şeirləri toplanmışdır. B-2700 şifrəli avtoqraf əsasən Azərbaycan və fars dillərində yazılmış aşiqanə qəzəllərdən ibarətdir. Cənnətinin iri həcmli avtoqraf əsərləri B-1199 şitfrəli ümumi dəftərdədir. Burada onun "Qız qalası", "Qılınc və qələm" poemaları, "Qurd və tülkü" təmsili, "Bülbül", "Kəhər at" və başqa əsərləri vardır. Yaradıcılığının ilk dövrlərində əsasən "Vasifi" təxəllüsü ilə yazdığı Azərbaycan və fars dillərində olan qəzəlləri isə M-152 şifrəli ümumi dəftərdədir. Avtoqrafların heç birində onların yazılış tarixi qeyd edilməmişdir".

Əlyazmalar İnstitutunun xəzinəsində Nəsrəddin Qarayevin qeyd etdiyi şifrələrdən başqa B-7791 şifri altında Cənnətinin S.Mümtaza müraciəti və şeirləri, B-1530 şifri altında Vasifin şeirləri vardır ki, bunlar avtoqrafdır. D-760 şifri altında Cənnətinin xeyli əsəri vardır ki, bunları Əliabbas Müznib müxtəlif mətbuat orqanlarından toplamışdır. Şeirlər qara və bənövşəyi mürəkkəblə makina vərəqlərinə və arxası şəkilli vərəqlərə yazılmışdır. Biz həmin şeirləri ərəb

əlifbasından çevirdik, çevirmə zamanı müasir oxuculara bir qədər asan olsun deyə bəzi fonetik dəyişikliklərə yol verdik.

Nəsrəddin Qarayev "Poetik məclislər" adlı toplusunda da Cənnəti haqqında qısa məlumat və əsərlərindən nümunələr vermişdir. Bundan başqa oxucular Cəfər Rəmzinin "Deyilən söz yadigardır" və Məmməd Nuru oğlunun "Azərbaycan qəzəlləri" toplularında da şairin əsərləri ilə tanış olmuşlar.

Nəsrəddin Qarayev poetik məclislərlə bağlı yazdığı namizədlik dissertasiyasında Cənnətinin yaradıcılığını da dəyərləndirmişdir. Ağabəy Əsgərov isə şairin yaradıcılığından ayrıca namizədlik işi yazmışdır.

Biz burada Cənnəti haqqında bildiklərimizin az bir qismini oxuculara çatdırdıq. Cənnəti elə böyük ədəbi irs qoyub getmişdir ki, beş-on məqalə və bir namizədlik dissertasiyası ilə onun yaradıcılığını işıqlandırmaq mümkün deyildir. Yəqin, zaman gələcək ki, Cənnəti yaradıcılığından namizədlik və hətta doktorluq dissertasiyaları yazılacaqdır. Biz isə şair haqqında qısa məlumatla və Ə.Müznibin toplayıb hazırladığı əsərləri müasir əlifbaya çevirib oxuculara çatdırmaqla həyatını ədəbiyyata, maarifə həsr etmiş cəfakeş şairin 150 illik yubileyində ruhunu şad etmək istədik.

Əbdülxalıq Cənnəti. "Vətən tərənəsi" . Bakı-2006. "Ədəbiyyat qəzeti",

HACƏLİ PƏRİŞAN

Bakı-Abşeron ədəbi mühiti Azərbaycan ədəbi həyatının ayrılmaz bir hissəsi kimi daim inkişafda olmuş, Azərbaycan poeziyasına bir sıra görkəmli sənətkarlar vermişdir. Əlimizə gəlib çatan şeir nümunələri XIII əsrdən üzü bəri olsa da, ən fəal dövr XIX–XX əsrlər olmuş, bu dövrdə bir çox yaddaqalan klassik şeir nümunələri yaradılmışdır. İstər klassik şeir ənənəsini yaşadan əruz vəznli şeirimizin müxtəlif janr və formalarında yaradılan nümunələr, istərsə də şeirimizin ana xətti sayılan heca vəznində yazılmış şeirlər öz sənətkarlıq xüsusiyyətlərinə görə bu gün də diqqəti cəlb edir. XIX əsrdə Azərbaycanın müxtəlif bölgələrində yaranan ədəbi məclislərin fəaliyyəti, məclis üzvlərinin başqa məclis üzvləri ilə müşairələri poeziyamızın

inkişafında, şairlərin püxtələşməsində olduqca böyük rol oynamışdır.

Bakı ədəbi mühitində 1860-cı ildə təsis olunmuş "Məcməüş-şüəra"nın daha böyük rolu olmuş, bu məclisin üzvləri XX əsrin əvvəllərində milli şeirimizin yaranmasında, xalqın şüurunda milli oyanışın yaranmasında xüsusilə böyük səy göstərmiş, millətin maariflənməsi yolunda, yeni üsullu məktəblərin açılmasında həm əməkləri ilə, həm də maddi vəsaitləri ilə fəal iştirak etmişlər. Bu şairlərin şeirindəki türkçülük və ümumislam ideyalarının olması sovet dövründə onların əsərlərinin arxivlərə gömülməsinə, əlyazma dolu sandıqların yandırılmasına səbəb olmuşdur. Sovet sistemi dağılandan sonra arxivlərin açılması, bu şeir nümunələrinin çapı üçün şəraitin yaranmasına səbəb olmuş, artıq bir sıra şairlərin kitabları işıq üzü görmüşdür.

Şerlərində türkçülük və islamçılıq ideyalarını təbliğ edən, millətin öz kökünü, soyunu dərk etməsi, öz milli şüurunu qoruması üçün şüurlarda dirçəliş, milli oyanış yaradan şairlərdən biri də Hacəli Pərişandır. 1876-cı ildə Nardaran kəndində dünyaya göz açan şair ilk təhsilini də həmin kənddə mollaxanada almışdır. Sonralar altı il Bakı rus-tatar məktəbində təhsil alan şair rus, ərəb və fars dillərini mükəmməl öyrənmiş, sonra məktəbdə müəllim vəzifəsində çalışmışdır. Şerlərdəki giley-güzardan şairin olduqca ağır vəziyyətdə, ehtiyac içərisində yaşadığı məlum olur. Əlyazmalar İnstitutunda Hacəli Pərişanın əruz və heca vəznində qələmə aldığı xeyli şeiri saxlanılır.

«Deyilən söz yadigardır» və «Azərbaycan qəzəlləri» toplularında şairin çap olunmuş şeirləri ilə müqayisədə əlyazmalarda bir sıra variant fərqləri, eyni zamanda leksik və qrammatik fərqlər müşahidə olunur.

Şairin şeirləri əsasən Əlabbas Müznibin arxivində saxlanılır. Eyni zamanda fraqmentlər bölməsində də şairin bir neçə şeirinə rast gəlmək olur. Şerlər həm mürəkkəblə, həm də qara karandaşla yazılmışdır. Bizcə, mürəkkəblə yazılmış yazılar Əlabbas Müznibin və digər katiblərindir, karandaşla yazılanlar isə şairin avtoqraflarıdır.

Şairin sonuncu şeirlərinin tarixləri otuzuncu illərə təsadüf edir. Bu şeirlərin əksəriyyətinin altındakı qeyddən onların sürgündən göndə-

rildiyi məlum olur. Şairin 6 dekabr, 1928-ci il tarixli şeirinin altında «qapıda deyilmişdir» sözlərindən bilinir ki, şair həmin gün həbs olunmuşdur. Şer belə bitirir:

Qoymadı sənlə məni bircə nəcibanə gəzim,
Nanəcibin əlinə onda ki, fərman düşdi.
Dağılıb yari-həvadar gedib başindən,
Gün o gün oldi ki, zindanə Pərişan düşdi.

Şairin sürgün şeirləri 1933-cü ilə qədər davam edir. Həmin ilin sonunda şair dostu Şeyxəli Tutiyə yazdığı «Nardarandayam» rədifli şeiri isə artıq onun vətənə döndüyünü bildirir. Şerlərindəki son tarix hələlik 1939-cu ildir. Şairin 1944-cü ildə vəfat etdiyi bildirilir. Bu aralıqda şairin harada olduğunu bilən yoxdur. Bəziləri onun yenidən sürgün edildiyini, sonralar müharibədə həlak olduğunu zənn edir. Amma dəqiq məlumat əldə edə bilmədiyimizdən tədqiqatımızı davam etdirməyi lazım bilirik.

Şairin 1930-cu ildə yazdığı sürgün şeirlərindən görünür ki, çox əzablara, məhrumiyyətlərə düçar olub. Xəstələnib, xəstəxanaya düşən, şair-dostu Niyaziyə yazdığı şeirdə öz dərdini, tənhalığını açıqlayır. «El bilir, aləm bilir» rədifli qəzəlində Füzuli ənənələrini davam etdirən şairin ən əzablı, əziyyətli çağlarda da şeirdən ayrılmadığının, lirik duyğulardan kənar olmadığının şahidi oluruq. Şairin 1933-cu ildə yazdığı və əksi ilə birlikdə göndərdiyi «Yadigar» adlı qəzəlindən məlum olur ki, şimala sürgün olunub:

Qürbət ağartdı başımi, həm bükdi, qəddimi,
Ərzi-şimaldə gəzərəm mən əsa ilə.

Hacəli Pərişanın şeirləri içərisində 1918-ci il mart façiəsinə həsr olunmuş şeir, eləcə də türkçülüklə bağlı şeirləri daha çox maraq doğurur. «Mart hadisəsi haqqında» adlı şeir baharın təsviri ilə başlanır: qış bitir, bahar gəlir, yer üzü yaşıl rəngə bürünür, lalələr, nərgislər, nəsrin, bənövşə və yasəmənlər ətir saçır, aprel yağışı yer üzünə yağdıqca meşələr, ormanlar daha da gözəlləşir, ətirlənir, könül aynasını saflaşdırır və birdən çərxi-fələk tərsinə dövr edir, gül əyyamı öz yerini xəzan fəslinə verir. Şair yazır:

Düşdi on səkkiz mart hadisəsi Qafqazə,
Müslimə küfri-şiyəm çövrini etdi izhar.
Açdılar zülm əlini millətı-islamə təmam,
Oldular qətlinə amadə qərəz leylü nəhar.
Neçə gün kuçəvu bazarə açıblar atəş,
Neçə min qətlə yetüb mərdü zənü xürdü kübar.
Qaldı məzlumlərin nəşi kəfənsiz neçə gün,
Oldu nə sidr, nə kafurü nə qüslü nə məzar.
Oldu iffətli xanım müslimələr küfrə əsir,
Getdi yəğmayə zərü zivər, həp hər nə ki var.
Zərbi-üçdügməli top Tazə piri etdi xərab,
Şu zərab ilə xərab oldu dərü həm divar.

Şair burada Kərbəla hadisəsini xatırladır, neçə min əsgərin şəhid olduğunu bildirir və bir gün ulu Allahın bu zülmlərin əvəzini verəcəyinə inanır.

"Türklərin gəlməsi haqqında" şeirində şair baş verən faciənin acı nəticələrindən danışır, sonra türklərin gəlməsini, qatillərin cəzalandırıldığını qeyd edir. Burada Mürsəl paşa ilə Nuru paşanın adını çəkir və Allahdan onları hifz etməsini diləyir.

"Türklük" adlı şeirdə "Türk oğluyam, damarlarımda mənim Türklük qanı həp eyləyir cərəyan", - deyə öz soy-kökünü öyən şair vətənini sevən bir gənc kimi nə qədər qolunda qüvvət, bədənində can var, vətənini düşmənlərə verməyəcəyini bildirir. «Vətəni əlindən gedən bir millət həqir olur, zəlil olur, xar olur», – deyən şair türk oğlu türkün heç bir zaman düşmənin qulu olmadığını, düşmənləri öz qarşısında diz çökdürdüyünü qürurla, iftixarla söyləyir. Şer belə bitir:

Vətənimdir mənim Azərbaycan,
Adına, özünə adım da qurban.
Bu yer qalıb mənə ulu babandan,
Şahidimdir Oğuz, Teymur, Çingiz xan.

İki şey var yürəgimdə parlayan,
Onlara pək məhəbbətlər bəslərəm.
Pərişandan "nədir" deyə sorsalar,
Vətənimdir, millətimdir, - söylərəm.

Hacəli Pərişan dövrünün hadisələrinə münasibətini əks etdirən şeirlərlə bərabər, klassik ənənəni davam etdirən şeirləri ilə də şöhrət

qazanmışdır. İstər qəzəlləri, qitə və növhələri, istərsə də dövrün eybəcərliklərini əks etdirən tənqidi şeirləri sənətkarlıq baxımından diqqəti cəlb edir. Şairin Füzulidən təxmisi də onun klassik şeiri dərindən bildiyini, sənətkaranə qələm işlətdiyini açıqlayır. Qələm dostu Hacı Şeyxəli Tutiyə xitabən, eyni zamanda onun yazdığı şeirlərə cavab olaraq yazdığı şeirlərdə də şairin müəllifin sənətə, ədəbi mühitə münasibətini aydın görürük. Ümumiyyətlə, Hacəli Pərişanın şeirləri onun həm səciyyəvi xüsusiyyətlərini, açıqlamaq baxımından, həm də şairin həyatını, insanlara münasibətini öyrənmək baxımından dəyərli məlumatlar verir.

Hacıəli Pərişan. Gəl edək hümmətü qeyrət. Bakı-2005. "Ədəbiyyat" qəzeti,

MİRZƏ ƏBDÜLXALİQ YUSİFIN ŞEİRLƏRİNDƏ DİNİ MÖVZULAR

Mirzə Əbdülxaliq Yusif 1851-ci ildə Bakıda(İçərişəhərdə) anadan olmuşdur. Kiçik yaşlarından mollaxana təhsili alan şair sonralar ərəb və fars dillərini mükəmməl öyrənmiş və üç dildə şeirlər yazmışdır. 18 yaşında ikən müxtəlif janrlarda şeirlər yazmış, "Məcməüş-şüəra"da böyük şairlərlə yanaşı həmişə bəyənilmiş, alqışlanmışdır. Mirzə Əbdülxaliq Yusif öz dövründə keçirilən şeir məclislərinə başçılıq etmiş, bir çox şairlərin yetişməsində böyük xidmət göstərmiş, o cümlədən Vahidin müəllimi olmuş və ona "Vahid" təxəllüsünü də özü vermişdir. Yusif o dövrün görkəmli şairlərindən olan Seyid Əzim Şirvani, Əbdülxaliq Cənnəti, Azər Buzovnalı, Haşım bəy Saqib və başqaları ilə dostluq etmişdir. Yusif təkcə Bakı şairləri arasında deyil, Azərbaycanın başqa bölgələrində də tanınan və sevilən bir şair olmuşdur.

Hələ gənc yaşlarından klassik ədəbiyyatı, ilahiyyatı, şəriəti, ərəb və fars dillərini dərindən bilən, öz yaradıcılığında ədəbi və elmi dəyərləri qiymətləndirən, özünəməxsus tərzdə mənalandıraraq tərənnüm edən Əbdülxaliq Yusif arifanə, aşiqanə şeirlərilə yaşadığı mühitdə məşhurlaşmış, ədəbi mühitdə yüksək mövqe qazanmışdır. Onun irfani qəzəllərlə yanaşı sırf dini mövzuda yazdığı əsərləri də vardır. Yusif yaradıcılığında Allah-təalanın, Qurani-kərimin, Pey-

ğəmbərin, imamların, xüsusilə də Kərbəla vaqeəsinin tərənnümünə həsr olunmuş əsərlər bədii dəyərinə və mövzu rəngarəngliyinə görə daha çox diqqəti cəlb edir. Quran ayələrinə, peyğəmbərin hədislərinə, Kərbəla hadisəsinə istinad olunan fikirlərin şeirə gətirilməsi, açıqlanması şairin hərtərəfli biliyə malik olduğunu, İslam tarixini, şəriəti, irfanı, Qurani-kərimi gözəl bildiyini göstərir. "Bana" rədifli qəzəldə:

Sənsən bana murad, muradım budur bənim,
Bən razıyam sana nə ki, görsən rəva bana.

Hicranda hər vəsilə ilə olsa dilxoşam,
Çatdırdı buyi-zülfüvi badi-səba bana.

Amalımın nəhayəti sənsin, gərəkməyir
Ey könlümün məsərrəti, səndən səva bana.

Yusifdən etmə mərhəmətin kəm, fəqirdir,
Bir kəm inayətindü sərasər ğəna bana.

şairin ən ulu varlığa olan inamı, eşqi, arzusu verilir. Burada yada böyük Füzulimizin "Göstərmə ol təriqi ki, getməz sana, bana" misrası düşür. Bəlkə də bu qəzəli Yusif həmin qəzələ nəzirə yazmışdır. Burada biz şairin İlahi eşqini, ürfani hissini duyuruq. Hər bir haqq aşiqinin öz yaradanına dediyi həqiqətdir. Sən mənə muradsan, mənim arzum, istəyim budur ki, sən mənə nə rəva görürsən, mən onunla razıyam. Hicranında hər vasitə ilə olsa da səba küləyi zülfünün qoxusunu mənə çatdırdığı üçün dilxoşam, könlüm şaddır. Ey könlümün sevinci, amalımın nəhayəti, son məqsədim Sənsən, mənə Səndən savayı heç nə lazım deyil. Yusif fəqirdir, ondan mərhəmətini əsirgəmə, bir azca hüsn-rəğbətin, qayğın onun üçün başdan-başa var-dövlətdir, hər şeydir.

Ürfani eşqin kamilliyini dərk edən, ədəbin, elmin, məhz ürfan aləmində olduğunu etiraf edən şair ilahi nurun zərrəsi olan, Allahın bütün varlıqların əşrəfi kimi qiymətləndirib yaratdığı insanın bu yolda kamilləşib şan-şövkətə çatdığını qeyd edərək, məhəbbətin ülviliyini, insanın məhz onunla başqa varlıqlardan fərqləndiyini göstərir və ülvi məhəbbətin hətta müqəddəs Qurani-kərimdə qiymətləndirildiyini, başlanğıc kimi həyatın mənası, mahiyyəti

olduğunu bildirir. "İmiş" rədifli qəzəldə bunu daha aydın görürük:

Yox imiş hiç tərəfdə ədəbü elmü kəmal,
Nə ki var elmü kəmal aləmi-ürfanda imiş.

Gördüm ol mahliqa hüsnünü, fəhm etdim kim,
Şövkətü şanü şərəf cümləsi insanda imiş.

Sureyi-Yusifə get diqqət ilə eylə nəzər,
Yusifa, eşqü məhəbbət sözi Quranda imiş.

Şairin oğluna nəsihət kimi yazdığı mürəbbe-müstəzadında da dünyanın mənasız, fani bir şey olduğunu, insanı insan edən elmin, mərifətin, əxlaqın vacibliyini göstərən şairin ümumiləşmiş şəkildə bütün insanlara ünvanlanmış nəsihətinin şahidi oluruq. Şair deyir ki, ey oğul, hər bir şəxsi bir ağıllı, ayıq-sayıq hesab elə, arsızlar kimi rəftar eləmə ki, sonradan xəcalət çəkməli olmayasan. Əgər bu mənaları bilsən, mənfəət əldə edərsən. Hər görmədiyin, tanımadığın adamı ağıl sahibi bil, yaxşını yaxşı, pisi pis bil, danışığına fikir ver, bu sözləri məşhur tarixi sənəd kimi qəbul elə, məzmununu bütöv öyrən, ondan sonra o ünvanın əbədiliyindən xəbərdar ol. Cahilsən əgər, əvvəlcə elm öyrən, düşüncəni, fikrini genişləndir, dünyagörüşünü artır. Aqilsən əgər, hər gün cəhd eylə gözəl bir yol tut. Kamilsən əgər, qulpu olmayan kuzəni iki əl ilə tut, miskin adamlara həqarətlə baxma. Əxlaqını hər rəngü riyadan uzaq elə, insanlara insan kimi bax, təkəbbür etmə, onlarla ünsiyyətini kəsmə, hər bir işin aqibətini düşün ki, sonra ziyan çəkməyəsən, tutduğun işlərdə ziyankar olmayasan. İnsanlığa layiq olmayan işləri görmə, heç kimlə ədavət eləmə, məclisdə elm əhlini görsən hörmət et, söz söyləmə, lal ol, vicdan, vəfa sahibi ol, zülm edən olma. Göründüyü kimi burda şair çox incə mətləblərə toxunaraq, insanları insanlığa, əxlaqa, mərifətə çağırır. Bunun üçün isə din elminə baxmağı, Quran ayələrinə nəzər salmağı tövsiyyə edir:

Kəllər qayıdan vəqtdə dünbalə düşər büz,
Ovqatə nəzər qıl.
Dünyadan ötər eyləmə guşiş gecə-gündüz,
Əmvatə nəzər qıl.

Din elminə bax, eyləmə təzvir, düz ol, düz
Ayatə nəzər qıl!
Qarun kibi çəm eyləmə çox dirhəmü dinar,
Bildinmi əzizim?!

Göründüyü kimi bu şeirdə işlənən fikirlərin çoxu Qurani-kərimdən götürülmüşdür. Bəziləri isə hətta olduğu kimi Quran ayələridir. Bu beytdə şair demək istəyir ki, kəllər qayıdan vaxtda keçi həmişə axıra qalar, sən vaxtı, şəraiti nəzərə al. Dünyanın neməti üçün gecə-gündüz çalışma, özünü yorma, ölülərə bax, axırı düşün. Din elminə fikir ver ki, saxtalığa baş qoşmayasan, düz olasan. Bunun üçün ayələrə nəzər qıl, çünki hər əməlin düzgünü Quran ayələrində vardır. Qarun kimi var-dövlət, pul, mal toplama. Qurani-kərimin "Qəsəs" surəsinin 76-81 ayələrində Qarunun çox varlı bir adam olması, onun "mənə verilənlər mənim biliyimə görədir" deyərək özünü öyməsi, sonra Allahın hökmü ilə var-dövləti ilə birlikdə yerə batması haqqında məlumat verilir. "Kimi" rədifli qəzəlin:

Baxma xəlqin sözünə, cəhd elə öz əqlinə bax,
Sındırıb bütləri tərk eylə Bərahim kimi.

ikinci misrasında insanlara öz əqidəsində möhkəm olan İbrahim peyğəmbər kimi yaşamağı tövsiyyə edir. Qurani-kərimin "Bəqərə" surəsinin 124-cü ayəsində buyurur: "(Ya Məhəmməd!) Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə)imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona:) "Səni insanlara imam təyin edəcəyəm" dedi. (İbrahim isə:) "Nəslimdən necə?"-deyə soruşdu. (Allah onun cavabında:) "(Sənin nəslindən olan) zalimlər Mənim əhdimə (imamlığıma) nail olmazlar" buyurdu".

Qurani-kərimin başqa surələrində də İbrahim haqqında buyurulanlara rast gəlirik. Camaat çöldə olarkən bütün bütləri sındırıb dağıdan İbrahim heç bir şeydən qorxmur. Öz əqidəsinə sadiq olan peyğəmbər onu yandırmaq üçün qalanmış tonqalı gördükdə belə çəkinmir. "Kənarında" rədifli qəzəldə Yusifin dediyi kimi:

Cəmalın möcüzi Xurşid tək afaqə rövşəndür
Ki, İbrahim tək məskən tutub azər kənarında.

möcüzəli şəkildə dayanır. Bu beytdə şair sevgilisinin camalının öz ecazı ilə, günəş dünyanı, üfüqləri işıqlandırdığı kimi işıqlandırması İbrahimin odun yanındakı vəziyyəti ilə müqayisə edir. Necə ki, İbrahim oda meydan oxuyaraq hamının diqqətini özünə cəlb edir. Eləcə də, məşuq camalı ilə Günəş misalında dünyaya, üfüqlərə meydan oxuyaraq, hamını heyrətdə qoyur.

Allahın möcüzəsi ilə İbrahim peyğəmbərin oddan qorunması, salamat qalması klassik şeirdə bütün Quran həqiqətləri kimi daim müraciət olunan mövzudur. Yusifin "Kimdir" rədifli qəzəlində də bu müraciəti başqa şəkildə görürük:

Dedim:-Bəs atəşi-hicranə axır kim əlac eylər?
Dedi:-Gör nari-Nəmrudi gülüstan eyləyən kimdir.

Burada hicran atəşində yanan lirik qəhrəmanın öz sevgilisindən əlac istədiyinin şahidi oluruq. Cavabında isə əlacın yalnız Allahda olduğu bildirilir. Şair bunu obrazlı şəkildə verir. Məlumdur ki, bütləri sındıran İbrahimi cəzalandıran, onun tonqalda yandırılmasını əmr edən Nəmrud olmuşdur.

Yusifin şeirlərində əksər peyğəmbərlərin adı çəkilir, onların arasında müqayisələr aparılır.

Xuda səfinəsinin sakinindən ol, ey dil
Ki, Nuhi-naci naxudasının biridir.

Burada şair insanları Allah yoluna dəvət edərək özünə müraciətlə deyir ki, ey dil, Allah gəmisinin sakinindən ol ki, nicat tapan Nuh onun başçısından biridir. Qurani-kərimdə ayrıca "Nuh" surəsi vardır. Bundan başqa bir çox surələrdə də Nuh peyğəmbər haqqında danışılır. Mötəbər mənbələrin məlumatına görə, Nuh peyğəmbər Allahdan kömək istəyir. Allah-təalanın buyruğu ilə gəmi düzəldir. Öz tayfasına müraciət edir. İman gətirənlər gəmiyə minib azad olur, iman gətirməyənlər suda boğulub məhv olur. Qurani-kərimin "Hud"surəsində bu barədə daha ətraflı məlumat vardır. Eləcə də, bir çox surələrdə bu xatırlanır.

Ləbin ecazi məni-mürdəni ehya elədi,
Dutmaram mən onu ecazi-Məsihadən кəm.

Burada şair yarın dodağının mözücəsini İsa peyğəmbərin ölünü diriltmək möcüzəsilə müqayisə edərək deyir ki, mən sənin ləbinin ecazını İsanın möcüzəsindən az bilmirəm, kiçik şey hesab eləmirəm. Necə ki, İsa insanlara ikinci həyat verə bilirdi, eləcə də mən ölmüşdüm, sən mən ölünü dodağının möcüzəsi ilə diriltdin. Klassik şeirdə yarın dodağının, ağzının abi-həyatla müqayisəsi adi haldır. Növbəti beytdə:

"Ərəni" söylədi Musa, ona "lən" gəldi cəvab,
Özü öz rütbəsin etdi bu təmənnadən kəm.

artıq Musa peyğəmbərdən söhbət gedir. Burada Qurani-kərimdə göstərilən, rəvayətlərdə də qeyd olunan bir hadisəyə işarə olunur. Qövmü Musaya inanmayıb, Allaha iman gətirmək istəmirlər və bir çox bəhanədən sonra, Allahın gözə görünməsini tələb edirlər. Musa Allahla Tur dağında söhbət edərkən qövmünün tələbini çatdırır. Musa "Ərəni" deyərkən, Allah-təala "Ləntərani" deyir və bildirir ki, onu gözlə görmək olmaz.

Şairin mənzum məktubunda da peyğəmbərlərlə bağlı müraciətlərə rast gəlirik:

Nə xoş məzmun, nə xoş ayinü üslub,
Vüsalın nisfidir əlhəq bu məktub.
Məgər Xızr idi abi-zindəgani
Ki, qıldı tazə cism içrə cani,
Və ya pirahəni-Yusif deyərsən
Ki, etdi didieyi-Yəqubi rövşən.

Rəvayətlərə görə Xızr peyğəmbər dirilik suyu axtarıb tapmış, içib əbədi həyat qazanmışdır.

Yusif peyğəmbər Yəqub peyğəmbərin on iki oğlundan ən sevimlisi olmuşdur. Qardaşları paxıllıqdan onu aradan götürmək istəmiş, gəzməyə çıxmaq bəhanəsilə aparıb quyuya salmışlar. Yəqub qırx il Yusifin fərağında göz yaşı tökmüş və gözləri kor olmuşdur. Sonralar Yusifin köynəyinin ətri ilə onun gözlərinə işıq gəlmişdir. Burada şair

həmin bu hadisəyə işarə edir.

Başqa bir qəzəldə isə Yusiflə bağlı digər bir hadisəyə işarə olunur:

Qalırdı cahi-ədəmdə müdam, Yusif, şeir,
Əgər biləydi ki, miqdarı bir kəlafdədir.

Tacirlər quyudan çıxarılmış Yusifi satmaq üçün bazara gətirirlər. Yusifin gözəlliyi hamını heyrətə gətirir, hərə imkanı olan məbləği gətirib onu almaq istəyir. Bir qarı da onu almaq üçün bir kəlaf gətirib gəlir. Klassik şeirdə qarının kəlafına çox müraciət olunur. Şair bu beytdə əslində Yusifdən danışmır. Sadəcə olaraq çox gözəl bənzətmə ilə obrazlı şəkildə şeirin qiymətindən, ona olan münasibətdən bəhs edərək deyir ki, Yusif bilsəydi ki, onun qiyməti bir kəlafdır, o zaman quyuda qalmağı üstün tutardı, şeir də bilsəydi ki, bu qədər ucuzlaşacaq, elə şairin bətnində qalardı, yazılmazdı.

Yusif peyğəmbərlə bağlı Quranda bir çox ayələr vardır. Yusifin başına gələnləri açıqlayan ayrıca "Yusif" surəsində isə 4-cü ayədən 102-ci ayəyə kimi Yusifin başına gələnlərdən bəhs olunur.

Yusifin əsərlərində Məhəmməd(s) peyğəmbərə və onun ailəsinə müraciət də diqqət mərkəzindədir. "Ey Əli Əkbər, gəl oğlum, qan alan gündür" misrası ilə başlayan nohənin Əfrad hissəsində

Bu gün bu mətləbi sən bil, oğul Əli-Əkbər,
Xəbər verib mənə cəddim cənabi-peyğəmbər.
Rəsuli-həq şəhi-afaq "ürvətil-vüsqa",
Vücudi-əşrəfi-mövcud Qayətil-qəsva.

İmam Hüseynin(ə) oğlu Əli-Əkbərə müraciətini eşidirik. İmam Hüseyn Allah rəsulunun ona, "özündən sonra dində nifaq olacağını, müsəlman ümməti arasında ixtilaf düşəcəyini söylədiyindən" bəhs edir. Həmin nohənin Əfradında başqa Quran kəlamlarına da rast gəlirik:

Mənəm məfadi-hürufati-ləfzi-"Ərrəhman",
Mənəm məsadiri-müsdaqi-"Əlləməl-Quran".
Mən olmasam nə səmavat olur, nə ərşi-bərin,
Mən olmasam nə məqamət olur, nə əlləbeyn.
Mənim vücudum üçün xəlq olubdur bu aləm,
Mənim vücudum üçün mənzilət tapıb Adəm.

Mənəm məqasədi-Sübhan, Xaliqül-əşya,
Mənəm məfatehi-ayati-"Əlləməl-əsma".

Birinci beytdəki "Ərrəhman" sözü Quranın 55-ci surəsi olan "Ərrəhman" surəsinin birinci ayəsidir, mənası "Rəhman Allah" deməkdir. "Əlləməl-Quran" sözü isə həmin surənin ikinci ayəsidir, mənası "Quranı öyrətdi" deməkdir. Üçüncü beytdəki "Əlləməl-əsma" sözü "Bəqərə" surəsinin 31-ci ayəsinin başlanğıcıdır, mənası "Bütün şeylərin adlarını öyrətdi" deməkdir.

Nohədə Kərbəla vaqeəsində din yolunda cihad edən, canından keçən həzrətin faciədən əvvəl ətrafdakılara müraciəti də verilir:

Hər kimin var mülk, mal, can təmannası,
Durmasun getsün, bu yerdə yoxdu dünyası.
Mali-dünya çox sevənlərin olmaz üqbası.
İmtəhani-dinü ham iman olan gündür.
Eşq səhrasında bu qurban olan gündür.

Mötəbər mənbələrin verdiyi məlumata görə İmam Hüseyn(ə) tərəfdarlarına təklif etmişdir ki, gecə ikən könüllü qalmaq istəməyənlər gedə bilərlər. Çünki cihad edən gərək dünyanın nemətlərindən könüllü əl çəksin. Şəhidlik zirvəsinə yüksəlmək üçün insanın ürəyində ancaq əqidəsi, eşqi, amalı olmalıdır. Kimin ürəyində mal, mülk, can istəyi, təmənnası varsa, ondan şəhid olmaz. Ona görə də, İmam Hüseyn(ə) hamıya açıq-aydın könüllü mövqe seçmək imkanı verir. Deyilənə görə həmin gecə geriyə qayıdanlar da olub. İmam isə yetmiş iki şəhid ilə öz eşqini, əqidəsini sübut edib.

Kərbəla müsibəti Yusifin digər nohələrində də öz əksini tapmışdır. Şairin başqa bir nohəsində də Əli Əkbərə müraciət vardır. Lakin burada nohə bacının dilindən söylənilir:

Ey salan firqəti atəş dili-suzanə bəradər,
Gəl, qılım kakili-mişkinüvi bir şanə bəradər.
Qoy baxım bir də o zülfi-siyəhü arizi-alə,
O cəmali-qəmərasayə, o xoş xəttilə xalə.
Bir də nəzzarə qılım qoy o rüxi-mehrimisalə,
Gəlim andan sora bülbül kibi əfqanə bəradər.

Ey güli-bağı-lətafət,
Ey məhi-övci-məlahət.
Ayrılıq vəqtidir axır,
Gəl verim bir sənə ziynət.

Əsər boyu Kərbəla müsibətinin bir anı təsvir olunur. Əli Əkbərin meydana yola düşdüyü andan şəhidliyə qədər keçdiyi yol izlənilir. Yanar ürəyinə qardaş ayrılığı ilə yeni bir atəş düşən nisgilli bacı, qardaşın qara saçlarına son dəfə daraq çəkmək istəyir. Doyunca qara zülfünə, ay üzünə, xoş xəttü xalına, mehriban çöhrəsinə baxmaq, ondan sonra bülbül kimi fəğan eləmək istəyir. Lətafət bağının gülü, məlahət səmasının ayı hesab etdiyi qardaşına ayrılıq vaxtında son dəfə ziynət vermək istəyir. Deyir: Bilirəm hüsnünün bahar bağı solacaq, bədəninin qan çeşməsi gülşənə yayılacaq. İndi ki, qan ilə rəngin olacaq, barı qoy dağınıq saçlarına daraq çəkim. Ey mənim mehrcəmalım, izzətim, cahü cəlalım, sənindədir gecə-gündüz ürəyim, fikrü xəyalım. Sənsiz, ey canımın rahatlığı, nə bu canım, nə bu bədənim olaydı, nə gülşən olaydı, nə könül bağı solaydı, hər kim ki, mənə tən edir, mənim yerimdə olaydı və biləydi ki, ayrılığın cana nələr edir. Bilirəm ki, bu ayrılıq möhnəti məni öldürəcək, sinəmə məhəbbət dağı çəkəcək. Bacı sənə qurban olsun, meydana getmə, amandır".

Bilirəm eyləyəcəklər səni sədparə, Əlican,
Qoyacaqlar məni bu dəhrdə əvvarə, Əlican.
Ayrılıq dərdinə yoxdur bilirəm çarə, Əlican,
Firqətin eyləyəcəkdir məni divanə, bəradər.
Getmə, qardaş, səni Tari,
Nəzər et xeyməyə sari,
Dağıdıb zülfünü Leyla,
Ona bir rəhm elə bari.

Burada Əli Əkbərin anası Leylanın oğlu üçün saçını yolmasına işarə edilir. Bacı son ümid yeri Əli Əkbəri xeyməyə sarı baxmağa, anası Leylaya rəhm etməyə çağırır ki, bəlkə bu yolla onu meydana getməkdən çəkindirsin. Lakin əqidə yolunda cihad edənlər “nə mal, nə mülk, nə can" təmənnasında olmurlar.

Əlyazmalar İnstitutunda saxlanılan cüngdə Yusif təxəllüs şairin Əli Əsqərə həsr etdiyi nohə vardır. Əsərin dilinin sadəliyi, daha doğrusu, bəsitliyi onun Əbdülxaliq Yusifin qələminin məhsulu olduğuna şübhə yaratsa da, hardasa şairin ilk qələm təcrübəsi ehtimalı ilə onu Yusifin əsəri kimi qəbul edirik. Nohə ananın dilindən verilir. Burada "Ağlama, Əli Əsqər, ağlama" deyə fəryad edən ananın naləsi, susuzluqdan, aclıqdan şikayət edən kimsəsiz bir qadının fəryadı eşidilir:

Bağlayıbdır su yolun bu dəm,
Sağ degil əmin, yanına gedəm.
Bu susuzluğa ta əlac edəm,
Ağlama, Əli Əsqər, ağlama.

Nohədə bəndlər arasında fərdlər də işlənmişdir. Şairin başqa nöhələrindən fərqli olaraq burada bənddən sonra fərd gəlir.

Şəhid olubdu təmamən bu qövmü ənsarım,
Sən olmusan mənə bir hamzəban, Əli Əsqər.
Yat, istirahət eylə, mən olum sənə qurban,
Mənəm sənə hamıdan mehriban, Əli Əsqər.

Artıq burada bütün doğmalarını itirmiş, təkcə bir oğluna ümüd bəsləyən və oğlundan başqa kimsəsi olmayan, düşmən əhatəsində qalan oğluna təskinlik verən bir insanın mənəvi, fiziki əzablarının şahidi oluruq. Nohənin sonunda isə şair bu dəhşətlərə öz münasibətini bildirir.

Sinə çak olub eyləyür nəva,
Başlayub Yusif özgə macəra.
Çün xərab olub Dəşti-Kərbəla,
Ağlama, Əli Əsqər, ağlama.

Quran kəlamlarının, peyğəmbər hədislərinin, Kərbəla müsibətinin hər hansı bir anının şərhini verən fikirlərin işlənilməsindən əlavə Yusif şeirində elə məqamlar vardır ki, tamam dindən uzaq bir hadisə Quran ayəsi ilə müqayisədə verilir. "Fərq" adlı qəzəlin məqtə beytində

Leylü məhar zülfü rüxündəndü, Yusifa,
Quranda yazılur o ki, "Vəlleylü Vənnəhar".

işlənmiş Quran ayələrinə bir neçə surədə rast gəlinir. Bunlar "Gecə və gündüz" mənasını verir. Bəzən isə "Gündüzə and olsun" "Gecəyə and olsun" kimi tərcümə edilir. Şair burada sadəcə məşuqun üzünü və saçını gündüz və gecə ilə müqayisə edir. Şeirə obrazlılıq, gözəl ifadəlilik vermək üçün bədii dəyəri artırmaq üçün həmin sözlərin Quranda olduğunu xatırladır. Bu əvvəldə qeyd etdiyimiz "Eşqü məhəbbət sözi Quranda imiş" fikrini bir daha yadımıza salır. Digər bir qəzəldə isə başqa bir kəlamla qarşılaşırıq:

Tənəttüq eylədi bir növilə ki, məst etdi
Təmam xəlqi "şərabən-təhur" səhbası.

Qurani-kərimin 7-ci surəsi "İnsan surəsi" adlanır ki, buna "Hələtə" surəsi də deyilir. Surənin 21-ci ayəsi üç hissədən ibarətdir və sonuncu hissə: "Və səqahum rəbbuhum şərabən-təhura"–"Və pərvərdigar onları pak şərabla sirab edər" kimi tərcümə edilir. Şair burada xəlqin pak şərab badəsindən məst olduğunu qeyd edir. Əslində isə burada nə badə var, nə mey içən. Sadəcə xəlqin heyrətini bildirmək üçün şair bu təşbehdən istifadə etmişdir. Dini, Quranı unutmamaq hər dəfə ona istinad etmək, hər hansı ayəni xəlqə xatırlatmaq, bütün bunlar Yusif şeirinin dəyərini artırmış, onu xalqa sevdirmişdir.

"Hikmət" jurnalı, 2004, N 3.

HACI MAİL ŞEİRİNİN HİKMƏTİNDƏN

Görkəmli Azərbaycan şairi və füzulişünas alim Hacı Mail istər həyatda olarkən, istərsə də dünyasını dəyisdikdən sonra xalqın sevimlisi olmuşdur. Bu gün əbədiyyətdə sakin olsa da, şeiri ilə, Füzuli şeirindən verdiyi şərhlərlə, həmçinin folklor nümunələrinə çevrilmiş söhbətləri ilə insanların qəlbində, yaddaşındadır. Hacı Maillə beş ilə yaxın olan dostluğumuzdan bir neçə kitablıq xatirə yaza bilərəm. Amma məni xatirələrdən çox Hacı Mailin yaradıcılığı ilə bağlı fikirlər, düşüncələr maraqlandırır. Kimlərsə Hacı Maili sadəcə şair və ya qəzəlxan hesab edə bilər. Hətta klassik şeiri dərindən dərk et-

məyənlər onu epiqonçu şeirin nümayəndəsi də hesab edə bilər. Lakin Mailin yaradıcılığına dərindən bələd olanlar onun müasirləri arasında ön sırada dayandığını və özünəməxsus yaradıcılıq yolu olduğunu bılirlər.

Hacı Mail yaradıcılığını iki hissəyə ayırmaq olar. Birinci hissədə həvəskar şairin, ikinci hissədə isə məqsədyönlü qələm işlədən peşəkar şairin şeirləri görünür. Hacı Mail hələ həyatda olarkən dəfələrlə etiraf edirdi ki, o nə şair, nə də alim deyil, şeiri dilxoşluq üçün yazır, Füzulini isə çox sevdiyi üçün tədqiq edir. Mən Mail müəllimlə qarşılaşıb yaxından tanış olanda 1994-cü ilin sonu idi və şairin "Qəzəllər" kitabı yeni çapdan çıxmışdı. Həmin kitabı avtoqrafla mənə verəndə sevinmişdim, amma onu diqqətlə oxuduqdan sonra təəssüfləndim və hətta: «Bu kitabı niyə çap etdirmisiniz?»- deyə kəskin iradımı da bildirdim. Çünki o zaman mən həmin kitabda hər gün yeni şeirlərini oxuyan, Füzulidən, dindən, ürfandan danışan Hacı Maili tapa bilməmişdim. Mail müəllim bunu belə izah etdi ki, kitab neçə illərdi nəşriyyatda qalıbmış, gec çap olunub. Və qeyd etdi ki, özü də mənim iradımla razıdır. Həmin gün klassik şeir haqqında böyük bir bəhsimiz oldu və ondan din, şəriət, ehkam, ürfan haqda yetərli məlumata malik olduğu halda, dini hədisləri nə üçün şeirlə ifadə etmədiyini soruşdum. Bir qədər fikirləşib, gülümsəyərək: «Axı mən şair deyiləm, xətrim istəyəndə yazıram... Amma mən yazanda həmişə düşünürəm ki, yazdığım qəzəl hansı muğam üstündə oxuna bilər və elə yazıram ki, xanəndələr oxuduqda əziyyət çəkməyib onu muğamın pərdələrinə uyğunlaşdıra bilsinlər». Söhbətin sonunda isə Mail müəllim söz verdi ki, mənim sualım ətrafında fikirləşəcək. Növbəti gün mənə üç şeir verdi, üçündə də Allahdan, Peyğəmbərdən və dini hədislərdən fikirlər verilmiş beytlər var idi. Sonralar Mail müəllim yaradıcılığını ancaq bu istiqamətə yönəltdi. Bir dəfə Füzuli ədəbi məclisində 10-a yaxın qəzəl oxudu. Məclis üzvlərindən bir neçəsi eyni fikir söylədilər: «Nası, yaradıcılığında yeni mərhələ başlayır». Mail müəllim isə gülə-gülə dedi: «Vu Sonanın işləridir. Onun senzurasından keçmək çətin işdir».

Sonralar həmin şeirlərdən Hacı Mailin Divanını tərtib etmək

istədim və Hacıya bütün janrlarda şeir yazmağı təklif etdim. Əvvəl razılaşmadı, «Divanın adı ağırdır» dedi. Lakin sonra yazdı və divanı sağlığında tərtib etdim. Bu yazımda da Hacı Mailin dini şeirlərindən apardığım qeydlər barəsində danışmaq istəyirəm. Hacı Mailin dini, ürfani şeirlərində Allahın varlığı, şəriksizliyi onun möcüzələri, yaratdığı varlıqlarla münasibəti, Allaha olan eşq, Məhəmməd Peyğəmbərə(s), Həzrət Əliyə(ə) verilən qiymət və s. əks olunmuşdur. Bu şeirlərin şah beytlərinin mahiyyətinə vardıqda, həqiqətən, Mail yaradıcılığının müasirlərinin yaradıcılığından kəskin fərqləndiyini etiraf etməmək olmur.

Yoxdu nə cahan, nə bu fələk, Mah ilə Xurşid,
Mən onda gəzirdim hələ canan xəbərində.

Şair burada göstərir ki, hələ canan xəbərində gəzəndə nə dünya, nə fələk, nə günəş, nə ay var idi. Burada söhbət insanın hələ ruh halında olmasından gedir. Allah-təala yeri, fələkləri, Ayı, Günəşi, ulduzları yaratmamışdan əvvəl, ruhlar aləmində, yəni Bəzmi-Ələstdə ruhları xəlq etmişdi. Ruh da həmişə Allaha doğru gedir və şair canan deyəndə də öz Xaliqini nəzərdə tutur. Şairin digər beytində də bu görünür:

Var idim əhli-eşqlən, cahan gümanə gəlməmiş,
Edərdi nalə zümzümə könül, cəhanə gəlməmiş.

Burada lirik qəhrəman hələ cahanın yaranması güman edilmədiyi zamanda eşq əhli ilə birgə və cahana gəlməmişdən könlünün nalə etdiyini bildirir. Mötəbər mənbələrə əsasən, Allah-təala ruhları xəlq edərkən kainatın yaranma ehtimalı yox idi. Sonralar Allah ruhları insan şəklinə salmaq istədikdə onların yaşaması üçün lazım olan Yer kürəsini və istifadə ediləcək nemətləri yaratmışdı. Digər bir qəzəldə də bu fikir ayrı deyimdə görünür:

Nə qumru səsi dəymiş idi guşi-cəhanə,
Nə bülbülün əfğanı, mənim naləm olanda.

Dünyayə Günəş nurunu saçmazdı o vaxtlar,
Həqq nuru ilə dəhrdə bir kölgəm olanda.

Əvvəlki misalda lirik qəhrəman deyir ki, dünyaya gəlməmişdən könlüm nalə edirdi, burada göstərir ki, onun naləsi olanda hələ dünyanın qulağı qumru, bülbül səsi eşitməmişdi, yəni hələ Allah quşları yaratmamışdı.

Allah-təala buyurur ki, Adəmi palçıqdan yaratdıqdan sonra ona öz nurundan verib. Şair burada ona işarə edərək bildirir ki, dünyada Allahın nuru ilə mənim kölgəm olanda, yəni, mən olmasam da, yaranma ehtimalım olarkən, Allahın nuru ilə Onun məni yaradandan sonra mənə verəcəyi nur ilə bir kölgə kimi dünyada olarkən hələ Günəş nur saçmırdı. Şairin "Elə" rədifli qəzəlində isə həm Allahın, həm Mühəmmədin, həm də Əlinin vəsfi görünür:

"Yoxdu məbud Xudadən savayı",-söyləginən,
Həm şəhadət verib ol cümləni sən əzbər elə.

Ki, Məhəmməd də onun elçisidir, bilşübhə,
Həm vəsisidir Əli, ismini sərdəftər elə.

De ki, Allahdan savayı ibadət ediləsi varlıq yoxdur və bu cümləni əzbərləyib şəhadət ver ki, Məhəmməd(s) onun elçisidir, şübhəsiz ki, Əli(ə) də onun vəlisidir ki, onun adını ən əvvəldə, yəni birinci yaz. Şair burada Şəhadət kəlməsini verir: “La ilahə illəllah, Mühəmmədən Rəsulullah, Əmirəlmömininən Əliyyən vəliyullah”. İnsanlara müraciətlə deyir ki, bu cümləni əzbərləyib, daima şəhadət verin ki, Allahdan başqa məbud yoxdur, Məhəmməd Onun elçisi, Əli də vəlisidir. Hacı Mailin əksər şeirlərində Allahın şəriksizliyinə, insanların, yalnız Ona, Onun vahidliyinə inanmasına çağırış güclüdür. Onun fikrincə, insan aşiqlik yolunu tutursa, onun üz tutduğu, ancaq bir məşuq var, o da Allahdır.

Cahan əhli bilibsə müqtəda dildarımı birdən,
Rəvamı, özgə bir dilbər tapıb mən iqtida etsəm?

Bütün insanlar mənim dildarımın başçılığını, rəhbərliyini qəbul edib onun ardınca gedirsə, heç rəvadırmı ki, mən başqa bir dilbər tapıb onun yoluyla gedəm? Bütün insanlar, Allahın göstərdiyi yolla gedirlər, onun buyurduqlarına əməl edirlər. Şair bu beytdə ona işarə edərək yazır ki, bir halda, hamı mənim dildarımı, yəni Allahı yol-

göstərən hesab edir, onun yolu ilə gedir, nə ehtiyac var ki, mən özgə bir gözəlin ardınca düşəm? Burada şair insanlara vahid aşiqlik yolunu göstərir. Bununla da, belə məna hasil olur ki, Allahını tanıyan adama başqa dilbər lazım deyil. Bu da əvvəlki misalımızın təsdiqini verir ki, Allahdan başqa Allah yoxdur. Digər qəzəldə isə hicranda qalan aşiqin göz yaşını ipə-sapa düzməsinin şahidi oluruq:

Zikri-ləbi-canan ilə, Mail, axıdıb əşk,
Təsbih düzəltdim, adı "Səddanə" özümdən.

Səddanə yüzdənəli təsbehə deyirlər. Aşiq yarının dodağının söhbətini etdikcə eşq atəşi artır, gözlərindən yaş damlaları tökülür, o da onları sara düzüb, təsbeh düzəldir. Burada gözəl təşbeh və müqayisə vardır. Axı Səddanə təsbehlə Allahın adını zikr edərlər. Şair həm də buna işarə verir.

İslam dininin təbliği ilə hələ qadağalar dövründə məşğul olan Hacı Mail sovet dövründə də hər il evində peyğəmbərin mövludunu keçirirdi. İndi isə onun vəsiyyətinə əməl edərək övladları bu işi davam etdirirlər. Hacı Mail hələ o dövrdə də dinə aid şeirlər yazmışdır ki, bu da hər şairin bacardığı iş deyildir.

İslamə gəlin, ey yarananlar, budu düz din,
Hər bir yaranan dəhrə müsəlman kimi gəlmiş.

Allah-təala Məhəmməd(s) Peyğəmbəri axirəzzaman Peyğəmbər kimi insanları düz yola hidayət etmək üçün göndərmiş, İslam dinini hamının biət etməli olduğu yeganə din, «Qurani-Kərimi» də bütün kitablardan təkmil müqəddəs kitab kimi ona vermişdir. İnsan doğulanda dünyaya müsəlman kimi gəiir. Hətta xaçpərəstin, bütpərəstin uşağı da dünyaya müsəlman kimi göz açır, sonradan böyüyüb başqa yolu seçir. Şair burada mötəbər hədisləri əsas götürərək deyir ki, İslam ən düz dindir, hər bir insan da dünyaya müsəlman kimi gəlir, bu səbəbdən hamınız islama gəlin. Dindarların fikirlərinə əsasən, dünyanın sonuna qədər bütün insanlar bu dinə gələcək və islam dünyada vahid din olacaq.

Hacı Mail Quranı ən böyük hikmət kitabı hesab edir, şeiri isə Füzuli kimi, naqislərə zinət kimi bir varlıq sayır:

Fikri Qurana yönəlt, şeiri burax gəl, Mail,
Şeirə naqislər üçün ziynəti-zivər deyilər.

Füzuli türk divanının dibaçəsində yazır:

Şeir bir zivərdir, əmma biz kimi naqislərə,
Ol ki, kamildir, onu möhtaci-zivər qılmamış.

Qurani-Kərimdə buyurur ki: "Biz ona şeir öyrətmədik". Burada söhbət Məhəmməd(s) Peyğəmbərdən gedir. Füzuli Quranın bu ayəsinə istinadən yazmışdır ki, şeir bizim kimi naqis adamlar üçün bəzəkdir. Peyğəmbər(s) kamil olduğu üçün Allah onu həmin bəzəyə möhtac etməmiş, ona şairlik verməmişdir. Hacı Mail də ustadının sözünə qüvvət verərək, şeirin naqislər üçün bər-bəzək olduğunu qeyd edir və ondan uzaqlaşmağı, Qurana doğru yönəlməyi, fikri ona cəm etməyi məsləhət görür.

Mail yaradıcılığında peyğəmbərin həyatı ilə bağlı fikirlərin əks olunduğu şeirlər də az deyildir...

Peyğəmbərimiz ömrünü qürbətdə keçirdi,
Qürbət qəmini bunca onun tək çəkən olmaz.

Rəhm eylə, buyurmuş yetimə, bir də qəribə,
Haşa, bu iki dərdi onun tək çəkən olmaz.

Peyğəmbərdən belə bir hədis vardır: «Rəhm edin yetimlərə, qəriblərə». Peyğəmbər(s) hələ dünyaya göz açmamış atası Əbdüllahı, 5-6 yaşında ikən anası Amənəni itirmişdir. O, 52-53 yaşında isə Hicrət edərək qəriblikdə yaşamışdır. (Onun övladları da qəriblikdə yaşamış və dünyadan köçərkən də qəriblikdə dəfn edilmişlər). Şair bunları nəzərə alaraq, deyir ki, bu iki dərdi onun kimi çəkən olmaz: birini uşaqlıqda görüb, birini ahıllıqda.

Peyğəmbərin insanlara münasibəti ilə bağlı hədislərin nəzmə çəkilməsi, habelə peyğəmbərin xasiyyətlərinin əksi də Mail yaradıcılığı üçün səciyyəvidir.

Çox sevərmiş qabarlı əlləri gördükdə Rəsul,
Çün bilirmiş dolanır tutduğu əl zəhmət ilə.

Peyğəmbərlə bağlı hədislərdən birində deyilir ki, bir dəfə Peyğəmbər(s) camaatla əl tutarkən, bir adamın əlini xeyli sıxıb saxlayır. Sual edirlər ki, ya Rəsuləllah, nə səbəbə onun əlini gec buraxdın? Cavabında deyir ki, qabarından bilinir ki, bu əllər zəhmətlə dolanır, Allah-təalanın belə əllərdən xoşu gəlir. Şair bu beytdə həmin hədisə istinad edir.

Mail yaradıcılığında Həzrət Əliyə həsr olunmuş şeirlər də çoxluq təşkil edir. Əli(ə) yüksək qiymətləndirilir və onun gözəl cəhətləri tərifl ənir. Həzrət Əlinin rəhmi və səxavəti el arasında çox söylənilir. "Ürəyində Əli rəhmi var" ifadəsini rəhmli, səxavətli insanlar üçün işlədirlər. Digər tərəfdən axirətdə hamının Əliyə möhtac olacağı, ondan mərhəmət umacağı fikri də hədislərdən məlumdur.

Hatəm ki, səxasıyla olub aləmə məşhur,
Üqbadə umar bir kərəmü kam Əlidən.

deyilən beytdə şair aləmə səxavətiylə məşhur olan Hatəmin də axirətdə Əlidən mərhəmət umacağına işarə edir. Hatəmi-Tai klassik şeirdə səxavət rəmzi kimi işlədilir. O, hədsiz mərhəmətli, səxavətli olduğundan şöhrəti hər yerə yayılıbmış. Bir gün ölkənin padşahı onun sorağını eşidib qəzəblənir ki, o kimdir mənim ölkəmdə səxavəti ilə ad qazanıb. Kim onun atını və başını mənə gətirsə, ona böyük ənam verəcəyəm. Bir nəfər qılıncını götürüb gəlir Hatəmin yaşadığı yerə və bir evə qonaq düşərək ev sahibi tərəfindən yaxşı qarşılanır. Süfrə açılır, yeyib-içdikən sonra ondan buralara gəlişinin məqsədi barədə soruşur. Qonaq deyir ki, buralarda Hatəm adlı səxavəti ilə məşhur olan bir adam var, onun başını və atını padşaha aparmalıyam. Ev sahibi isə dediklərinin birini apara bilərsən, ikincisini isə yox,– deyə bildirir. Qonaq bunun səbəbini soruşduqda ev sahibi cavabında deyir ki, Hatəm mənəm, başımı apara bilərsən, amma atımı, dünən yeməyə heç nə olmadığından sənin üçün kəsib bişirmişəm. Qonaq durub düşür Hatəmin ayaqlarına ki, heç sənin kimi adamı da öldürmək olar? Sonra daha şəhərə qayıtmır, ömürlük Hatəmin yanında qalıb ona qulluq edir.

Deyirlər ki, bir dəfə Hatəmin qəbri olan yeri su basır, qəbri köçürməli olurlar. Açıb görürlər ki, Hatəmin bədəninin hər yeri çü-

rüyüb, bircə əlləri qalıb. Hacı Mail bu beytində Hatəmin səxavətini qeyd edir. Lakin onun əsas məqsədi Əlinin səciyyəsini verməkdir. Bu səbəbdən də qeyd edir ki, bütün insanlar, hətta səxasıyla aləmə məşhur olan Hatəmi-Tai belə üqbadə, yəni o biri dünyada Əlinin köməyinə möhtacdır, Əlidən mərhəmət umandır.

Müsəlmanların ziyarətgahları saysız-hesabsızdır. Amma üçü çox yüksək tutulur: Həcc, Kərbəla və Məşhəd. Hacı Mail dəfələrlə bu ziyarətlərdə olmuşdur. Kərbəlada Kərbəla faciəsində şəhid olanlar və İmam Hüseyn dəfn olunmuşdur. İmam Hüseyn aşiqləri daima onun ziyarətinə getməyi arzulayırlar. Mail "İstə" rədifli qəzəlində Kərbəla ziyarətinə gedənlərə müraciət edərək yazır:

Gər Kərbübəla səmtinə getmək diləyirsən,
Əvvəlcə çalış, niyyəti-səmti-Nəcəf istə.

Nəcəf şəhərində isə məlum olduğu kimi, Həzrət Əli(ə) dəfn olunmuşdur. Şair burada demək istəyir ki, Həzrət Əli İmam Hüseyndən irəlidir. Kərbəlada İmam Hüseyni ziyarət etməzdən əvvəl, Nəcəfə gedib Əlini ziyarət edib, sonra Hüseynin ziyarətinə getmək daha məsləhətdir.

Hacı Mail Qurani-Kərimin bütün kitablardan yüksəkdə dayandığını şeirlərində dəfələrlə qeyd edir və hər dəfə də onu başqa bir obrazlı deyimdə açıqlayır.

Dünyada ola hər nə kəlam, nəsx olacaqdır,
Mümkünmü, deyin, ayeyi-Quran təzələnsin?

Tarixən dünyaya çox böyük şəxsiyyətlər gəlib. Çox sözlər deyilib. Çoxu da sonra gələnlər tərəfindən dəyişilib. Hətta Səmavi kitablar hesab olunan Zəbur, Tövrat və İncildə də dəyişikliklər edilib. Amma Qurani-Kərim yeganə müqəddəs kitabdır ki, onu dəyişdirmək mümkün olmayıb. Son zamanlar Quranın 19 rəqəmi ilə bağlı sirlərinin açılması bir daha sübut etmişdir ki, Quran ayələri dəyişməzdir. 19 rəqəmi ilə bağlı məlumata əsasən, Quranda olan surələrin, ayrı-ayrı hərflərin sayının 19-a qalıqsız bölünməsi və s. məsələlər açılmışdır. Belə ki, əgər ayələrdə cüzi dəyişikliyin olması həmin tarazlığın pozulmasına səbəb olmalıdır. Əgər 19 ilə bağlı

hesablamalar duzgün çıxırsa, deməli, Quranda heç bir dəyişiklik olunmamışdır. Şair bunları nəzərə alaraq, bildirir ki, hər bir kəlamın dəyişməsi mümkündür, təkcə Qurandakı ayələrdən başqa.

Həcc mərasiminin əməllərinin şeirə gətirilməsi də maraqlıdır:

Durmaz tərəfi-Mərvə, gedər səmti-Səfayə,
Üşşaqivə məqsud fəqət zövqi-səfadır.

Mərvə və Səfa Məkkədə yerləşən kiçik dağlardır Məkkəyə ziyarətə gedərkən orada bır çox əməllər icra edilməlidir ki, məhz bundan sonra «Həcc» ziyarəti yerinə yetirilmiş hesab olunur. Həmin işlərdən biri zəvvarların yeddi dəfə Mərvədən Səfaya doğru qaçmalarıdır. Şair bu beytdə həmın əməlin icrasına işarə edir. İbadət üçün Həccə gedənləri aşiqlər ilə müqayisə edir. Əslində elə Həccə Allah aşiqləri getməlidirlər. İkinci misrada isə şair «Səfa» sözünün həqiqi mənasını işlədib aşiqlərin saflıq, həqiqət tərəfdarı olduğunu qeyd edərək bildirir ki, Sənin aşiqlərinin məqsədi yalnız həqiqət zövqüdür, onlar haqq aşiqidirlər, bu səbəbdən Mərvənın tərəfində dayanmayıb, Səfaya doğru gedirlər. Burada hər iki mənanı verə bilmək şairdən sənətkarlıq tələb edir. Hacı Mail yaradıcılığında belə beytlərə çox təsadüf olunur.

Mən cahan məmurəsin viran biləndən sormuşam,
Söyləyib: - Aqil olan bel bağlamaz bu qürbətə.

Şair burada dünyanı viranə bilən şəxs deyəndə Füzulini nəzərdə tutur. Füzuli "Leyli və Məcnun" əsərində Məcnunun dilindən olan bir qəzəldə deyir:

Biz cahan məmurəsin mənidə viran bilmişiz,
Afiyət gəncin bu viran içrə pünhan bilmişiz.

Bilmişiz kim, mülki-aləm kimsəyə qılmaz vəfa,
Ol zamandan kim, onu mülki-Süleyman bilmişiz.

Bu barədə həm Qurani-Kərimin ayələrində, həm də hədislərdə kifayət qədər çağırışlar var, əfsuslar olsun ki, çox az adam bunu dərk edir, əksəriyyəti isə axirətlərini bu dünyalarına qurban verirlər.

Nalə etdirdin mənə, gördün fəqiri-bikəsəm,
Heç nə yetməz Tanrıma, bil, etdiyim naləm kimi.

Bu da bir hədisə işarədir. Allah-təala buyurur ki, mən peyğəmbərlərlə mələklər vasitəsilə danışıram, amma fəqirlərin ahı, naləsi mənə vasitəsiz çatır. Şair həmin hədisə istinadən qeyd edir ki, mən kimsəsiz fəqirəm, sən bunu görüb mənə zülm edirsən. Amma bil ki, mənim naləm Allaha çox tez çatır və heç nə ona bu tezliklə çata bilməz. Digər bir qəzəldə də həmin fikirlə başqa deyimdə qarşılaşırıq:

Allah özü hər an eşidər ahi-fəqiri,
Cəbrail özü ol yerə illah çata bilməz.

Şair burada da deyir ki, Allah fəqirin ahını hər an özü eşidir, fəqirin ahı çatan yerə heç mələklər də də gedib çata bilməzlər.

Başqa bir qəzəldə isə digər bir islami məsələ verilir:

Tək bircə mənim qanımı töksən, diyə vermə,
Təqsirin olur əfv, bu bir qanda qalaydı.

Diyə İslam şəriətində ölüm üçün verilən qänbahasıdır. Bu yüz bir dəvə və ya ona müqabil olan pul və ya malla ödənilir. Amma burada lirik qəhrəman, yəni aşiq məşuqdan diyə istəmir. Çünki yarın aşiqi öldürməsi savab hesab olunur. Şair burada deyir ki, mənim qanımı töksən, qanbahası lazım deyil, bir şərtlə ki, bu qan tökməyə son qoy, başqalarına qarşı bu hərəkəti etmə. Bu beytin bir neçə məna tərəfi var. Belə ki, burada islami məsələ haqqında məlumat almaqla yanaşı, yarın aşiqi öldürməsinin savablığı açıqlanır. Digər tərəfdən aşiq yarından həm də dolayısı yolla sədaqət tələb edir.

Hacı Mailin lirik qəhrəmanı həqiqi aşiq rolunda çıxış edir. O, sədaqətlidir, ilqarında düzdür, həqiqi hidayət yolunu tutub gedir, əsl aşiqdir və məqsədinə doğru mətin addımlayır.

Neylirəm sənsiz olan ömrü-günü dünyadə,
Olmasan, bəsdi bu gün, bir də sabahın yarısı.

İnsan öldükdə onu həmin gün, və növbəti günün yarısına kimi saxlayırlar, sonra torpağa tapşırırlar. Şair buna işarə edərək bildirir ki, sənsiz mənə yaşamaq lazım deyil, sən olmasan, mən də ölüm, bu

dünyada bir bu gün, bir də sabahın yarısını qalsam bəsdir. Aşiq həmin bir gün yarımı da el adətinə görə dünyada qalır, əslində sevgilisi olmayan dünyada bir dəqiqə yaşamaq fikrində deyildir. Burada da həm aşiqin sədaqəti görünür, həm də şairin el adətini şeirə gətirdiyi aydın olur.

Mail yaradıcılığında bu kimi şərh olunmalı beytlərdən çox misallar gətirmək mümkündür, lakin yazının imkan dairəsini nəzərə alaraq bununla kifayətlənirik.

"Hikmət" jurnalı, 2004, N 1

MƏRD OL, AŞİKARƏ DANIŞ

Maştağa şairlər, meyxanaçılar məskəni kimi tanınıb. Bakı ədəbi mühitinin ən böyük qollarından olan Maştağa ədəbi mühitində öz şair mənini təsdiq edən Mircəlal, Şəfai, Əliağa Bakir, Namiq Şəfaioğlu, Əlibala Səyyah kimi şairlər olub. Bu gün xanəndələrin repertuarında qəzəlləri yer tutan şairlərdən biri də Seyidağadır.

Həbibov Seyidağa Mircabbar oğlu 1921-ci ildə Bakının Maştağa qəsəbəsində anadan olub. Bakıdakı Bədəl bəy adına orta məktəbi bitirib, N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olub, 3-cü kursdan təhsilini yarımçıq qoyub, M.Əzizbəyov adına Neft-kimya İnstitutua daxil olub. Ali məktəbi bitirdikdən sonra Ramana neft mədənlərində neft ustası işləyib. Oradan Buzovna neft mədənlərinə baş mühəndis vəzifəsinə köçürülüb. Bir müddətdən sonra mədəndə müdür vəzifəsinə keçirilib. Sonralar Qaz kontorunun rəisi vəzifəsində çalışmış, əmək veteranı olmuşdur.

Mircabbar kişinin yeganə övladı olan Seyidağa hələ uşaq yaşlarından şeirə, ədəbiyyata böyük maraq göstərmişdir. 1941-ci ildə müharibə başlarkən, ön cəbhəyə getmişdir. Mozdok ətrafında gedən döyüşlərdə tankçı kimi iştirak etmişdir. 1943-cü ildə yaralandıqdan sonra arxaya qayıtmışdır.

1952-ci ildə ailə həyatı qurmuşdur. Həyat yoldaşı Gülcahan xanım böyük razılıq hissi ilə danışır ki:"Ağa çox ailəcanlı adam idi. Kiçik bir şey də ona təsir edərdi, hər şeyi ürəyinə salardı. Düzlüyü sevən, hazırcavab idi. Həm hər şeyi dərd elərdi, həm də nikbin idi, zarafatı

çox sevərdi. Bir söz deyən kimi o saat şeirlə cavab verərdi.

Şairin yeganə qızı Lalə xanım deyir ki: "Atamın şəxsi kitabxanası məndədir. Ən çox klassiklərin əsərlərini və dini kitabları toplayardı. Dini, elmi cəhətdən şərh etməyi sevərdi. Fanatik deyildi. Həmişə mollaların, dindarların din haqqındakı fikirlərinə qarşı çıxar, onlara həqiqəti başa salmağa çalışardı. Ərəb və fars dillərini gözəl bilirdi. Kitabxanamızda İrandan, Türkiyədən, Amerikadan gətirilmiş xeyli dini kitablar vardır.

Klassiklərin əsərləri onun stolüstü kitabları idi. İşdən gələndən sonra çox vaxt oxuyardı. Bir də vaxtını dostları ilə birlikdə keçirməyi xoşlardı. Ən çox Əkrəm Cəfər, Cəfər Rəmzi, Novruz Gəncəli, Seyfəddin Dağlı, Vahid və başqaları ilə əlaqə saxlardı. Maştağa şairlərindən Məhəmmədəli Şəfai, Ələkbər Şahid, Hacı Kazım, Əliheydər Rəğbət, Nardarandan Mail və b. ilə tez-tez görüşərdi. Çox vaxt şeirləşərdilər.

Seyidağa "Azərbaycan", "Kirpi" jurnallarında, "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri" qəzetlərində qəzəlləri və satirik şeirləri ilə müntəzəm çıxış etmişdir.

1986-cı ildə "Yazıçı" nəşriyyatı tərəfindən buraxılan Məmməd İsmayılın tərtib etdiyi "Qəzəllər" (kollektiv) toplusunda Seyidağanın 60-a yaxın qəzəli çap olunmuşdur. Kitab çapdan çıxandan sonra Maştağadakı Cəfər Cabbarlı adına 187 nömrəli məktəbdə ədəbi-bədii gecə keçirilmişdir. Gecədə filologiya elmləri namizədi, şair Cəfər Rəmzi çıxış edərək Seyidağa yaradıcılığından geniş bəhs açmışdır.

Seyidağa yaradıcılığında vətənə məhəbbət, şeirə, sənətə rəğbət, mərdlik, şücaət, vəfa, etibar, məhəbbət və s. olduqca gözəl poetik obrazlarla ifadə olunmuşdur.

Gərək deyil mənə yad ölkə gər behişt olsa,
Vətən behişt özüdür, baği-rövşənimdi vətən.

Gərək öpəm vətənin mən qarış-qarış sinəsin,
Ləyaqətim, şərəfim, şöhrətim, şanimdi vətən.

Doğulmusan bu vətən torpağında, Seyidağa, sən,
Öləndə də nə qəmim, doğma məskənimdi vətən.

deyən şair cənnətdə vəd olunan bütün nemətlərin hamısını vətən torpağında tapır, vətənin hər qarış torpağını şan-şöhrəti hesab edir, öləndə də bu torpağın qoynunda ona yer veriləcəyini düşünüb təsəlli tapır və vətənin bir ovuc torpağına çevrilməyi belə xoşbəxtlik sayır.

Seyidağa üçün Azərbaycan şeir, sənət, mərdlik, qeyrət, ülviyyət deməkdir. Azərbaycan şeirini, Azərbaycan sənətini ən yüksək zirvə hesab edən şair yazır:

Kainatı, ey həyat üçün sevən kəs, bir də sev.
Bir də sev ki, bəxş edib hər sərvət Azərbaycana.

Ölkələr növbəylə göstərdikcə şeirin, sənətin,
Sənət heyran oldu çatcaq növbət Azərbaycana.

Onun qəzəllərində Azərbaycanın yeraltı və yerüstü sərvətləri vəsf olunur, Azərbaycan mədəniyyəti, azərbaycanlı mənəviyyatı təqdir olunur. O öz ölkəsini bütün ölkələrdən üstün sayır, öz xalqını dünyanın bütün xalqlarından irəlidə görmək istəyir. Azərbaycanın bütün uğurları onun şeirlərində əks olunur. Xalqın ən gözəl günlərini tərənnünm edən şair şeirə, sənətə alqış deyir:

Bizim bu ölkəmiz eşqə yananlar ölkəsidir.
Şeirlə, sənət ilə odlananlar ölkəsidir.

Qəzəllərində cəsarəti, qəhrəmanlığı, mübarizliyi tərənnüm edən şair öz yurdunu igidlər, ərənlər ölkəsi, hünər, cəngavərlik meydanı hesab edir. Onun oxuculara mübarizlik ruhu aşılayan qəzəllərindən biri də "Var" rədifli qəzəldir:

Bir ölkədənəm mavi Xəzərlə qucaqlaşıb,
Onda neçə-neçə igidlərin məzarı var.

Mən borcluyam həyatımı da öz diyarıma,
"Get, öl yolumda" söyləsə də, ixtiyarı var.

Cəngavərəm, hünərliyəm, həm də mübarizəm,
Amma əlimdə daima sülhün şüarı var.

Vəzifənin, var-dövlətin "beşgünlük" olduğunu dərk eləyən şair insanın böyüklüyünü onun sadəliyində, mərifətində, sözü ilə əməlinin bir olmasında görür. İnsanlığı ön plana çəkən şair yazır:

Təkcə bir sözlə yox, işlə sevər insan vətəni,
Mərd o kəsdir ki, bərabərdir sözüylə hünəri.

Dəyərin ölçüsü puldursa, fəqət insanın,
Mərifət, sənət ilə ölçülür ancaq dəyəri.

Vətən uğrunda ölənlər demə ölmüş, diridir,
Öz qanıyla yazıb o, tarixə mərdlik əsəri.

Seyidağa yaradıcılığında məhəbbət duyğulu fikirlər özünəməxsus şəkildə obrazlaşır.

Nola hamının məkanı səri-kuyi-yar olaydı,
Nə ürək edəydi təşviş, nə göz intizar olaydı.-

deyən şair hamının ülvi hisslərlə yaşamasını, insanların məhəbbət deyilən məkanda məskən salmasını arzulayır. Məhəbbətin dünyaya hakim olduğunu, həyatda hər şeyin məhəbbətə bağlı olduğunu dərk eləyən şair yazır:

Varlıq yaranandan yaranıb eşqü məhəbbət,
Olmuş bütün insanlara sərmayə məhəbbət.

Arzum budu qan olmaya, hərb olmaya, əsla.
Salsın bəşərin üstünə bir sayə məhəbbət.

Ey Seyidağa, mənanı düşün şeir yazanda,
Sev sənəti, sal daima mənayə məhəbbət.

Seyidağanın satirik şeirləri də maraqlıdır. 1987-ci ildə Maştağa Mədəniyyət Evində Novruz Gəncəlinin rəhbərliyi ilə fəaliyyət göstərən Səməd Vurğun poeziya klubunun yığıncaqlarında həmişə satira oxuyardı. Onunla bağlı maraqlı xatirələrimiz vardır.

Şairin qızı Lalə xanımla görüşəndə dedi ki, Seyidağanın şeirlər kitabını çap etdirmək niyyətindədir. Yəqin ki, bu kitab Seyidağa-sevərlər üçün böyük hədiyyə olacaq.

P.S. Məqalə 1993-cü ildə qələmə alınıb, "Azərbaycan XXI əsr" qəzetində dərc olunub. Onu tapa bilmədiyimizdən yazını təkrar çap etdirmək qərarına gəldik. Onu da qeyd edək ki, Seyidağanın kitabı artıq işıq üzü görüb. Amma bizə çatmadığından kitab haqqında məlumat verə bilmədik.

"Kredo" qəzeti, 24.07.10.

ŞAİRLƏR ÖLÜB GETMƏSƏ, EL BAXƏBƏR OLMAZ

Öz yaradıcılığında klassik şeirin mənəvi dəyərlərini qoruyub saxlayan, Füzuli, Seyid Əzim məktəbinin davamçısı kimi istər dini, ürfani, istərsə də ictimai məzmunlu şeirlərilə öz dövründə xalqın rəğbətini qazanmış şairlərdən biri Hacı Məhəmmədkazım Hüseynovdur. Hacı Kazım kimi tanınan, şeirlərini də bu təxəllüsdə yazan şair 1913-cü ildə Bakının Maştağa kəndində Xunxar məhəlləsində əkinçi ailəsində anadan olmuşdur. Atası Canmirzə kişinin ailəsində 3 oğul, 2 qız böyüyüb boya-başa çatmışdır. Təkcə Kazımın rəvan təbi və şeirə, ədəbiyyata marağı olmuşdur.

Kazım ilk təhsilini kənddəki 128 saylı məktəbdə almış, ailə vəziyyətinin ağırlığı onu məktəbdən ayrılmağa məcbur etmişdir. Cəmisi 2 il oxuduqdan sonra, təhsilini yarımçıq qoyub, əkin-biçində atasına kömək etməyə başlamışdır. 1930-cu ildə atası vəfat etdikdən sonra ailənin yükünü öz çiyinlərinə götürən Kazım 1932-ci ildə Bakı Tramvay parkına işə düzəlmişdir. 9 il işlədikdən sonra 1941-ci ildə müharibə başlarkən könüllü olaraq cəbhəyə getmişdir. 4 il dəfələrlə yaralanıb, yenidən cəbhəyə dönən Kazım, nəhayət evə qayıtmış və yenidən Tramvay parkında işləməyə başlamışdır.

Ailə həyatı quran Kazım 6 oğul və 4 qız böyütmüşdür.

1964-cü ildə dövlət tərəfindən Məkkəyə ziyarət təşkil olunanda Bakıdan 6 nəfər, o cümlədən Maştağadan bir nəfər həmin qrupa salınır və belə bır xoşbəxtlik Kazımın payına düşür. Məkkədən qayıdan Kazımı bütün el-oba qarşılayır. Yol boyu qurbanlar kəsilir. Həmin günü kəndin ağsaqqalları gözəl xatırlayırlar.

1966-cı ildə Hacı Kazım Zirədə neft mədənlərində işə düzəlir, axıra kimi orada işləyir. İstər məclislərdə oxunan nohələri, istərsə də satirik şeirləri, meyxanaları və qəzəlləri ilə onu tanıyanların ürəyində özünə yer tutan şair 1982-ci ildə dünyasını dəyişir.

Hacı Kazım yaradıcılığa hələ erkən yaşlarından başlamışdır. 12 yaşında ikən toy şənliklərində, məclislərdə ona ara-sıra yazdığı şeirləri oxudardılar. Lakin Abşeron şairlərinin çoxu kimi o da şeirlərini yığıb saxlamazmış. Bir gün Zirə neft mədənlərində işləyərkən ona

hamıdan yaxın olan yoldaşı Xanəhməd Əbdülxeyir oğlu Əliyev şairə şeiriərini bir yerə toplayıb saxlamağı məsləhət görür və o vaxtdan Hacı Kazım yazdıqlarını dəftərlərə köçürüb saxlayır. Həmin dəftərlər oğlu Əmiraslandadır. Əmiraslan qeyd edir ki: "Atam axır vaxtlar ölümünü hiss edirdi. Bir dəfə evə gəlib gördüm ki, atam şeir deyir, uşaqlar lentə yazırlar. Dedim ki, ay ata, nə olub? Dedi ki, yazın, sonra gec olar.

Ölümündən bir gün əvvəl anam bərk xəstə idi, üstünə həkim çağırmışdıq. Atam gecə saat 11-də evə gəldi. Zarafatla dedik ki, ay kişi, bundan sonra hara getdin, arvadı da özünlə apar. Allah eləməmiş bir şey olar, sonra yapışarsan yaxamızdan. Onda bu şeiri dedi:

Cigərim yandı, məni saqi, sirab eyləginən,
Şəm tək sönməginən, ahimə tab eyləginən.

Həmin gecənin səhərisi atam ömrünü bağışladı.

Ən çox əlaqə saxladığı dostları Ağahüseyn, Həsən Səyyar və başqaları idi. Keçirilən şeir məclislərində daima iştirak edərdi. Hamının hörmətini, məhəbbətini qazanmışdı..."

Şairin sağlığında satirik şeirləri "Kirpi" jurnalında, bir neçə qəzəli və bir satirası C.Rəmzinin tərtib etdiyi "Deyilən söz yadigardır" (Bakı, Yazıçı -1981) kitabında çap olunmuşdu.

Hacı Kazım yaradıcılığında insanın mənəvi aləmi ön plana çəkilır. O insanları daim hər bir işdə ağıllı hərəkət etməyə, ürəyi, vicdanı təmiz saxlamağa çağırır. Bir ibrətnaməsində yazır:

Qənimətdir bu dünyada şərafət bəsləyən vicdan,
Gedir bu mənfəət əldən, oyan qəflətdən, ey insan.

Çəkib pərgarı əqli eşqdə mizan ilən saxla,
Bu aləm bir nəfəsdir məsləki iman ilən saxla.

Burada insanları qəflət yuxusundan oyanmağa çağıran şair artıq karvanın getdiyindən, ötən-keçənin geri qayıtmayacağından xəbər verərək, gecikməməyə, imkan varkən gözəl işlər görməyə, vicdanla hərəkət etməyə və haqq dünyası üçün özünə mənfəət əldə etməyə çağırır. Şair nə çox əqlin tərəfində, nə də hissin tərəfində durmağı

məsləhət görmür, göstərir ki, pərgarı bu iki varlığın arasında saxlamaq, orta mövqe tutmaq lazımdır. Yəni həm bu dünyada bu dünyaçün yaşamaq, həm də axirəti düşünmək, məsləki, imanı gözləmək lazımdır.

Cəhalətə, nadanlığa qarşı üsyan edən şair, cahillərdən uzaq olmağı məsləhət görərək yazır:

Keçirmə vəxtivi hər cahilü nadan ilən, Kazim,
O kəslər ilə otur-dur kim, sözü mənadan artıqdır.

Nadanların yaxşı insanların başına gətirdiyi bəlaları, insanlığı xəcil edən hərəkətləri pisləyən şair, bu dünyada insan cildində olan İblisə aldanmamağı tövsiyyə edir:

Bəlanı pərdeyi-ismətdə nadandan çəkər arif,
Cinayət macərasında xəcalət qorxudan pisdir.

Əzizim, bağlama bel, çoxdu dünyadə müxənnətlər,
Üzündən adəmə bənzər, ürəkdən kafər İblisdir.

Şair insanın qiymətini onun mənəvi dəyərlərində görür. Zahiri təmtəraq, bər-bəzək onun üçün ikinci dərəcəli şeylərdir. O, zahiri dəbdəbəyə uyanları, maddi nemətlərlə fəxr edənləri qınayaraq qeyd edir ki, şahanə libaslar geyib özünüzü gözə dürtməyə çalışmayın, bu günahlarla axirətdə lüt-üryan ağlamalı olarsınız.

Libasə fəxr edıb, - Kazım deyil ol xudnümalərdən,
Günahkar bəndələr məhşər günündə üryan ağlarlar.

Hacı Kazım şairiəri ən qiymətli varlıq sayır. Şeiri, sözü dünyada hər şeydən əziz sayan şair insanların sənətə, sənətkara qiymət verməməsini ürək ağrısı ilə qeyd edərək yazır:

Kazım, sözüvün qiyməti olmaz dirilikdə,
Şairiər ölüb getməsə, el baxəbər olmaz.

Sözün qiymətini az danışmaqda, mənalı danışmaqda görən şair, bir kəlmə ilə keçinmək mümkün olan yerdə çox danışmağı şərəfsizlik hesab edir. Hərzə-hərzə danışan adamlardan uzaq qaçmağı,

yersiz zarafatdan çəkinməyi, kiçik ehtiyaclar olduqda şikayət etməməyi məsləhət görür:

Ey əzizim, istəyirsən çox şərafət, az danış,
Müxtəsər, bir kəlmə söz eylər kifayət, az danış.

Hərzəkarı şərbəşər nadanı görsən, qaç kənar,
Eyləmə hər yerdə hər kəslə zərafət, az danış.

Kamil insan müşkülü səbr ilə asan eyləyər,
Dəmbədəm qılma həyatında şikayət, az danış.

Ailənin yükünü çəkmək üçün uşaq yaşlarından işləməyə məcbur olan, ehtiyacları ödəmək üçün hər cür zəhmətə qatlaşan Kazım şeirlərində də insanları daim zəhmətkeş olmağa, ömür boyu halal əməklə yoldaş olmağa çağırır:

İnsanın, işdir deyərlər, canında varsa cövhəri,
Zəhmətə minnət çəkib daim çalışmaq lazımdır.

İnsanların şüur səviyyəsinin aşağı olması, bir-birini başa düşməməsi, tarixən insanların apardığı müharibələr, törətdiyi cinayətlər, şairi həmişə narahat etmişdir. Sirkdə heyvanların hərəkətlərini görən Hacı Kazım yarıtəəccüb-yarırişxəndlə yazır:

Ulu tarix boyu dillərdə rəvayətlər olub,
Hər zaman dava düşüb, qanlı cinayətlər olub,
Xəlqdən daima bir-birinə şikayətlər olub.
Sülh edib salmadı insan nədən insanı başa,
Sirkdə gördüm salır insanlar o heyvani başa.

Mövhumat fitnələri qəlbə verib zərdi-kədər,
Millətım çox şeyı dünnyadə keçırmışdir hədər,
Xəlqi əvvarə qoyan mollalar oldu nə qədər.
Altmış il oxudu, düşmədi Qurani başa,
Sirkdə gördüm salır insanlar o heyvanı başa.

Hacı Kazımın istər satiraları, istər qəzəlləri, istərsə də mərsiyələri bu gün də xalqın dilində səslənir və şairə ölümsüzlük qazandırır.

"Paklıq" qəzeti, 04.11.03.

EŞQ İLƏ GÜLƏN ŞAİR

Bu dünyanın qəm-kədərilə ağlayan, tale adlı alın yazısının hökmü ilə bədbinləşən şairlərin "İlham pərisi" deyilən bir həmdəmi vardır ki, bununla bəzən kədəri nəşəyə, göz yaşını sevinc işartısına, bədbinliyi nikbinliyə çevirir və şair deyilən bir varlıq Allahın bu qismət payını məhz belə anlarda səadət, xoşbəxtlik kimi düşünüb, şükürlər edir. Şükürlər edir ki, eşq ilə bu dünyanın çox varını, nemətini yaşantısına çevirib insanlara bəxş edir, eşq ilə gülən şair təbiətin bütün gözəllik-lərini dünyanın əşrəfi olan insanın mənəvi dövləti edir.

Eşq ilə gülən, eşq ilə yaşayan şairiərdən biri də Əliağa Bakir Hacıağa oğlu Rzayevdir. 1923-cü ildə noyabrın 1-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuş, ali texniki təhsil alıb mühəndislik peşəsinə yiyələnmişdir. 40 ildən artıq Kənd Təsərrüfatı və Ərzaq nazirliyində çalışmışdır. Atası Hacıağa kişi fəhlə olmasına bax-mayaraq, çox şeydən xəbərdar sinədəftər bir ağsaqqal idi. Atamın dayısı olduğundan bizə tez-tez gələr, bəzən bir həftəyə kimi qalardı. Onda mən uşaq idim, hələ orta məktəbdə oxuyurdum. Yaxşı yadıma gəlir; Hacıağa dayı bizə gələndə o vaxt heç birimiz məktəbə getmək istəməzdik. O qədər maraqlı söhbətlər edərdi ki, gecə olanda biz güclə yatmağa gedərdik. Şən, hazırcavab, zarafatcıl olduğu qədər də ciddi idi. Ondan çox çəkinərdik. Onun yanında artıq söz danışmaq, yüngül hərəkət etmək mümkün deyildi. Mənə anasının adını qoymuşdu deyə, kiçik bir xoşagəlməz hərəkətim olan kimi deyərdi: "Bilsəydim, xanım-xatın anamın adını sənə qoymazdım". Amma tez də münasibəti dəyişirdi və heç nə olmamış kimi adamla mehriban davranırdı... Bəli, Əliağa Bakir beiə bir kişinin tərbiyəsi ilə böyümüşdü. Amma o biri qardaşlarından çox fərqlənirdi. Bəlkə də, şair təbiəti onun düzgün başa düşülməsinə mane olurdu. Hər halda Bakir davranışında da, şeirində də şair idi.

Hələ gənc yaşlarında yaradıcılığa başlayan Bakir şeirin qəzəl janrına daha çox həvəs göstərmişdir. Şairlər ən çox anaya aid şeirlər yazmış, nəğmələrin coxu da analara həsr olunmuşdur. Lakin Bakirin “Atadır” rədifli qəzəli bütün xanəndələrin repertuarında özünə yer

tutmuşdur. Cəfər Cabbarlının "Ana" şeiri Ana haqqında yazılan şeirlərin şahı hesab edildiyi kimi, Bakirin "Atadır" qəzəli də Ata haqqında bütün oxucular tərəfindən sevilən və bütün toy şənliklərində xanəndəyə sifariş edilən ən gözəl şeir nümunəsidir. Ustad sənətkarımız Hacı Mail "Vətəndir" qəzəli ilə Azərbaycandan kənarda da tanındığı kimi, Bakir də eləcə "Atadır" qəzəli ilə məşhuri-cahan olmuşdur.

Əliağa Bakirin 1978-ci ildə "Yazıçı" nəşriyyatında çap olunmuş qəzəllər toplusunda (dörd şair) 13 qəzəli, 1986-cı ildə çap olunmuş qəzəllər toplusunda (altı şair) 60-a yaxın qəzəli oxuculara çatdırılmışdır. Sonralar şair 1990-cı ildə "Yazıçı" nəşriyyatında çap olunmuş "Eşq ilə gülmüş təbiəf, 1991-ci ildə "Gənclik" nəşriyyatında çap olunmuş 'Tarixlərdən gələn səslər", 1992-ci ildə "Şərq-Qərb" nəşriyyatında çap edilmiş "Qobusnamə lövhələri" və 1994-cü ildə "Min bir gözəl, min bir qəzəl" adlı kitabları ilə oxucularını sevindirmişdir.

Şairin bir sıra şeirlərinə musiqi bəstələnmişdir.

Əliağa Bakir ömrünün 75-ci ilində sevimli oxucularını məyus edərək dünyasını dəyişmişdir.

Əliağa Bakir yaradıcılığında lirizm daha qabarıq nəzərə çarpır. Lakin şairin lirik aşiqanə qəzəlləri təkcə bir sevgiyə ünvanlanmır. Burada Vətən məhəbbəti, dostluq, yoldaşlıq, əməyə məhəbbət, mənəvi dəyərlərə olan məhəbbət tərənnüm olunur:

Sevmişəm canım kimi, sərvi-rəvanımdır Vətən.
El bilir ki, həmdəmim, cismimdə canımdır Vətən.

Mən Vətənsiz görmədim ki, yüksələ insan olan,
Bilsin hər kəs, dəhrdə şöhrətlə şanımdır Vətən.

Burada şair Vətəni gözəllikdə sərvə, mənəvidə cana təşbeh edərək, göstərir ki, insan vətənsiz bir heçdir, vətənsiz yüksəliş yoxdur, insanın şanı da, şöhrəti də vətəndir:

Bu gözəl yurdumu, Bakir, dolanıb seyr edirəm,
Vətənin sevgisi qəlbimdəbir ümmanə dönür.

deyən şair üçün vətən məhəbbətindən böyük sevgi yoxdur. Şairin könlünü oxşayan, ürəyini açan yalnız vətən torpağının seyridir. Öz yurdunu dolanıb seyr edən şair, yurdunun gözəlliyi ilə fəxr edir və qəlbində ümman boyda məhəbbət çağlayır.

Digər bir qəzəldə isə şair yurdunun təkcə gözəlliyini vəsf eləmir, həmçinin yurdunun Odlar diyarı olmasını, "ab-atəş-xak-badəm" deyə özünün dörd ünsürdən yarandığını və "güclü tufanda belə yelkənin dəryada batmayacağını və s. fikirləri oxucuya çatdırır.

Var mənim odlar diyarım, atəşim sönməz bir an,
Atəş olmuşdur əzəldən çün mənim pirahənim.

Çağlayan dəryadır o, mən zərrəcik bir damlayam,
Yurdumuz tapdıqca şöhrət, artacaq daim şənim.

Bu anatək qoynun açmış lalə̇zər torpağıma,
Mən dönük övlad olarsam, göylər olsun qoy qənim.

Bakirin qəzəllərində insana olan həqiqi məhəbbətin tərənnümü daha çox diqqəti cəlb edir. Sevdiyindən ayrılmaq, hicran dərdilə aşina olmaq, canan itkisindən əzab çəkmək, yarın sorağilə gəzib dolaşmaq və s. vəziyyətlərinin şeirə gətirilməsi, öz yaşantılarını oxucularla bölməsi Bakir yaradıcılığına xas cəhətdir:

Könül, bu dərdi-hicranı nə mən bildim, nə sən bildin,
İtirdim nazlı cananı, nə mən bildim, nə sən bildin.

Yox öz küyində dildarım, mələksima vəfadarım,
Dəyişdi yarın ünvanı, nə mən bildim, nə sən bildin -

deyən şair təkcə şeirin məzmununa deyil, onun formasına da diqqət yetirir. Belə ki, Bakir şeirində çoxrədifli qafiyə tez-tez təsadüf olunan haldır.

"Elədir" rədifli qəzəldə isə başqa bir formaya rast gəlirik. Misraların əvvəlində anaforaya müraciət şeirə oxunaqlıq və qüvvətli səslənmə verir:

Birinə cahü cəlal ilə gözəl gün verdin,
Birinin qəddin əyib, dərdə giriftar elədin.

Birini bəndeyi-aciz, əli qoynunda müdam,
Birini hər kəsə cəlladi-zülümkar elədin.

Birinə zərri-zibanı, malü dövlət verdün,
Birini düşmənə baş əyməyə vadar elədin.

Burada başqa qəzəllərdən fərqli olaraq artıq ictimai məzmun görünür. Şair həyatdakı ziddiyyətləri öz təfəkküründə dolandırıb, saf-çürük edir, insanlara bəxş olunan nemətlərin qeyri-bərabərliyindən narahat olur və yaradana bədii suallarla müraciət edir. Tale yazısı, qismət payının niyə birinə az, digə-rinə çox düşməsi məsələsi şairi düşündürməyə bilmir.

Bakirin qəzəllərində ustadlara müraciət, onların mədhi xüsusi yer tutur. Şair çox şeirində Füzulinin, Seyid Əzimin, Vahidin adını çəkir, onların sənətkarlıqlarından danışır, onları özünə ustad saydığını etiraf edir:

Sənət deyilən yolda mənim pirlərim var,
Bilsin bütün aləm, bu yolun körpəsiyəm mən.

Şəmsimdi Füzuli, Qəmərim Seyyidi-Şirvan,
Ustadım olan Vahidi-pirin səsiyəm mən.

Bakir özünə ustad saydığı, habelə dostluq etdiyi şairlərin şeirlərinə nəzirələr yazmış və onları mədh eləmişdir.

Şairin "Qabusnamə lövhələri" adlı kitabı da maraqlıdır. Burada şair hər bəhsə aid bir şeir həsr eləmiş və həmin bəhsdə verilən öyüd-nəsihətləri, hikmətləri nəzmə çəkmişdir. Bu orijinal əsərlər şairin hərtərəfli, yüksək dünyagörüşlü bir şəxsiyyət olduğunu açıqlayır.

Əliağa Bakir özünəməxsus yaradıcılıq nümunələri ilə bugün də xalqın qəlbində yaşayır, sevilə-sevilə oxunur.

"Paklıq" qəzeti, 04.11.03.

DÖVRÜ TƏNQİD ETDİYİNƏ GÖRƏ HƏBSƏ ATILMIŞDI

Öz dövründə Bakı ədəbi mühütündə savadlı, təbi rəvan şair kimi tanınan, şeirə, ədəbiyyata gələn gənclərə müəllimlik edən Məhəm-mədəli Şəfai 1890-cı ildə Maştağa qəzasında anadan olmuşdur. İlk

təhsilini mollaxanada almış, dörd il müddətində Qurani-kərimi, ərəb və fars dillərini öyrənmiş, mollaxana müəllimi Əliməhəmməd Fənadan elmi dəyərlər əxz etmişdir.

Hər üç dildə şeirlər yazan Şəfai Şərq klassiklərini dərindən oxuyub öyrənmiş, Nizami, Xaqani, Xəyyam, Cəlaləddin Rumi, Füzuli və başqalarının əsərləri onun stolüstü kitabları olmuşdur. Cəlaləddin Rumini ürəkdən sevən şair onun elmi dünyagörüşünü, şairliyini, hikmətlərini qəbul etsə də, tərkidünyalığını bəyənməmiş, bu dünyaya nikbin münasibət bəsləmişdir.

Deyilənə görə ailədə çox mehriban olmuş, uşaqlarından Namiqlə doztluq etmişdir. Onun şeirlərinin ilk oxucusu da Namiq olmuşdur.

Şəfainin ən yaxın dostları Abdulla Şaiq, M.S.Ordubadi, Vahid olmuş, şair S.Vurğun, S.Rüstəm və b. ilə yaxın əlaqə saxlamışdır. Evində həmişə şeir məclisləri təşkil edər, kənddə yaşayan şairlərdən Mir Cəlal, İsmayıl Zəbih, Əzizməhəmməd, Nardarandan Muxtar Fail, Eynulla Ariz, Buzovnadan Azər Buzovnalı, Haşım bəy Saqib, Əliağa Şərqi və b. məclislərdə iştirak edərmişlər. Burada həm də gənc yazarların şair kimi yetişməsinə imkan yaradılardı.

Şəfainin yaradıcılığında klassik ənənəyə uyğun olaraq qəzəl əsas yer tutsa da, onun başqa janrda olan şeirləri də çoxdur. Eyni zamanda məclislərdə oxunan mərsiyələri, qəzetlərdə çap olunan kəskin satirtaları və s. onun həqiqi şair kimi tanınmasına, məşhurlaşmasına səbəb olmuşdur. Bundan başqa, şairin başqa şairlərə yazdığı nəzirələr, onların qəzəllərini təzminlər, xüsusən də təxmislər, həmçinin Hafizdən, Sədidən, Xəyyamdan etdiyi tərcümələr də təqdirəlayiqdir. Bütün bunlar Şəfai yaradıcılığının hərtərəfli, çoxşaxəli olduğunu və onun bir şair kimi püxtələşdiyini açıqlayır.

Şairin əsərlərinin çox hissəsi Məmməd Nuri və Əhmədağa Əhmədov tərəfindən transliterasiya edilmişdir. 1991-ci ildə Məhərrəm Abbasovun tərtibində "Seçilmiş əsərlər"i Maştağa Xeyriyyə Cəmiyyətininin sifarişi ilə çap olunmuşdur.

Şairin qəzəllərində ən çox fəlsəfi fikirlərə rast gəlirik və şair ən güclü fikrini daim sonuncu beytə saxlayır. Məsələn, dillərdə aforizmləşmiş

Dəhri-dunun bu, Şəfai, daimi qanunudur,
Hər çətin asan olur, əmma çətin asan olur.

"Neyləsin" rədifli qəzəldə

Təqdiridir, Şəfai, pozulmaz qəza yazan!
Tədbiri-əql gərdişi-dövranə neyləsin?

bir növ Füzuli sözünün başqa bir deyim tərzinə rast gəlirik.

Təqdiri çü böylədir, nə tədbir,
Təqdiri edərmi kimsə təğyir? –

deyən Füzulinin də, Şəfainin də, klassik şeirin digər nümayəndələrinin də təqdirin, qəzavü qədərin qarşısında təslim olduğunu, hər bir varlığın, hər bir hərəkətin məhz əvvəlcədən qurulmuş qanunlarla, qaydalarla idarə olunması fikrini təsdiqlədiklərinin şahidi oluruq.

Şəfainin satirik şeirləri daim, haqqı, ədaləti tələb etmiş, neqativ halların ifşa olunmasına xidmət etmişdir. Hətta "Qapazlanan tarazi" ("Abşeron kolxozçusu" qəzeti) şeirinə görə şair həbs də olunmuşdu. Bu şeirdə tərəzi öz halını, haqq tərəfdarı olduğunu qeyd edir, lakin satıcıların əlində qaldığından, ona çəkilən qapazların sayəsində düz işləyə bilməməsindən gileylənərək deyir ki, mən halalı harama qatan deyiləm, mənim adım düzlükdə məşhur olub, həmişə insafla, vicdanla iş görmüşəm. Tamahım yoxdur, ədaləti zülmə əyən deyiləm, vicdan məni əyri olmağa qoymaz, şeytan da məni aldada bilməz. Lakin bir para insan məni əyir, mənə qapaz vurur. Elə bir mağaza, dükan yoxdur ki, orada mənə qapaz dəyməsin. Hətta ayda-ildə bir təftişə gələn müfəttiş də gözü qaysıya, kişmişə sataşan kimi deyir, ondan mənə də bağla və sonra mənə daha çox qapaz dəyir. Şeirin sonunda isə tərəzinin ölkə başçısına müraciətini görürük:

Ey ölkəni ədalətlə dolduran,
Ey çəkini taraziyə tapşıran,
Gəl mənə gör kimdir bu qapaz vuran.
Ya buradan xilasımı yaz mənə,
Ya da ki, qoyma dəyə qappaz mənə.

Şairin "Qoçu", "Papiros" və s. satiralarında da kəskin tənqid hədəfləri ilə qarşılaşırıq.

Məhəmmədəli Şəfainin yaradıcılığı hələ özünün müfəssəl tədqiqatını gözləyir. Yəqin ki, gələcəkdə Şəfai yaradıcılığı xalqa daha yaxından tanıtdırılacaqdır.

27.11 - 03.12.02

TALEYİ DÜYÜNƏ DÜŞƏN SAİR

Mikayıl Xosrov Pünhan XX əsr Bakı ədəbi mühitində yetişib. Füzuli və Seyid Əzim məktəbindən bəhrələnib, bədahətən şeir demək qabiliyyətilə yaşadığı dövrdə hamının hörmət və məhəbbətini qazanan Mikayıl İsmayıl oğlu Quliyev 1927-ci ildə Maştağa kəndində anadan olub. 1947-ci iidə kənddəki 128 saylı orta məktəbi bitirib.

Dörd qız, üç oğul böyüdən İsmayıl kişi neft mədənində işləmişdir. Mikayıl evin beşinci uşağı idi. Bacı-qardaşlarından fərqli olaraq çox diribaş, hazırcavab, hafizəli olduğunu, ona deyilən sözü o saat şeirə çevirə bildiyini qeyd edirlər. Toylarda, meyxanalarda bədahətən şeirlər deməsi, yaşlılara məxsus davranışı, arifliyi onu camaatın gözündə yüksəltmişdi. Hamı onu arxa, müdafiəçi kimi tanıyırdı. Hətta dalaşanları ayırmaq, küsənləri barışdırmaq üçün ona müraciət edərmişlər. Deyilənə görə, dost, qohum, qonşu üçün "canından keçən" idi.

Mikayıl elə bu xasiyyətinin qurbanı olub. Dostunu müdafiə etmək istərkən, bel ilə vurduğu adam ölmüş, buna görə də Mikayıl Vətəndən didərgin düşərək Rusiyaya getmiş və 1959-cu ildən bu yana ondan xəbər yoxdur. Gizli yaşadığı vaxtlarda yazdığı şeirlərindən də onun vəziyyəti bilinir:

Layiqi vardır o kəsçün ki, canından keçəsən,
O da səndən ötəri hər gecə odlarə yana.

Belə bir dostu bu aləmdə çətindir tapmaq,
Axtarıb tapsan əgər, bir bacıdır, bir də ana.

Yenə Pünhan çəkilib dostun əlindən qeybə,
Əlli il axtarasan, yüz ildə gəlməz Gilana.

Bacısı oğlu Kamilin dediklərinə görə, Mikayıl kənddə ən çox Kazım, Ağahüseyn, İkram, Mirqədir və s. şairlərlə, son vaxtlarda isə hətta Vahidlə şeirləşirmiş. Şair Ağahüseyn onu Xosrova bənzətdiyi üçün, ona "Xosrov" təxəllüsü vermişdir. Lakin Mikayıl Xosrov qaçaq olduğu vaxtlarda "Pünhan" və “Gizlin” təxəllüslərilə şeirlər yazmışdır. Onun əvvəlki şeirləri yazılmadığından, əlimizə gəlib çatmamış, təkcə qaçaq olduğu 1957-59-cu illərdə evə və dostlarına yazdıqlarını bacısı oğlu Kamildən ala bildik ki, burada on bir qəzəl, iki beşlik və bir də Azərbaycan şeiri vardır. Əsərlərində ən çox dostlarından, zəmanədən şikayət görünür:

Xudavənda, nə sirdir bu, keçəndə iş fənalıqdan,
Yaman gündə əziz dostlar bezirlər aşinalıqdan.

deyə Allah-Təaladan sual edən şairi dostlarının vəfasızlığı, yaman gündə onu unutmaları çox sarsıdır. Növbəti beytlərdə də şikayətlərini bildirən şairi bir sual da maraqlandırır:

Məni hərgah Xudavənda qurtarsa bu bəlalardan,
Məni atıb qaçan dostlar utanmaz biədalıqdan?

Mikayılın dostu Mirqədirə yazdığı beşlikdə də gələcəyə olan ümidinin şahidi oluruq. Bu şeir meyxana janrında yazılmışdır. Burada ruzigarın günü-gündən pis gəldiyi, yediyinin zəhrimar, içdiyinin zəhər olduğunu, vəziyyətinin get-gedə pisləşdiyini qeyd edən Mikayıl dostuna bəzi nəsihətlər verir. Haçansa evə, kəndə dönəcəyinə ümid edən şair yazır:

Mənim pisliyimə çalışanların,
Yaxşı, yaman işimə qarışanların,
Çayçıda dalımca danışanların
Başına örtəcəm şal,–vədəsində.
Ənciri yeyərlər hal vədəsində.

Mikayıl Xosrovun lirik şeirləri də maraqlıır. Klassik şeir ənənəsinə uyğun ifadə tərzi, obrazlar, sətiraltı məna şairin lirikasında açıq-aydın görünür. Füzuliyə yazılmış nəzirədə:

Rəfiqü aşinadan əl üzüb səhrayə bənd oldum,
Tücar oldu mənə Məcnun, özüm tək binəva gördüm.

Soruşdum halını, gördüm başında quş yuva qurmuş,
Dəmadəm göz yaşı cari, özü yeksər fəna gördüm.

Göyərməz aşiqlərin qəbri əgər yüz il bəhar olsa,
Ölən aşiqlərin qəbrin açıb, matəmsəra gördüm.

Rədif və qafiyələrin bir çoxu Füzulinin "Gördüm" rədifli qəzəlini yadımıza salsa da, Məcnunun başında quşun yuva qurması bizə tamam başqa bir qəzəli xatırladır.

Şairin bəzi qəzəllərində lirik xüsusiyyətlərlə yanaşı, bir növ meyxana təsiri, incə yumor özünü göstərir:

Olma Məcnun, könül, gəzmə dalınca o gülün,
Deyirlər şah qızıdır, dalınca nökər də salır.

Qəzəlin sonunda isə dərdinin çoxluğunu qəribə bir mübaliğə ilə bildirərək yazır:

Eşidin bu qəzəli, deyin sağ olsun Pünhan,
Bu qədər dərd ilə o tarixə əsər də salır.

Şairin Azərbaycanın mövcud vəziyyətini açıqlayan(şeir 50-ci illərdə yazılmışdır)

Yazıram bu şeiri mən bəxtüvə, Azərbaycan.
Gündə bir şah çıxır təxtüvə, Azərbaycan.

mətləli şeiri həm dünənimizlə, həm də bugünümüzlə səsləşir:

Dözmək olmur bu qədər əziyyətə, zillətüvə.
Adın Azərbaycan lap yaraşır qeyrətüvə.
Bilmirəm harda ölüb, nə oldu ki, millətüvə
Qol çəkir ermənilər aktüvə, Azərbaycan.
Gündə bir şah çıxır təxtüvə, Azərbaycan.

"Azərbaycan XXI əsr" qəzeti,18-24 sentyabr, 2002.

ZAHİRİM ZÖVQİ-SƏFADIR, BATİNİM DƏRYAYİ-QƏM

Şeirimizi bir gülşənə bənzətsək, hər gülün öz ətri olduğu kimi hər şairin də könülləri fəth eləyən şeiriyyəti var. Məzmun da, forma da, bədii təsvir və ifadə vasitələri də oxşar, yaxın ola bilər, amma yenə də hər şairin özünəməxsus bir neçə şeiri olur. Allah-təala heç bir şairi bu özünəməxsusluqdan məhrum etməyib. Kiminə az, kiminə çox versə də, hər halda hamıya pay çatıb.

Hər dövrün tələbi, ictimai-siyasi vəziyyəti, şairin mühiti, həyat tərzi və sairənin ədəbiyyata, şeirə təsiri, bu gülşənin daha da rəngarəng olmasına səbəb olur. Azərbaycan ədəbi mühitinin bir hissəsi olan Bakı və Apşeron ədəbi mühiti də özünəməxsus rəng çaları ilə seçilir. Bu mühitdə yetişən şairlərin böyük əksəriyyəti ancaq mollaxana təhsili ilə kifayətlənsə də, yaşadığı ədəbi mühitin təsiri ilə müxtəlif ədəbi məclislərdə yetişib ali dərəcəyə, yüksək şairlik mərtəbəsinə qalxanları da az deyildir.

Bakıda 1860-cı ildə yaradılmış «Məcməüş-şüəra»nın fəal üzvləri olan Məhəmmədağa Cürmi, Əbdülxalıq Cənnəti, Əbdülxalıq Yusif, Mikayıl Seydi, Ağadadaş Sürəyya və s. bu kimi şairlər yaşadıqları dövrdə öz qələmləri ilə Azərbaycan ədəbiyyatının bir hissəsini təşkil edən gözəl sənət nümunələri yaratmışlar.

Bakıdan uzaqda Maştağa, Nardaran, Buzovna kimi kəndlərdə yaşayıb-yaradan şairlər Bakı mühiti ilə sıx əlaqə saxlaya bilmədiklərinə baxmayaraq, öz məhdud kənd mühitlərində ənənəvi keçirilən şeir məclislərində şeir sənətinin incəliklərinə yiyələnmiş, öz dövrlərinə görə adlı-sanlı şairlər kimi yetişmişlər. Maştağadan Mir Cəlal, Atababa Məşqətəli, Nazim, Məhəmmədəli Şəfai, Nardarandan Şeyxəli Tuti, Hacıəli Pərişan, Mirzə Abbas Şahin, Buzovnadan Haşım bəy Saqib, Məşədi Azər və s. şairlər bu qəbildəndir. Bakı və Apşeron şairlərinin əksəriyyətinin əsərləri Əlyazmalar İnstitutunun arxivlərində saxlanılır.

Maştağa kəndində ənənəvi şeir məclislərinin hər zaman keçirilməsi, orada hər dövrdə, hətta sovet dövründə də klassik şeir nümu-

nələrinin yaranması və bu sahədə şairlərin püxtələşməsi bu günə qədər davam edir.

İyirminci əsrin ortalarında Maştağa ədəbi mühitində bir çox şairlər yetişmişdir ki, onlardan biri dilinin sadəliyi, məzmun rəngarəngliyi və iç dünyasının ağrı-acısıyla fərqlənən Səfa Cahangir oğlu Nəbiyevdir. Səfa haqqında ilk dəfə C.Rəmzinin "Deyilən söz yadigardır" toplusunda qısa məlumat və şairin iki şeiri oxuculara təqdim edilmişdir. Biz isə "Əlli yaşlı xəzinədən əlli məqalə" adlı kitabımızda şairin bir şeirini və haqqında nisbətən geniş məlumat vermişdik. Səfa 1916-cı ildə Maştağada doğulmuş, kənddəki 128 saylı məktəbi bitirmişdir. Maştağa rayon Xalq maarif şöbəsinin nəzdində olan Çocuq Texniki Stansiyasında təlimatçı vəzifəsində çalışmış, «Bacarıqlı əllər» dərnəyinə rəhbərlik etmişdir.

1941-ci ildə müharibə başlayanda bütün gənclər kimi Səfa da ön cəbhəyə getmiş, səkkiz ay döyüşlərdə iştirak etmişdir. Harada döyüşdüyü məlum deyil. Döyüşlərin birində üç günlük mühasirəyə düşən əsgərlər şaxtadan donmuşdur. Arxaya qayıdandan sonra Səfanın əl və ayaq barmaqlarının donmuş yerlərində çürümə baş verdiyindən, cərrahi əməliyyata məruz qalmış, barmaqları kəsilmişdir. Donmuş barmaqları ilə birgə bir çox arzuları da torpağa gömülən şair bir müddət ümidini itirmiş, bədbin əhvali-ruhiyyədə dolanmışdır. Onun bu ağrı-acısını əks etdirən məşhur «Ağlar» rədifli qəzəli vardır:

Mənim əhvalımı bilsə əsən hər ruzigar ağlar,
Qopar tufan göylərdə, fəzalar biqərar ağlar.

Əvvəldən hamının nikbin adam kimi tanıdığı Səfa bir müddət düşdüyü vəziyyətlə barışsa da, çox keçmir ki, vəziyyətdən çıxış yolu tapır. Müharibədən sonra Texniki Stansiya işini bərpa edir, əvvəlcə ''Gənc texniklər stansiyası'', sonralar ''Pionerlər evi'' adlandırılır. Səfa müəllim yenidən öz dərnəyini təşkil edir. Bu dərnəyin fəaliyyəti təkcə rayon deyil, respublika hüdudlarından kənarda da tanınır. Dərnəyin quraşdırdığı modellər əvvəlcə Bakı Uşaq yaradıcılığı sərgisində, daha sonra Moskvada sərgidə nümayiş etdirilir və mükafatlara layiq görülür. Deyilənə görə Səfa müəllimin düzəltdiyi elektrik qatarı hər bayram günündə rayon mərkəzindəki meydanda

qurularmış. Bundan başqa Səfa traktor, konbayn və avtomobil düzəldibmiş, hətta düzəltdiyi avtomobillə kənddə gəzdiyini deyənlər də vardır.

1950-ci illərdə Səfa «Foto» dərnəyi təşkil edir və 60-cı ilə kimi o dərnəyə rəhbərlik edir. Səfa Nəbiyevin fəaliyyəti təkcə daşıdığı vəzifə ilə bitməmiş, o bir çox ictimai işlərdə fəal iştirak etmiş, «Əlillərə yardım» şöbəsinə kömək etmiş, xəstəxanalarda yatanlara və kimsəsiz adamların evlərinə yardımlar aparmış, eyni zamanda, hər bir kəsə lazım olan şeyi düzəldər, hamının köməyinə çatarmış. Səfa Nəbiyevin övladlarından oğlu Əsgər yaradıcılığa həvəs göstərib. Əsgər müəllim atasını belə xatırlayırdı: «Atam sadəliyi, təvazökarlığı ilə seçilirdi. Hamıya kömək etməyi özünə borc bilirdi. Boş dayanmağı xoşlamazdı, şikəstliyinə baxmayaraq, qələmi yerə qoymazdı. Tez-tez şairlərlə görüşərdi. Vahidlə, Şəfailə, Novruz Gəncəlilə sıx əlaqə saxlayardı. Hər dəfə sanatoriyadan qayıdanda kənddə yaşayan şairlərdən Ənvər, Əliheydər, Kazım, İkram bizə yığışardılar. Gözəl şeir məclisi qurulardı»

Səfa Nəbiyevin həm də gözəl tar çalmağı var imiş. Öz əlləri ilə düzəltdiyi tarda çaldığı muğamlarla könülləri oxşayan şair, sonralar tarına həsrət qalarkən yazırdı:

Alardım ağuşə rahət, vurardım tarə mizrabı,
Görər tarı bacım ağlar, anam ağlar, xuvar ağlar.

Hər dəfə telləri mizraba həsrət tarını əlinə alanda şairin içindən heç kimin anlaya bilmədiyi bir hiss, heç kimin duya bilmədiyi bir sızıltı, bir ağrı keçərmiş. Lakin heç nə şair vüqarını sındıra bilmədi, şair arzusunu boğa bilmədi. Səfa tarına həsrət qalsa da, qələmini yerə qoymadı, şikəst barmaqları ilə tutub, taleyinə yazılmış alın yazısı nə qədər qara olsa da, bu zülmətlərin içindən özünə yol açdı, yazıb-yaratdı.

Verəndə dərd mənə tüğyan, dəvası tardədir,
Dərdi-həzinimin ancaq şəfası tardədir.

Çalınsa tar yanımda, fərəhlənir qəlbim,
Əgər tutulsa da rəngim, ziyası tardədir.,-

deyən şair hər Segah çalınanda ruhən yeni bir dünyaya gedib-qayıdar, heç kimin fəth edə bilməyəcəyi bir aləmə düşərdi. Bu aləmdə hər şey gözəl idi, təmiz idi, saf idi, şairin qəlbi kimi… Qəzəlləri şe'r məclislərində, toylarda muğam üstündə oxunanda, amansız taleyin ona çəkdirdiyi əzabları, dəhşətləri unudardı Səfa.

Dərd üzərində qələbə çalan, hər çətinliyə qalib gəlməyin mümkünlüyünü, hər şeyin insandan asılılığını, insanın hətta zamanın qovğasına qarşı güclü olduğunu şeirlərində dönə-dönə qeyd edən şair yazır:

Hər işi nizamilən vurram təmamə, şübhəsiz,
Gər çətinlik olsa da, səbr ilə asan eylərəm.

Zahirim zövqi-Səfadır, batinim dəryayi-qəm,
Nuh tək gər istəsəm, hər gündə tufan eylərəm.

Həyatın gözəlliyini şeirdə, musiqidə görən Səfanın çox gözəl musiqi duyumu olub. Onun fikrincə sənəti sevdirmək üçün onu dərindən sevmək, duymaq gərəkdir. Sazı saz edən aşıqdır, tarı tar edən tarzəndir və s. Dərindən duyulan, çatdırılan musiqi ən ağır xəstələrə belə dərmandır. Lakin hər musiqiyə uyğun şe'r seçmək lazımdır, uyğunsuzluq musiqini də, şeiri də qiymətdən salır:

Mən də çox dinləmişəm əks-səda musiqidən,
Özü tək incə, fərəhli, gözəl əş'ar istər.

Bu qədər incə qəzəllər ki, yazıb şairlər,
Sevgi dünyası Səfadən yeni kirdar istər.

Səfa yaradıcılığında əsas yeri lirik-aşiqanə qəzəllər tutur. Səfa özünü həmişə kiçik tutan, sevgisini göylərə yüksəldən aşiqdir. Eşq odunda daim yanan, bu odun heç vaxt sönməyəcəyinə inanan və bunu açıq etiraf edən aşiqdir. Özü də bu odun dahi Nizamidən üzü bəri zərrə-zərrə paylandığını, hardasa böyük bir yanğıya çevrildiyini, hardasa bir anlıq közərib söndüyünü, bu günümüzə qədər gəlib çatdığını və ona da bir qığılcım düşdüyünü dərk edən aşiqdir:

Nəzm ilə bizə hər şeyi öyrətdi Nizami,
Qanuni fəsahət yolu şairdən açıldı,

Aşiqlərə Məcnun dedi, mə'şuqə də Allah,
Bu tarixi söz pərdeyi-təxsirdən açıldı.

Pərvanə kimi yandı Səfa atəşi-narə,
Sönməz bu alov şö'ləsi təndirdən açıldı.

Səfa Nəbiyev 1960-cı ildə dünyasını dəyişib, əsərləri külliyyatı böyük oğlu Zeynalda saxlanılır. Şairin 75 illik yubileyi münasibəti ilə Maştağa Mədəniyyət Evində keçirdiyimiz musiqili-ədəbi gecədə onun ancaq əlimizdə olan şeirləri səsləndi. Zeynal müəllimin gətirdiyi şeir dəftərini isə dar macalda ancaq vərəqləyə bildik. Orada xeyli əlimizdə olmayan şeirlərə rast gəldik, təəssüf ki, onları köçürə bilmədik. Yəqin ki, haçansa, şairin oğlu onları nəşr etdirib oxuculara çatdıracaq, biz isə ancaq əlimizdə olan 33 şeiri bu kiçik kitabçaya daxil etdik, kitabı həm şairin 85 illik yubileyinə, həm də onun kitabının işıq üzü görməsinin özünün ən böyük arzusu olduğunu etiraf edən oğlu Əsgər Nəbiyevin əziz xatirəsinə hədiyyə kimi çapa verdik. Demirik ki, Səfa dahidir, nəhəngdir, amma onu deyə bilirik ki, Səfa şairdir və biz onun şeirlərini oxuculara çatdırmağı özümüzə borc bilirik. Şairin şeirləri kasetlərdən, müxtəlif şeir həvəskarlarının dilindən və əlyazmasından götürüldüyünə görə onlarda çoxlu şeir xətalarına rast gəldik ki, onları şairin adına çıxmadıq. Şairin ruhuna hörmət əlaməti olaraq bə'zi şeirlərdə kiçik redaktələr aparıldı. Bunu deməkdə məqsədimiz odur ki, gələcəkdə şairin avtoqrafı olan əsərləri çap olunanda, variant fərqləri üçün bizi qınamasınlar, bunun xoş məramla edildiyini bilsinlər.

"Səfa. Bizimdir eşq dünyası"
kitabına ön söz, Bakı-2002.

BAKI VƏ ABŞERON ŞAİRLƏRİ

XIX-XX əsrdə Bakıda mövcud olan ədəbi mühiti bir ümmana bənzətsək, Abşeronun kəndlərində olan ədəbi şəraiti ona qovuşan dənizlərlə müqayisə etmək olar. O dövrdə şəhərdə fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinə gələ bilməyən şairlər öz yaşadıqları kəndlərdə şeir məclisləri təşkil edirdilər. Xüsusən də Maştağa,

Nardaran, Buzovna, Mərdəkan kimi "şairlər ordusu" olan kəndlərdə daha böyük müvəffəqiyyətlər qazanılmış, güclü şairlər yetişmişdir.

Azərbaycan EA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Bakı şairlərinin əksəriyyətinin ədəbi irsi saxlanılır ki, bunun ücün biz bu gün Salman Mumtaz, Əliabbas Müznib kimi tədqiqatcılarımıza borcluyuq. Bakı-Abşeron şairləri sayca da çoxluq təşkil etdiklərinə görə onları bölgələr üzrə öyrənməyi qərara almışıq. Bu yazımızda Maştağa kəndindən olan dörd şairin institutumuzda saxlanılan ədəbi irsi haqqında qısaca məlumat veririk:

Zəbih Ağa İsmayıl Sadıq oğlu (1843-1928). "Deyilən söz yadigardır" kitabında bir qəzəli verilib. İki növhəsi Bakı kəndlərində, məclislərdə oxunur.

Əlyazmalar İnstitutunda Salman Mumtazın arxivində iki əsər saxlanılır. "Simavər" şeiri müxəmməsdir, on üç bənddən ibarətdir, altı vərəq həcmindədir, ölçüsü 21x30 sm-dir. Başlanğıcında "Gəncə (Ağa İsmayıl Zəbih)" sözləri qeyd edilmişdir. İki nüsxədir, hər ikisi S.Mumtazın xətti olsa da, fərqli variantlardır, İkinci əsər "Gəncə əsnafı" adlanır, müxəmməs-müstəzaddır, 27 bənddir, hər bəndi bir neçə, sənət adamına həsr olunub, həm həcv, həm də mədhiyyə xarakteri daşıyır, iki nüsxədir, fərqli variantlardır, S.Mumtazın əlyazmasıdır. Başlanğıcında "Gəncəli Ağa İsmayıl (Zəbih)" sözləri yazılmışdır, 22 vərəq həcmindədir, ölçüsü 20x30 sm-dır. Bundan başqa Həbibulla Səmədzadənin arxivi ilə fonda daxil olmuş 160 vərəq həcmli 16x20 sm ölçülü cüngdə də şairin əsərləri vardır, lakin "M" formatı ələ verilmədiyi üçün o əsərlər haqqında bir söz deyə bilmirik. Amma Maştağada yaşayıb-yaradan Zəbihin əsli Gəncədən yox, Ordubaddandır...

Atababa Hicri Məşqətəli (1863-1922). "Deyilən söz yadigardır" kitabında bir mürəbbesi və altı qəzəli verilmişdir ki, bunlar da İnstitutumuzda Fraqmentlər bölməsində Fr-853 şifrəsi altında saxlanılır. Kitabla əlyazmanı müqayisə etdikdə yalnız fonetik dəyişikliklərə, cüzi söz fərqinə rast gəldik. Bundan başqa şairin məclislərdə oxunan növhələri və yaddaşlarda mühafizə olunan meyxana parçaları vardır.

Kərbəlayi Mircəlal Mirhadi oğlu (1870-1935). ”Deyilən söz yadigardır” kitabında bir qəzəli və bir qəsidəsi verilmişdir. Qəsidə on bir beytdən ibarətdir. Fraqmentlər bölməsində Fr-466 şifrəsi altında şairin avtoqrafı saxlanılır ki, burada qəsidə on altı beytdən ibarətdir. Şairin avtoqrafı bir vərəq həcmindədir, ölçüsü: 35x 35,5 sm-dir, nəstəliq xəttilə yazılmışdır, xətt səliqəsiz, vərəq qat kəsmiş yerlərdə pozulmuş, didilmiş şəkildədir. Başlanğıcda “Nəzm kəlami–Mir Cəlal” və “Qəsideyi–məcalis” sözləri, sonunda isə “İn mürasilə be xidməti-Məşhədi Səlam, dər qəryeyi-Zabrat’ sözləri yazşlmışdır. Buradan aydın olur ki, şairin bu avtoqrafı Zabrat kəndində yaşayan Məşhədi Salmana göndərilmişdir.

Variantları müqayisə etdikdə görürük ki, ilk əvvəlki beş beyt və son beyt hər ikisində vardır. Dördüncü və beşinci beytlərin hərəsində bir misra itirilməklə yeni beyt alınmış və bir beyt ixtisara düşmüşdür. Kitabda olan növbəti beş beyt avtoqrafda yoxdur, eyni zamanda avtoqrafda kitaba düşməyən on bir beyt vardır. Şairin sənətkarlığı baxımından avtoqrafda olan variant güclüdür.

Bunlardan başqa, Mir Cəlalın məclislərdə oxunan səkkiz növhəsi vardır. Yazıya alınmadığı üçün, ancaq yaddaşlarda qorunub saxlanılan və bizə gəlib çatan ədəbi irsi on şeirdən ibarət olsa da, bu əsərlər Mir Cəlalın, doğrudan da güclü şair olduğunu bizə açıqlayır.

Mirmahmud Nurinin əsərləri insitutumuzda həm fraqmentlər bölməsində, həm də Əliabbas Müznibin və Məmməd Səid Ordubadinin arxivində saxlanılır. Ordubadinin arxivində olan tərcümeyi-hal və şeirlər Əliabbas Müznibə göndərilmişdir. Onların Ordubadinin arxivinə necə düşməsi məsələsi mübahisəlidir. Şairin avtoqrafı olan bu əlyazma on üç vərəqdir. Şair özünü belə təqdim edir: “Mirmahmud Nuri Ağamirzə oğlu Əliəsgərli Azərbaycanın gənc şairlərindən biridir. Atası Bakının Məştəqə qəryəsindəndir. O, rəcəb 1312 sənə hicridə Bakıda doğulmuşdur. 8 yaşında 5 il üsuli-ətiq üzrə təhsil gördükdən sonra iranlıların “İttihad” məktəbinə daxil olmuş, orada 4 sənə oxuyub məktəbin 3-cü sinfini bitirmişdir. Məişətin ağırlığından dolayı artıq təhsilə davam edə bilməyib alverlə məşğul olmuşdur. Bununla bərabər vəqt bulduqda mütailədən kənar durmamışdır.

Ədəbiyyat aləmində də azacıq çalışmışdır. Böylə ki, 1914 sənə miladidə möhtərəm Əliabbas Müznibin ... idarəsində nəşrə başlayan ədəbi "Dirilik", "Gülgü", "Babayi-Əmir"... məcmulərinin gülgü qismində "Soyulmuş Əyyar", ...qismində isə "Nuri", və mərhum Cəfər Bünyadzadənin müdirliyi altında çıxan "Tuti" gülgü məcmuəsində "Qətmə" imzası ilə bir çox gülgü şeirləri yazmışdır.

1917-18-də miladidə türk ...zabitanı tərəfindən açılmış ... kursuna daxil olmuşdur.

Həman sənədə qəhrəman Türk ordusunun Bakü zamanında həman orduya...zabit və taifəsilə könüllü olaraq daxil olmuş və bir çox qəhrəmanlıqlar göstərdiyindən məxsusi bir mürasilə almağa müvəffəq olmuşdur. Hal- hazırda isə mütailə ediyor.

Möhtərəm Müznib əfəndi, şu qaraladığım tərcümeyi–halı təhsih etmənizi rica ediyorum.

Mirmahmud Əliəsgərli"

Bu yazıdan aydın olur ki, "Deyilən söz yadigardır" kitabında verilən məlumat buradan, şeirlər isə Fr-14, Fr-850 və Fond 23, s.v 277–dən götürülmüşdür. Bu şifrələrdə kitaba düşməyən xeyli lirik və satirik şeirlər vardır.

Əlyazmalar İnstitutunun konfrans materialları, dekabr, 2000-ci il.

MİRZƏ HƏSİB QÜDSİ

XIX–XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından Mirzə Həsib Əliqulu oğlu Qüdsi, mərhum Məmməd Nuru oğlunun verdiyi məlumata görə, 1828-ci ildə Bakıda anadan olmuşdur. Doğulduğu şəhərdə ibtidai təhsil aldıqdan sonra biliyini təkmilləşdirmək məqsədi ilə Tehrana getmiş, orada fars və ərəb dillərini mükəmməl öyrənməklə yanaşı, dini və dünyəvi elmlərə də dərindən yiyələnmişdir. Təhsilini bitirdikdən sonra doğma şəhərinə qayıtmış, Bakıda məktəb açmış və ömrünün sonuna kimi burada fəaliyyət göstərmişdir.

Mərhum Cəfər Rəmzinin verdiyi məlumata görə, Mirzə Həsib Qüdsi 1908-ci ildə 80 yaşında Bakıda vəfat etmişdir. Təəssüflə

qeyd etməliyik ki, müqtədir şairin həyat və fəaliyyəti barədə məlumat olduqca azdır. Zəngin və çoxşaxəli ədəbi irsə malik Qüdsinin "Məktəb", "Şərqi-Rus", "Həyat", "İrşad", "Dəbistan", "Tazə həyat", "Füyuzat" və sair mətbu orqanlarda bir çox şeirləri çap olunmuş, divanı 1883 və 1887-ci illərdə Təbrizdə, 1901-ci ildə Bakıda nəşr edilmişdir.

Mərhum Əliabbas Müznibin tərtib etdiyi bu kitabda şairin əsərlərindən yalnız bir qismi toplansa da, bu nümunələr onun şəxsiyyəti, dünyagörüşü, ictimai baxışları haqqında oxucuda aydın təsəvvür yarada bilir. Zəmanəsinin tərəqqipərvər ziyalılarından olan Mirzə Həsib Qüdsi elmi, maarifi yüksək dəyərləndirir və dərk edirdi ki, dünyanı cəhalətdən, xalqları əsarət və ətalətdən qurtaran elmin ziyası ola bilər, səadət və nicat yalnız elmdədir:

Elmdir zülmati pürnur eyləyən,
Elmdir dünyanı mə'mur eyləyən.
Elmdir aləmdə xurşidi-nicat,
Xızri-canə elmdir abi-həyat.

Və yaxud:

Ey elm! Tutub aləmi-əflaki cəlalın,
Məhv eylədi zülmatı o xurşidi-camalın.

Yüksək bəşəri ideallarla yaşayan böyük humanist şair yazırdı:

Həqiqətdə olaq övladi-Adəm,
Əziyyət görməsin məxluqi-aləm.
Yetir, yarəb, məni mehri-nicatə,
Verək ta xeyr xəlqi-kainatə.

Göründüyü kimi, şair təkcə öz Vətəninə, öz xalqına faydalı olmaqla kifayətlənmir, Uca Yaradandan iltimas edir ki, onu bütün bəşəriyyət üçün gərəkli etsin. Bəli, Mirzə Həsib Qüdsi ədəbiyyat və ictimai fikir tariximizdə hər şeydən əvvəl bu böyük və nəcib arzusu ilə fəxri yer tutmağa layiqdir.

Mirzə Həsib Qüdsi. "Qardaş tək hümmət eyləyək" kitabına ön söz. Bakı-2000.

DİZ ÜSTDƏ YAŞAMAQDANSA, AYAQ ÜSTDƏ ÖLMƏK YAXŞIDIR...

İlk dəfə beşik başında analarımızdan layla eşitmişik. Şerlə, nəğməylə böyümüşük. Xalq ədəbiyyatının tükənməz inciləri beşikdən ta qəbrə kimi qulağımızı oxşayıb.

Müasir poeziyamız da xalq şeiri üstündə köklənib. Lakin heca vəzni şeirdə ana xətt təşkil etsə də, əruzun əsrarəngiz musiqi çalarları daim ürəklərimizi riqqətə gətirib. Muğamlarımızla qoşa yaşayan qəzəllər kimə zövq verməyib? Füzuli, Seyid Əzim, Vahid...

Füzuli şeirini bu günlərə kimi yaşadan şairlər müasir dövrdə də az deyildir. Abşeron ədəbi mühitində əruz vəzni həmişə xüsusi mövqe tutmuşdur. Maştağa ədəbi mühiti də bundan kənarda qalmamışdır. Maştağada da klassik şeir üstündə köklənmiş şairlər yaşamış və indi da yaşayırlar. Bunlardan biri də Əminağa Arifdir.

Sultanov Əminağa Əlisultan oğlu (Əminağa Arif) 1920-ci ildə Bakının Maştağa kəndində anadan olmuşdur.

Atası Əlisultan Heybətqulu oğlu uzun müddət kolxozda işləmişdir. Heç bir yerdə təhsil almamışdır. Lakin buna baxmayaraq, latın və rus qrafikalı əlifbada oxuyub-yazmağı öyrənmişdir. Firdovsini, Sədini, Sabiri əzbərdən bilirmiş. Riyaziyyata güclü marağı olubmuş. Deyilənə görə, onun həll edə bilmədiyi məsələ-misalı heç orta məktəb müəllimləri də həll edə bilməzmiş. Əlisultan kişi beş oğul, üç qız böyüdüb. Oğlanlarından ikisi ali təhsillidir və müxtəlif peşələrdə işləmişlər.

Bəli, Əminağa Arif belə bir ailədə böyüyüb. Evin ilk uşağı olub. Evləri kənddə məktəbdən uzaq olduğu üçün, təhsilə on beş yaşında cəlb edilib. Lakin öz səyi nəticəsində onilliyi beş ilə bitirib.

1940-cı ildə Əminağa Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olur. 1941-ci ildə orduya çağırılır.

Əminağa Arifin qardaşı Rəhman müəllim deyir: "Əminağa çox nikbin adam idi. Onu heç cürə əsəbiləşdirmək olmazdı. Əsəbiləşəndə də büruzə verməzdi. Heç vaxt başqasına iş buyurmazdı, həmişə öz işini özü görərdi. Musiqini bütün varlığı ilə duyurdu. Yaxşı rəsmlər

çəkirdi. Həm də gözəl nitq qabiliyyəti var idi. Məktəbdən, kənddən bir yerə çıxış üçün adam lazım olanda, həmişə onu göndərərdilər. Rus dilini də təmiz bilirdi.

Çox rəvan təbi var idi. Bir də görərdin ki, biri gəlirdi: "Əminağa, bir gözəl görmüşəm, mənə bir qəzəl yaz". Elə oradaca yazıb verərdi.

Tez-tez bu sözləri deyərdi: "Diz üstdə yaşamaqdansa, ayaq üstdə ölmək yaxşıdır". Bəzən yuxuda da şeir deyərdi. Yazıb götürərdilər, səhər ona deyəndə bilməzdi. Müharibəyə qədər yazdıqlarını toplamışdıq. İki ümumi dəftər idi. Cəbhədə olanda dostlarından biri gəlib qardaşımdan alır aparır. Az sonra onu da cəbhəyə göndərirlər. Sonra nə özündən, nə də dəftərlərdən bir xəbər çıxmadı. Sonralar onlardan bir neçəsini–dostlarında olanları alıb topladıq. Müharibə dövründə yazdıqlarını isə Nardaranda yaşayan cəbhə yoldaşı Cəbrayılov Hacı Salman Ağakişi oğlundan götürmüşük. Bir də məktublarında yazıb göndərdikləridir".

Nardaran kəndinə gedib Hacı Salman kişi ilə görüşdüm. Nurani bir kişi idi. Özü də sinədəftər idi. Məqsədimi bilən kimi Əminağadan bir qəzəl dedi. Sonra bir qədər fikirləşib danışmağa başladı: "Biz səkkizinci sinifdə oxuyanda Əminağa yeddincidə oxuyurdu. Müəllim gəlməyəndə onu göndərərdilər ki, bizimlə dərs aparsın. Sonra Əminağa imtahan verib doqquzuncu sinfə keçdi. Biz doqquzuncu sinfi bitirənəcən o, onuncu sinfi bitirdi. Həmin ildə də instituta girdi. Mən onilliyi bitirəndə Əminağa birinçi kursu qurtarmaq üzrə idi.

Cəbhəyə də bir yerdə yola düşdük. O gün Maştağadan otuz iki nəfər yola saldılar. Qonşu kəndlərdən də uşaqlar var idi. Yola düşəndə Əminağa aşağıdakı şeiri dedi:

Gəl halal eylə məni ömri-təbahəm, gedirəm,
Bu fəna dəhrdə bir bəxti-siyahəm, gedirəm.

Bir savab eyləmədim beş gün ömür bağində,
İndi bilməm nə edim, əhli-günahəm, gedirəm.

Bağladı qollarımı dəsti-fələk gənç ikən,
Fələyə qarşı bu gün tərki-silahəm, gedirəm.

Bir gül idim ki, əzəl bülbül idi heyranım,
Bulbülə nəşə verən ətri-giyahəm, gedirəm.

Yaradıb rəbbim məni, seyr eləyim gülləri mən,
O səbəbdəndi ki, mən sahibi-rahəm, gedirəm.

Dadü fəryad elədim Leylinəhar aləmdə,
Küsmüşəm bəxtimdən, mürqi-səbahəm, gedirəm.

Arifi yadına sal, qarə məzar içrə, pəri,
Yar otağında yanan nurlu çırağəm, gedirəm.

Voroşilovqradda bizi ayırdılar. Savadımızı nəzərə alıb, Polk məktəbinə oxumağa göndərdilər. Üç ay oxuyandan sonra bizə serjant rütbəsi verdilər. Amma döyüşə sıravi əsgər kimi getdik. Bir neçə ay bir yerdə olduq.

Bir dəfə güclü bir döyüşdən sonra Əminağa bərk susamışdı. Bir az irəlidə gölməçə var idi. Getdim, papağımı doldurub gətirdim. Mən ona tərəf sürünəndə gördüm ki, poçtalyon da ona tərəf sürünür. Əminağa suya baxıb dedi ki, Salman, su qanlıdır. Dedim ki, görürsən ki, hər yer meyitlə, yaralıyla doludur. Başqa əlac yoxdur, gərək içəsən. Bu yandan da poçtalyon tələsdirirdi. Əminağa üçkünc kağızı alıb, aşağıdakı qəzəli yazmağa başladı:

İçdiyim qandır bu gün, çöllər məzarımdır mənim,
Əldəki sınmaz silah nazəndə yarımdır mənim.

Tabutum səngərdi kim, səhrayi-qəmdir yar evim,
Ölməyim mərdanə bil fəxrü vüqarımdır mənim.

Başım üstə ağlayan göydən yağan atəşdi kim,
Hər onun bir çilvəsi səbrü qərarımdır mənim.

Cəmisi üç beyt yazdı. Əmr verildi ki, irəli gedin. O qəzəl yarımçıq qaldı. Voroşilovqradda (Muqansk) hərbi şəhərcikdə qalırdıq. Hərbi şəhərçiyin qabağından dəmir yolu keçirdi. Bir dəfə gördük ki, vaqonlardan köçkünləri boşaldırlar. Uşaq, böyük–hamısı ağlayır. Vaqona bomba düşübmüş deyən yaralananlar da var idi. Hamısı qarışmışdı bir-birinə. Bu vaxt Əminağa şeir deməyə başladı. O, deyə-deyə, mən tez qeyd elədim. Həmişə belə olurdu. O deyən kimi yazırdım. Yoxsa özü yazmazdı.

Ruhdən saldı məni naləvü əfqan, a Vətən,
Sənə qurbandı bu çöllərdə çıxan çan, a Vətən.

Sinəmi yarələdi hiçri-qəmin sübhü məsa,
Rəhm edib bir də verəydi mənə dərman, a Vətən.

Bir yanın qüssə nədir bilmədən azadə gəzir,
Bir yanında qıraraq insanı insan, a Vətən.

Bir yanında öz evindən qovulur əhli-vətən,
Bir yanında sevilir gül kimi mehman, a Vətən.

Məhv edər qüssəvü qəm Arifi-nalani yəqin,
Budumu Arifə bəxş eylədiyin şan, a Vətən?

Əminağa həm də gözəl musiqiçi idi. Həm tar çalırdı, həm piano, demək olar ki, əksər musiqi alətində çalmağı baçarırdı. Hamısını da özündən öyrənmişdi. Чox istedadlı idi. Heç kim onunla mübahisədə qalib gələ bilməzdi.

1941-ci il sentyabrın 10-da Əminağa yaralandı. Mən ondan ayrıldım. Sonralar öyrəndim ki, o sağalandan sonra yenidən döyüşə getmiş, ona leytenant rütbəsi verilmişdir. Sonra ikinci dəfə yaralanmışdı. O vaxt hərbi qulluqçuları evə buraxmırdılar. Sağalandan sonra ona kapitan rütbəsi verildi və Krasnodar Hərbi Komissarlığında işləməyə göndərildi.

1943-çü ildə Krasnodar şəhəri bombalanır. Əminağadan daha xəbər çıxmır. Bir müddətdən sonra evlərinə itkin düşməsi haqqında kağız gəlir.

Müharibədən sonra yadımda qalan şeirləri dəftərə köçürtdüm. Harda şeir həvəskarları məclisinə düşsəm, Əminağadan söhbət açıram, şeirlərindgn deyirəm. Şəhərdə "1001 cür" mağazasının yerində o vaxtlar bir çayxana var idi. Əliağa Vahid tez-tez ora gələrdi. Bir dəfə yenə yığışmışdıq, Əminağanın qəzəllərindən bir neçəsini dedim. Vahid sakitçə dinləyir, hərdənbir "əhsən, əhsən",-deyə-deyə başını tərpədirdi. Sonra soruşdu ki, bunun neçə yaşı vardı? Cavabında aşağıdakı qəzəli dedim:

Qəlb evim parələnib ariz qan oldu yenə,
Naləvü dadi-vətən virdi-zəban oldu yenə.

İki on il ana ağuşi mənə qismət idi,
Məni-bədbəxtə bu gün hicr bəyan oldu yenə.

Bir zaman qəlbim evi qüssədən azad idi,
Bu sınıq könül niyə tirə nişan oldu yenə?

Duşdüm eldən, obadan ayrı, qərib səyyahəm,
Mən qərib, ölkə qərib, kuh məkan oldu yenə.

Məni bir dəfə zaman pənçeyi-sevdayə salıb,
Tazədən qəddi-əlif bir də kaman oldu yenə.

Arifa, qəm yemə, var fikrin, iki aləmdə
Qismət əlbəttə, sənə şöhrətü şan oldu yenə.

Vahid dedi ki, yox, bu iyirmi yaşın şeiri deyil, bu Allah vergisidir".

Qeyd etdiyimiz kimi, Əminağa Arif nikbin adam olub, müharibədən əvvəl yazdığı şeirlərdə bu ruh aydın duyulur. Lakin əlimizdə olan şeirlər onun müharibə dövründə yazdıqlarıdır. Bu şeirlərdə aydın məsələdir ki, bədbinlik özünü büruzə verməyə bilməz. Xüsusən, zəmanədən, fələyin gərdişindən, həyatdakı eybəcərliklərdən şikayət daha qabarıq verilir:

Çox konül vermə qəmə, axırı candır bu çahan,
Çox cavanlar çürüdüb, köhnə cahandır bu cahan.

Gülməmiş axıra tək bir bəşər ağuşinə bu,
Hər gülən ruyə qara pərdə salandır bu cahan.

Arifa, biz gedərik dəhri-fənadan bir gün,
Yenə öz köhnə əbasilə qalandır bu cahan.

Əminağa çəbhədə daim Azərbaycan həsrəti ilə yaşayır, hər gəlib-gedəndən doğma yurddan bir xəbər oyrənməyə çalışır. Haçansa doğma yurda qayıdacağını böyük bir səadət kimi düşünür:

Ey səba, söylə, könül qəmdən uzaq olmazmı?
Bu vətən mülkündən bircə soraq olmazmı?..

Arifa, mən Vətəni bir də ziyarət etsəm,
Bu könül mülkü yanan nurlu çıraq olmazmı?

Lakin bir gənc şair bu yolun çətinliyini, qorxulu olduğunu bilir, nəhayətində müdhiş bir yoxluğun durduğunu elə bil ki, hiss edir. O yazır:

Bülbüləm, hicrdəyəm, dəhrdə xarəm, gedirəm.
Bir xəzan yarpağıyam, tərki-bəharəm, gedirəm.

Könlünü vermə mənə, yazma məhəbbət sətrin,
Məni bənzətmə gülə, çünki xəzanəm, gedirəm.

Bu il Əminağa Arifin 80 yaşı tamam olur. Allah onun ruhunu şad eləsin!

"Azərbaycan" jurnalı,2000, N10.s

GÖZƏL BİR ŞAİR–ƏBDÜLXALIQ YUSİF

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində yaşayıb-yaradan, öz dövründə ustad sənətkar kimi tanınan, üç dildə, müxtəlif janr və formalarda gözəl şeir nümunələri yaradan şairlər müəllimi, el ağsaqqalı kimi xalqın hörmət və məhəbbətini qazanan Əbdülxalıq Yusif Yəqubzadə bu gün də ölməz əsərləri ilə qəlbləri fəth edir. Yusifin yaşadığı dövrdə (1851-1924) çox zəngin ədəbi mühit, bir çox ədəbi hadisələrlə ədəbiyyat tariximizdə bir yüksəliş, məzmunca yeni bir oyanış nəzərə çarpdıran ədəbi şərait olmuş, yaradıcı adamların bir araya toplanması, əlaqəli şəkildə yazıb-yaratmaq həvəsi nəticədə ədəbi məclislərin yaranmasına gətirib çıxarmışdır. Əvvəllər yalnız şahların saraylarında ənənəvi olaraq təşkil olunan ədəbi məclislər bu dövrdə artıq Azərbaycanın bir çox bölgələrində fəaliyyət göstərirdi. Belə məclislərdən biri də Bakıda yaradılmış «Məcməüşşüəra» ədəbi məclisi idi ki, onun üzvləri arasında klassik şeirin ən yüksək zirvəsini fəth edən nümayəndəsi Yusif olmuşdur. Görkəmli tədqiqatçımız Əliabbas Müznibin Ə. Yusif haqqındakı məqaləsində (Ə/İ. B-1620) oxuyuryq: «...Ə. Yusif Bakudə 1860-cı ildə təsis olunan «Məcməüşşüəra»da 18 yaşında ikən iştirak etmiş, onlarca şairlər ilə filməclis qəzəl, müxəmməs və sairə inşad eləmiş, dəfələrlə birincilik qazanaraq təhsinə nail olmuşdur.».

Ə.Yusif təkcə şairliyinə görə deyil, eyni zamanda insanlığına

görə, hamıya nümunə olan səciyyəvi xüsusiyyətlərinə görə hörmət qazanmış, sevilmişdir. Təsadüfi deyil ki, heç bir şair həmkarları tərəfindən onun qədər mədh olunmamışdır. Təkcə «Məçməüşşüəra»nın deyil, həmçinin Gəncə, Qarabağ, Şamaxı, Şəki, Lənkəran və s. Bölgələrdə fəaliyyət göstərən ədəbi məclislərin üzvlərinin də Yusifə həsr etdiyi mədhiyyələr bu gün bizə şairin həyatı, yaradıcılığı, ədəbi mühitdə oynadığı görkəmli rolu, habelə ustad sənətkarlığı, yüksək elmi səviyyəsi haqqında ətraflı məlumat verir.

Yusif şeiri təkcə sağlığında deyil, ölümündən sonra da dildən-dilə gəzmiş, xanəndələrin repertuarında özünə layiqli yer tutmuşdur. Qəzəlin Allahı saydığımız ulu Füzulidən bu yana şeir xəzinəsini bəzəyən incilər içərisində Yusif qəzəlinin öz yeri, öz mərtəbəsi vardır. İstər mövzu, istərsə də bədilik cəhətdən rəngarəng olan Yusif şeiri bir əsrdən bir qədər az, bir qədər çox ömrə malik olsa da, özündə neçə-neçə ömrü, hifz edib saxlamış, neçə-neçə insanın sevinçini, kədərini, neçə-neçə dünya hadisəsini, neçə-neçə qəzavü qədəri bizə çatdırmaq üçün onillərlə yol gəlmişdir.

Həm forma gözəlliyi, həm də fikir zənginliyinə görə özünəməxsusluğu, orijinallığı ilə seçilən Yusif şeiri bu gün layiqli tədqiqat obyekti kimi diqqəti çəlb edir.

Könül quşi ki, anın qəm yuvasının biridir.
Yuvadan ayrılamaz aşinasının biridir.

Könülün qəm üçün xanə olması, klassik şeirdə könülə «qəmxanə», «sitəmxanə» kimi obrazlı adların verilməsi adi haldır və buna bütün şairlərin əsərlərində rast gəlinir. Yusif isə burada təkcə könlünün qəm xanəsi, qəm yuvası olduğunu vermir. Eyni zamanda qəmin könül quşu üçün yuva olduğunu göstərir. Həm də onların möhkəm dost olduqlarını, əbədi ayrılmaz olduqlarını, könül quşunun özunə yuva qurduğu qəmdən heç zaman ayrılmayaçağını bildirir. Könül quşunun könüldə yuva salan qəmdə yuva qurması orijinal fikirdir.

Yusif yaradıçılığında sözün bədii dəyərini, şeiriyyəti yüksəltmək üçün bədii ifadə vasitələrindən istifadə mühüm yer tutur. Xususən də sadə məcazlardan–təşbeh və epitetdən tutmuş, mürəkkəb məcazlara–mübaliğə, kinayə və istiarəyə kimi hədsiz dərəcədə müraciət olunan

bədii ifadə vasitələri şeirin emosional təsir qüvvəsini artırmış, Yusif qələminin qüdrətini daha da yüksəltmişdir. Poetik nitq nə qədər təşbehlərlə bəzənmiş, epitetlərlə zəngin olursa, onun oxucular tərəfindən yüksək sənətkarlıq nümunəsi kimi qəbul olunması ehtimalı da bir o qədər yüksək olur.

Bülbül kimi əfğanə gəl, ey ğəmzədə Yusif,
Gül kimi edər çün ləbi-dildar təkəllüm.

Ey qəmgin Yusif, bülbül kimi fəğan elə, çunki sevgili yarın dodağı gül kimi danışır. Yarın dodağını qönçəyə bənzətmək klassik şeirdə adi haldır. Burada isə yar danışdığı üçün ağzı açılmışdır və şair ona görə də burada onu qönçəyə deyil, açılmış gülə bənzədir. Özünü isə gül açılarkən fəğan edən bülbülə təşbih edir.

«Eylədin» rədifli qəzəldə həmin təşbehin bir başqa deyim tərzini görürük:

Nalə bülbül kimi eylər ikən, gül kimi sən
Xəndə, ey laləüzar, eyləmədünmi! Elədün!

İkinci misrada isə sevgilisinə «laləüzar-laləyanaqlı», deyə müraciət edən lirik qəhrəmanın dili ilə şair gözəl epitet seçmiş, bir beytdə həm təşbeh, həm də epitet verməklə bədii cəhətdən yüksək nümunə yaratmışdır.

Bu cür məcazlara başqa şeirlərdə də rast gəlirik: «Xəlqə rövşənlik üçün vasitə ol sim kimi», «Şir tək qıl həmlə dərdü qəm əfvacinə" misralarında xalqa xoşbəxtlik, işıqlı gələcək bəxş edən insanın elektrik naqili ilə müqayisəsi, dərdə, qəmə daim sinə gərən, tülkü kimi rahatlıq tapmaq üçün hiyləgərlik etməyib, mübarizə yolu ilə öz-özünə dolanışıq üçün lazım olanları əldə edən insanın şirə bənzədilməsi şeirin bədii çəhətdən dəyərini daha da artırmışdır. Eləçə də «Müjgan oxun atanda ol mahparə bir-bir», «Açıb çəməndə o sərvi-səmənüzar üzar», «Kimdir ki, verməsin könül əbri-kəmanlara» misralarında sevgilinin, yarın, ümumiyyətlə məşuqun ay parçası, yasəmən üzlü sərv, kaman qaşlı və s. verilməsi şeirlərin poetikasını yüksəltmiş və emosional təsirini çoxaltmışdır.

Poetik dilin ən təsirli vasitələrinə müraciət etmək, bununla da əsl

sənətkarlıq nümunələri yaratmaq, parlaq bədii boyalarla şeir adlı gəlinə bəzəklər vurmaq və bununla da yaratdığın gözəli oxuçuya sevdirmək, doğrudan da, şairdən böyük baçarıq tələb edir. Yusif şeirində biz bu sənətkarlığı bütün dolğunluğu ilə açıq-aydın görürük.

Gün gülməsə, əbr ağlamasa, gülşən ayılmaz,
Arayişi-gülzarü gülüstan bizə gəlməz.

Burada gülşənin ayılması üçün günəşi güldürüb istilik yaradan, buludu ağladıb yağış yağdıran şair, həm də günə gülmək, buluda ağlamaq qabiliyyəti verməklə gözəl istiarələr yaratmışdır. Aydındır ki, günün gülməsi, buludun ağlaması həqiqi mənada mümkün olan iş deyildir. Lakin poetik aləmdə məcazların yaratdığı qeyri-adi hərəkətlər nəinki məqbul sayılır, hətta yüksək qiymətləndirilir.

Hər lalə bir piyalə tutubdur, nədir səbəb!
Gülşəndə bir piyalə gotürməz nigarımız!

Bu beytdə də lalənin piyalə tutması istiarədir. Lalənin piyalə şəklində olmasını şair lalənin piyalə tutması kimi verir. Əslində isə lalənin piyalə tutması mümkün deyildir. Sadəcə olaraq şair işrət məclisini gülşənə bənzətdiyi üçün laləni piyalə şəklində bu məclisə dəvət edir.

Yusifin başqa şeirlərində də bu çür gözəl, dolğun obrazlı ifadə vasitələrinə rast gəlinir: «Rüxü zülfü çeşmü müjən sənin tənü canü dildə məkan tutub, Biri can alan, biri qan tökən, biri qəsd edən dilizarədir», «Almadınmı dili-sədparəmi əldən? Aldın! Bir nigah ilə şikar eyləmədünmi? Elədün!», «Gözün tiri-müjənlə tökdülər bir ləhzədə qanım», «Ayinə tək cəmaluva həsrətdü ayinə» s. misralarda zülf ilə üzün can alması ilə kipriklərin qan tökməsi, yarın aşiqin yüz parça olmuş ürəyini əldən alması bir baxışla ürək ovlaması, gözün kipriklərin oxu ilə bir anda qan tökməsi, ayinənin yarın ayinə kimi üzünə həsrət olması istiarədir və bu cür obrazlı deyimlər, mürəkkəb bədii məcazlardan istifadə şeirin bədii dəyərini artırmaqla onun poetikasını zənginləşdirir.

Mürəkkəb məcazlardan biri də mübaliğədir ki, klassik şeir üçün çox təbii sayılan, məqbul hesab edilən ifadə vasitəsidir və bunsuz romantizmi təsəvvür etmək mümkün deyildir. Aşiqin çəkdiyi əzab-

əziyyəti, hicran gecəsinin yanğısını, can alan, qan tökən məşuqun zülmünü və bu zülmün aşiqə verdiyi nəşəni, ilahi eşqin böyüklüyünü, məhəbbət dəryasının təlatümünü, eşq atəşinin yandırıçılığını, bir sözlə romantik şeirin gözəlliyini böyütmək, artırmaq üçün mübaliğə ən dəyərli vasitədir.

Zülfi-mişkindir ki, çin-çin arizi-dilbərdədir,
Ya sipahi-əbrəədür, Xosrovi-Xavərdədir.

Qara saçlardır ki, çin-çin gözəlin üzündədir, ya Şərq hökmdarında olan Əbrəə qoşunudur. Burada gözəlin üzünə tökülən qara saçın Əbrəə qoşunu ilə müqayisəsi mübaliğədir. İslami rəvayətlərə görə Məkkəni dağıtmağa gələn Əbrəə qoşunu fillərdən təşkil olunmuşdu və Allahın hökmü ilə əbabillərin ağızlarındakı daşlarla məhv edilmişdir. Deyilənə görə qoşunun ucu-bucağı görünmürmüş, onları məhv etmək üçün göndərilmiş əbabillər isə bütün göy üzünü tutubmuş.

Demə gün çıxar, yer işıqlanar, gecə ahim atəşi göglərə
O qədər çıxar ki, səhər bütun tökülən yerə o şərarədir.

Məlum təbii hadisədir ki, səhər Günəş çıxır, Yer kürəsini işıqlandırır. Lakin şairin lirik qəhrəmanı bununla razılaşmır. Öz dərdini, əzabını, çəkdiyi zülmlərin şiddətini bildirmək üçün deyir ki, sən elə bilmə Günəş çıxıb, Yer işıqlanıb. Xeyr, mən gecələr o qədər ah çəkirəm ki, ahımın atəşi göylərə qalxır və səhər həmin atəşin şərarələri yerə tökülür və Yer üzünu işıqlandırır. Göründüyü kimi bu beytdə eşq atəşinin yandırıcı qorlarını günəşin şüalarına bənzətmək, lirik qəhrəmanın eşqinin gücünü göstərmək üçün mübalığədir.

Yusif ki, asitaneyi-dildarə baş qoyub,
Yetməz məqami-rütbədə çərxi-bülənd ona.

Burada şair sevgilisinin astanasını ən uça çərxin məqamından yüksək sayır. Özünü aşiq sayan hər bir kəs üçün yarın kuyi, qapısı, kandarı ən gözəl məkandır. Klassik şeirdə lirik qəhrəman daim yarın səri-kuyinə can atır, başını onun kandarına qoymağı arzulayır, yarın qapısında gədalıq etməyi özünə şərəf sayır, yarın keçdiyi

yolun torpağını tutiya kimi gözünə sürtüb gözlərini nurlandırmaq istəyir. Burada isə şair artıq sevgili yarın astanasına baş qoyduğunu xəbər verir və bu rütbəni o qədər böyük hesab edir ki, göyün ən yüksək qatında olan çərxin məqamını onun müqabilində çox aşağı görür. «Yusif ki, yarın kandarına baş qoyub, bu rütbə məqamında heç uça fələk belə ona yetə bilməz»,-deyən şair burada çox şiddətli mübaliğə işlətmişdir.

Şairin başqa şeirlərində də bu cür obrazlı deyimlərə, mübaliğəli fikirlərə rast gəlirik: «Rüxsarıva deyibdülə Xurşiddir vəli», « «Şəhi-iqlimi-hüsnü Yusifi-Misri-məlahətsən», «Sən ol yari-Məsihaxislətü Xurşidtələtsən», «Min dağ gizlənib bu dili-dağdardə», «Bir belə dərdü qəmü firqətə ey şirindil, Bisütun tab gətirməz, o ki Fərhad olsun» və s. misralarda yarın üzünün Günəşdən də gözəl olması, sevgilinin hüsn iqliminin şahı, məlahət Misrinin Yusifi hesab edilməsi, hicr atəşindən, məşuqun cövründən aşiqin dağlı sinəsində min dağın gizlənməsi, aşiqin dərdinə, fərağına nəinki Fərhadın, hətta Bisütunun tab gətirə bilməməsi mübaliğədir və bəziləri hədsiz dərəcədə şiddətlidir. Lakin bu heç də Yusif şeirinin məntiqini pozmur, onun məna dəyərinə xələl gətirmir, əksinə onun bədii təsirini daha da güçləndirir.

Mürəkkəb məcazlardan biri də kinayədir. Yusif şeirində lirika üstün olduğu üçün onda kəskin kinayələr azdır. Şairin Hacı Qəniyə yazdığı həcvində güclü kinayələr vardır. Yüz bir beytlik həcvdə şair Məkkədən gəlmiş Hacı Qəninin ziyarətinə getdiyindən, orada pis qarşılanmasından, gələnlərə yalnız balqabaq gətirilməsindən və Yusifə pay çatmamasından söz açır. Sonra isə Hacı Qəninin məsələ şərh eləməyindən, dini ehkamlardan, şəriət məsələlərindən bəhs açmasından danışır və kinayələrlə onu bəzəyir. Həcvin əvvəlində bədii kinayələr elə işlədilir ki, elə bilirsən bu mədhiyyədir. Lakin, sonra fikirlər çözələnir, müqayisələr, kəskin hücumlar başlayır:

Ey xəyalətlərin şiveyi-ərbabi-kərəm,
Fikrətin dairəsi daireyi-sultani.

Rahi-rəsmi-rəvişin rəsmi-rəhi-əhli-hünər,
Şərəfi-mənzilətün mənziləti-xaqani.

Vüsəti-qəlbivə şahiddir ümumən ürəfa,
Doldurub seytü səxavət kərəmin dünyani.

Yusifin lirik şeirlərində olan kinayələr o qədər də güclü təsir bağışlamır. Onlarda yumor çox incədir. Lakin şair elə bu incə yumorla da özünəməxsus orijinal deyimlərlə öz sözünü deyir:

Dəmadəm eylədik tərif insaf ilə vicdandan,
Bəli insaf nə, vicdan nədir bibəhrələr andan.

Həmişə bəhslər qıldıq, danışdıq ünsü ülfətdən,
Belə vəhşiliklər etdik ki, verilməz fərq heyvandan.

Şer bir-bir əməllərin sadalanıb səciyyələndirilməsilə davam edir, sonda isə şairin kinayə ilə mövcud vəziyyətdən çıxmağın mümkün olması ehtimalını irəli sürdüyünün şahidi oluruq və şair bu təqdirdə dünyanın cənnətə çevriləcəyini qeyd edir. Bizi yerlərdə hətta şairin hansı sözünün kinayə, hansının həqiqət olduğu bilinmir. Burada biz kinayədən çox, təəssüf hissi ilə qarşılaşırıq.

Bu aləm aləmi-laqeydlikdir, yaxşı aləmdir
Ki, xubü zişti birdir, şahdan minnət gəda çəkməz.

Bu beytdə isə şair yaşadığı dövrün hərki-hərkiliklə səçiyyələnməsini, yaxşı ilə pisin, gözəl ilə çirkinin fərqləndirilməsini göstərir və kinayə ilə bunu yaxşı aləm hesab edir. Şairin dostu Azər Buzovnalıya yazdığı şeirdə də kinayəyə rast gəlirik:

Oldu aləm meyi-minayi-məhəbbətdən məst,
Sən də nuş eylə bu meydən neçə sağər Azər.

Sən də çək başına Yusif kimi bir sağəri-eşq,
Qoy desinlər sənə də dəhrdə kafər, Azər.

«Təxtü tacü səltənət fikrində olma, ey fəqir. Sanki çıxdın sən də bir gün təxtə Əhməd şah tək», «Zahid hənuz məsələdə iştibahı var, Pak olmayıbdı hindi də abi-qüsalədən», «Mən deməkdən acizəm, xəlq anlamaqdan tərsini», «Yetişib Yusifə, zahid, demə dünya qəmini, Yetər üqbadə görək kim nə edər Xaliqimiz», «Zahid sözün şəkəridir», «Zahida, mən rəhi-meyxanə tutum, sən məscid, Görəlim

aqibətində aparır kim kimi», və s. deyimlərində də şairin təsirli incə kinayələrinin şahidi oluruq.

Göstərilən misallardan aydın olur ki, Yusif yaradıcılığı öz bədii dəyəri, məna tutumu ilə klassik şeirimizdə görkəmli yer tutur. Şairin hər beytində, bəlkə hər misrasında bədii ifadə vasitələrindən, o cümlədən məcazlardan səxavətlə istifadə olunmuş, xüsusi şair sənətkarlığı, ustadlıq nümayiş etdirilmiş, oxucu zövqünün, oxucu təfəkkürünün maksimum nöqtəsini fəth edən yüksək sənətkarlıq nümunələri yaradılmışdır.

"Azərbaycan"jurnalı, 2000, N 4

BABA PÜNHAN

İlkin izlərini həcvlərdə tapdığımız, əsrin əvvələrində Sabir qələmiylə möhtəşəm zirvəyə qaldırdığımız, bir əsr ərzində Mənsurların, Münsiflərin, Rüfətlərin fikri, düşüncəsində qalxıb-enən dalğavari xətt üzrə bu günə kimi yaşatdığımız Azərbaycan satirası əsrin sonunda kimlərin qələmiylə yazılır?

Əsrin əvvəlində Sabir qələmindən güllə kimi çıxan, azğınların, qansızların, ürəksiz, vicdansız bir ovucun başında ildırım kimi çaxan dərdlərimizin, ağrı-acılarımızın bu gün kimin qələminin partlamağa ehtiyacı vardır?

Hər cür maneəni dəf edərək, həyatını təhlükəyə atan, milləti ayıltmaq üçün ömrünü-gününü alınmaz bahalara satan, xalqın dərdinə yandığı üçün bu gün də xalqın dərdli, yaralı ürəyində, silinməz yaddaşında əbədi qalan söz ustalarının yerinə bu gün tarixin təkrar elədiyi dərdlərimizi çiynində, ağrı-acımızı qəlbində kimlər daşıyır?

Hər dəfə yeni bir qələm sahibi meydana çıxanda onu kiməsə bənzədirlər. Bəlkə də bu təbiidir. Hər bir söz əhli öz qələmini əvvəlcə təkrar xətt üzrə sınayır, sonra yeni-yeni yollar axtarır. Bəziləri köhnə yoldan kənarlara çıxa bilmir, yaradıçılığını təqlidçi kimi davam etdirir. Necə ki, əsrin əvvəlində çoxları Sabir yolunu keçib yeni şeir yarada bilmədi. Bu gün də bir çox satiriklər qələmini Sabir stilində sınayırlar, amma...

Artıq bir neçə ildir ki, bir az şirin, bir az şor sözlərilə "Şor" kimi, bir az hamar, bir az tikanlı, kilkəli sözlərilə "Kilkə", bir az sısqa, bir az tosqun, ətli-canlı sozlərilə "Ətsiz", gah gecə, gah gündüz yazdığı "Sübh" kimi şeirlərilə həm dərdimizi deyən, həm də dərdli ürəklərimizi güldürən, həm satirik gülləsiylə nadanların beynini sökən, həm də bəxş elədiyi gülüşlə ürəklərdə özünə əbədi ev tikən Baba Pünhan adlı, adı pünhan sözu aşkar, əyrisi, düzü aşkar "mamlımatan" qızı aşkar "siz"i aşkar, "biz"i aşkar, iynəsi, həm bizi aşkar bir şair çıxıb meydana. Kimi deyir bu günümüz üçün Sabirdir. Kimi deyir, adamın atasını yandırır, Cabirdir. Kimə necə sərf eləyir, elə də deyir. Baba Pünhan da necə dərk eləyir, elə deyir...

"Dövrə ümid eylədik, dovran da it günündə", "Cahan gedir süquta, Quran yetir sübuta", "Kişilər qeybə çıxıb ölkə papaqnan doludur", "Bizə azadlığı çox gördü bu azadlığımız", "Utanır üzüm deməkdən Qarabağ bizim, əzizim", "Pünhanı da satmışıq, aşkarı da satmışıq", "Neçə ildir başıma turp əkilir lək yerinə", "Şoru balnan bir olan ölkədə baxmaz yaşa daş", "Yazıb Baba həqiqəti, qopub sözün qiyaməti", "Var çoxları ki, heç onun əcdadı bilinmir", "Vətən can verdi, Pünhan, dəfninə Sahibzaman gəlsin", "Bu əlin falına hər gün baxasan, ağlayasan", "Bilmədi Tanrı hammızı dəhrə kirayə göndərib", "Malü dövlət kimdədir, dövran onun dövranıdır", "Naş KQB oçen jivoy şaqayet", "Gedirik bir təzə dövranə, nu zaes poqodi", "Özümə mənsiz əzizim, sənə sənsizmi deyim", "Tərki-dunyalıq edib, Pünhan, qapıl tənhalığa", "Eldə saqqalsız tanın Mail tək ağsaqqal kimi ", "Varım yoxlana-yoxlana, yoxum varlana-varlana”.

Baba Pünhan “Yalan çeynəyə-çeynəyə”
kitabına ön söz.Bakı-2000.

ÖMRÜN ÖTƏN ANLARINI VƏRƏQLƏRKƏN

Klassik şeirimiz daim coşan, hayqıran bir dənizə bənzəyir ki, ona ancaq güclü sənətkarlar baş vura bilir. Yalnız onun şirin-şəkər məhəbbət nəşəsini, acı hicran şərbətini, işıqlı “gecə”sini, qaranlıq “gündüz”ünü, yoxluqda doğulan varını, varlıqda boğulub yox olan yarını tapanlar güclü sənətkar olurlar.

Arif Buzovnalının "Ömrün ötən anları" kitabını vərəqlərkən, fikrim bir anlıq yenə də Hacı Mailin sədrliyi ilə keçən "Füzuli" ədəbi məclisinin, bəzən Füzuli sehrinə, Hacı Mail nüfuzuna bələnən sükutuna, bəzən isə yerli-yersiz iradlardan uğuldayan hay-küylü, duzlu-məzəli, replikalı uğultusuna cumdu, kitabdakı hər şeirlə bağlı bir əhvalat yada düşdü, gözüm qarşısında müxtəlif epizodlar kino lenti kimi gəlib keçdi...

Yadımdadır, məclisdə ən çox "döyülən " şair Arif olurdu. Həmişə Mail müəllimə iradımı bildirəndə, cavabında deyərdi: "Arifi ona görə çox tənqid edirəm ki, o şairdir. Mən ondan çox şey gözləyirəm". Bu, Arif üçün ən böyük etimad idi və Arif bu etimadı doğrultdu. Bu kitab isə təsdiq üçün həqiqi sənəd idi.

Əruz vəznli ədəbiyyatımızın bütün nümayəndələri kimi Arifin yaradıcılığında da əsas yeri qəzəllər tutur. Bu qəzəllər sadəcə təqlid xarakteri daşımır. Arifin qəzəli oxunarkən, təxəllüs göstərilən məqtə beytinə çatmamış, bilinir ki, bu Arifin qəzəlidir:

Aləmin sənsən pənahı, yoxdu Sən Səndən səva.
Ey mənə məndən yaxın, ey məndə mən məndən səva.

Kuyinə yetməkdir arzum, istəməm bir özgə yer,
Xoş olurmu bülbulə bir guşə gülşəndən səva?

Canfədayam, ey Xuda, ruhum vüsalın gözləyir,
Dəhrə aid yoxdu bir şey məndə bu təndən səva,

Ey cəhanın sahibi, ey insü cinnin sərvəri,
Hökmünə şəkk eyləməz bir kimsə, düşməndən səva.

Tab edir zülmə fəna mülkündə Arif, çün bilir
Bir ədalət məskənin vardır, bu məskəndən səva.

Arifin qəzəlləri bir də ona görə fərqlənir ki, çox vaxt şeirə gətirilməyən, işlənməyən sözlərə, ibarələrə müraciət edir. Bu isə şeirə incə yumor gətirməklə, həm də orijinal səslənir:

Cəhənnəmləşdirilmişlərdənik, yoxdur günah bizdə,
Beli xəmləşdirilmişlərdənik, yoxdur günah bizdə.

Fəğan etsək belə, pərvərdigarə naləmiz yetməz,
Səsi bəmləşdirilmişlərdənik, yoxdur günah bizdə.

Keçirsə, ömrümüz qan tökmək ilə fani dünyadə,
Bura cəmləşdirilmişlərdənik, yoxdur günah bizdə.

Arif Buzovnalı üçün vəzn yoxdur. Əruz vəznində qəzəl, qitə, müstəzad, mürəbbe, müxəmməs, müsəddəs, müəşşər, tərcibənd, tərkibbənd, təxmis və s. yazdığı kimi, heca vəznində də qoşma, gəraylı, təcnis və s. janrlarda qələmini sınamış və gözəl şeir nümunələri yaratmışdır. Arif hətta sərbəst şeirlərində də öz arifliyini, sənətkarlığını sübut edir:

Hər yerdə, hər tərəfdə və hər bir qarışda qan,
Hər xətdə, rəngdə, ilmədə, min-min naxışda qan.

Hər sözdə, hər əməldə və hər bir baxışda qan,
Dünya dedikləri belə dünya imiş demə.

Arif Buzovnalının heca vəznində yazdığı şeirlərində də klassiklərdən gələn bir xətt, bir iz görünür:

Qurbanı olduğum, ey bilib qanan,
Doğru söz insanın ədalətidir.

Vicdan təmizliyi hər yarananın
Müqəddəs varlığa itaətidir.

Göstərilən misallardan aydın olur ki, Arif Buzovnalı istər klassik şeirimizin, istərsə də müasir şeirin bütün forma və janrlarında qələmini sınamış, istədiyinə müvəffəq olmuşdur. Biz inanırıq ki, o, bu günümüzdən sabaha gedən yolu tapan və bu yolda düzgün istiqamət götürən şairlər içərisində özünə mövqe qazanmışdır. Biz isə ona bu yolda uğurlar arzulayırıq.

"Azərbaycan XXI ƏSR" qəzeti, 1-7 mart, 2000.

UNUDULMUŞ ŞAİR

Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı dəyərli tədqiqatları olan, Azərbaycan qorqudşünaslığının əsasını qoyan, hələ gənc yaşlarından dövri mətbuatda şeir, hekayə və publisist yazıları ilə müntəzəm çıxış

edən Əmin Abidin cəmi bir neçə şeirini oxumuşdum. Əbdülxalıq Yusifin əsərlərini əldə etmək ümidilə dövri mətbuatda axtarış aparanda, Yusifin şeirlərini tapmadımsa da çoxlu Bakı şairlərinin əsərlərinə rast gəldim. 200-ə yaxın mənbədən 112-sində olan şairlərin adını qeyd elədim ki, bunların içərisində Əmin Abid də vardı. Bakı şairləri sırasından nə vaxtsa ona qayıdaçağımı bilirdim. Amma belə tezliklə jox! Çünki əlimdə başqa tədqiqat işi var idi. 1998-ci ilin dekabrında Əlyazmalar İnstitutunda «Kitabi-Dədə Qorqud»a həsr olunmuş elmi yığıncaqda Əmin Abidin tədqiqatçısı, Azərbaycan Ensiklopediyasının qrup rəhbəri Əli Şamilovla tanışlığım Əmin Abidə olan marağımı artırdı. Onun haqqında xeyli söhbət etdik. Əli müəllim onun elmi görüşlərindən danışdı. Mən dedim ki, Əmin Abid məni ancaq şair kimi maraqlandırır. «Övraqi-nəfisə», «İqbal», «Kommunist», «Məktəb», «Dirilik» kimi mətbuat orqanlarında onun şeirləri vardır, imkan olanda onları transliterasiya edəcəyəm.

Əli müəllim dedi:

– Onlardan bəzilərini mən köçürmüşəm. Ondan başqa İstanbulda çap olunmuş «İstiqlal uğrunda» adlı kitabda da onun «Gültəkin» imzası ilə şeirləri vardır. Mənə belə gəlir ki, bu kitabı elə Əmin Abid özü tərtib edib. Kitabda başqa şairlərin, eyni zamanda Əmin Abidin həyat yoldaşı Hayifə Abidin də şeirləri vardır. Verərəm baxarsan...

Bir gün Əli müəllim instituta gəldi, dövri mətbuatda olan şeirləri özündə olanlarla müqayisə etmək istədiyini bildirdi. Şerləri götürdüm:

– Mən müqayisə edərəm, siz vaxt itirməyin–dedim. Məqsədim bu idi ki, Əli müəllim Əmin Abid haqqında danışsın. Dedi:

– Ədəbiyyatşünaslarımızın əsərlərini oxuyanda, adama elə gəlir ki, əsrin əvvəllərində poeziyamızda satira aparıcı xətt olmuşdur, sonra isə sovet ədəbiyyatı nümunələri yaranmışdır. Milli ruhlu, mübariz əsərlərdən isə danışılmır. Lakin 90-cı il-lərdə mühacir ədəbiyyatına diqqət artdı, yeni tədqiqat işləri yazıldı, amma yenə də burada yaşayıb-yaradan şairlərimiz kənarda qaldı. Bunun bir səbəbi həmin şairlərin 30-cu illərd təqib olunub, həbs edilib, güllələnmə-

sindən sonra arxivlərinin dağıdılması, əsərlərinin məhv edilməsi olmuşdursa, digər səbəb də olan-qalan əsərlərinin əski əlifbada olmasıdır.

Dövrün əvvəllərində Bakıda bir canlanma var idi. Xarici ölkələrdə təhsil alıb gələn ziyalılar burada qəzetlər, jurnallar çap etdirir, teatr tamaşaları təşkil edirdilər. Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev kimi ziyalıların gördüyü işlər, onların «Həyat», «İrşad», «Fyüzat» kimi mətbuat orqanlarında çap etdirdikləri məqalələr, şeirlər Abid Mütəllibzadə kimi gənclərə güclü təsir göstərir, onlara milli ruh, üsyankarlıq duyğuları aşılayırdı.

Əmin Abidi bir tərəfdən mühit bu cür yetişdirmişdirsə, digər tərəfdən də ondakı mübarizlik kökdən, irsdən, qandan gəlmədir. Əmin Abid Mütəllibzadənin böyük qardaşı Əliabbas Müznibin araşdırıcısı İslam Ağayevin qənaətinə görə Müznib Bakının son hökmdarı olan Hüseynqulu xanın nəslindəndir. Rusiyaya qarşı barışmaz mövqe tutan, nəinki özünü, bütün nəslini də məhv olmaq təhlükəsi qarşısında qoyaraq rus generalı Sisyanovun başını qala divarları qarşısında kəsdirən bir xanın törəmələrinin yüz ildən sonra da belə üsyankar və vətənpərvər olması çox təbiidir. 1911-ci ildə Əliabbas Müznibin sürgün olunması da, 1937-38-ci illərdə hər iki qardaşın güllələnməsi də dediklərimizi təsdiqləyir.

Əli müəllim danışdıqca fikrimdə Əmin Abidin əlyazmalarda olan şeirləri dolanırdı. Sırf türk ruhu, milli, mübariz bir ruh, riyadan, yalandan uzaq bir ruh, Əmin Abid ruhu dolanırdı ətrafda. F.23, s/v. 262 şifrəli qovluqda saxlanılan «Gün gələr ki...» adlı şeirdən aşağıdakı parça Əli müəllimin dediklərini təsdiqləyir:

Əçdadımız şanlı olmuş, dunyaları titrətmişdir.
Çalışmaqdan usanmamış, uyumağı sevməmişdir.
Hər saniyə, hər dəqiqə çarpışmış, qeyrət etmişdir,
Eyşu işrət şərqisini oxumağı sevməmişdir.
Biz onların övladıyız, bir gun gələr qəlbimizdə
Ol möhtərəm babaların mətin, möhkəm əzmi doğar.
Böyuk bir hiss, böyuk duyğu oyandırar cumləmizdə,
Eyşin kəsavətin atar, qafil, cahilləri boğar.

Dedim:

– Əli müəllim, Sizin bayaqdan haqqında danışdığınız Əmin Abid şeirlərində daha böyük şəxsiyyətdir. Müznibin arxivində 30-a yaxın qovluq var ki, orada Əmin Abidin əsərləri saxlanılır. Qovluqların əksərində şeirlər, hekayələr, yazı parçaları vardır. 10 bütöv şeir, 20 dördlük vardır. Bundan başqa həm nəsrlə, həm də nəzmlə yazılmış dağınıq yazılar var ki, onlardakı şeir parçaları təsirlidir. Amma təəsüf ki, yazılar çox qarışıq, pozulmuş, kəsilmişdir. Amma bəzilərini transliterasiya etmək olar.

Əli müəllim dedi:

– Bilirəm, özü də orada olan şeirlərin heç biri çap olunmayıb.

Söhbətimizin sonunda isə əlavə etdi:

- Əmin Abidin şeirlərini toplayıb çap etmək lazımdır, yaxşı bir kitab çıxar. Həm «İstiqlal uğrunda» kitabda çap olunmuşları, həm dövri mətbuatda olanları, həm də Müznibin arxivindəkiləri bura daxil etmək olar. Transliterasiya işi də sənin öhdənə düşür.

Fikrə getdiyimi görüb dedi:

– Bu vaçib işdir, biz bunu çoxdan eləməliydik.

Dedim:

– Əlimdə iş var, Mənzurinin «Qaraçuxa» əsərini transliterasiya etməliyəm, mənə bir həftə vaxt verin, sonra Əmin Abidi başlaram.

Razılaşdıq. Bir həftədən sonra Əmin Abidin «Türkün dərdi» şeirini oxuyanda, düşündüm ki, gərək mən Əmin Abidi çoxdan axtaraydım.

F. 23, s/v. 262 şifrəli qovluqda saxlanılan bu şeir Əmin Abidin şeirləri içərisində həcmcə ən böyüyüdür:

Türkün dərdi qayət böyuk,
sanamaqla tükənməzdir.
Türkün dərdi bir cəhan ki,
yeni–əski mübarizlər onda baqi.
Türkün dərdi bir kitab ki,
min vaqeələr andırır.
hər bir sətri
bir igidin al qanilə yazıldı...

Əmin Abidin «esse»ni xatırladan yazılarında Türkün dərdi daha

çox açıqlanır. F.23, s/v. 269 şifrəli qovluqda olan yazılarından birində deyir: «Əsir analarınız sizdən istedad bəkləyürkən, siz özgələrin kölgələrində daldalandınız. Yetim Azərbaycan qızları qüvvəli, zorlu cavanları nişanlarkən, siz, siz ey Şərqin düşkün ərləri xaçlı qızları daha üstün tutdunuz».

Göründüyü kimi, Əmin Abid hələ əsrin ikinci onilliyində türkün bu əməlinin ona bəlalar gətirəcəyini bilirdi. Türkün oğullarını ayılmağa, bu çirkabdan xilas olmağa çağırırdı: «Çalış, ey türk oğlu, həyatını sən dəxi əsarət girdabından xilas et, çalış iləricə (irəlicə - S.X.) könlünə milli məhəbbət yerləşdir. Sonra yavaş-yavaş dirilməgə başlarsan...»

Əsrin sonunda oyanan milli şüurumuz bu gün ətrafımızdakı qəsbkarlara qarşı çıxır, amma əsrin əvvəlində Əmin Abid bütün qərb təcavüzünə qarşı çıxırdı. Biz hələ indi də dərk etmirik ki, bu gün rastlaşdığımız problemlərin kökləri çox-çox uzaqlara, dərinlərə gedib çıxır. Əmin Abid hələ o zaman yazırdı:

Haydı səadətə doğru, həyata doğru,
Çanlı addımlar at, ey türk oğlu!
Qərbin zəhərlidir süni gülləri,
Şərqə doğru yürü, Şərqə iləri!

Əmin Abidin ən böyük amalı, əqidəsi Türklükdür. Türkün ayaqlanmağına, türk ellərinin didərginliyinə, türk yurdunun talanmağına dözməyən Əmin Abid bu gün Azərbaycanı bu vəziyyətdə görsəydi, neyləyərdi?.. «Qafqaziya» şeirində:

Bu gun gəldim hüzuruna, ey şərəfli, böyuk türklük!
Ulu həmlə yüksəltişdir, qəsdim, ellər üçün səni.
Sənələrcə sönmüş qalan qılıncımı püfləyərək,
Yağmaq istər alçaq düşmən Oğuz xanın ölkəsini.
Mən bir odam, bir atəşəm, qorxmam əsla qılıncımdan,
Burax məni, keçirəyim düşmənləri qılıncımdan.

deyən şair dağılmış ölkələrin, xarabaya çevrilmiş məmləkətlərin, parçalanan yurdların sahibsizliyini görür və bunlar «Türkün... Türkün deyil bəlkə?!»-deyə hayqırır. Türklərin bu gün bir insafsız qartalın kölgəsində yaşadığını, Timuçinin, Atillanın, Orxon bəyin

unudulduğunu ürək ağrısı ilə xatırladır və «Buraxın məni, qan qusduran murdar əli sındırım, yaşayışı haram edən alçaqları süngümlə cəhənnəmə fırlatım, buraxın düşmənləri qılıncımdan keçirim»-deyə fəryad edir.

Həmin qovluqda olan «Qılıncım və başım» adlı şeirdə də şairin vətən məhəbbətini, düşmənə olan nifrətini görürük:

Ey düşmən, əya, lənü qəhhar,
Qorxutma məni ölumlə, zinhar.
Vəqta ki, məmatdır həyatım,
Yoxluqla elərmi xof zatım?
Türkəm, qılıncım başında parlar!

F. 23, s/v. 252 şifrəli qovluqda saxlanılan «Qanlı hədiyyə» şeirində Əmin Abid evlərin yandırılmasından, böyüklü-kiçikli insanların işgəncələrə məruz qalmasından, körpələrin süngüyə taxılmasından, anaların balaya, bacıların qardaşa, övladların ataya həsrət qalmasından bəhs edir, bunları vəhşiyyət adlandırır:

...Mədəniyyət bumu, bu vəhşiyyət.
Dəniyyətdir, dəniyyət.
Adətlər yıqub, kaşanələr yaqmaqla dunyanı
Məzarıstanə döndərmək Azərbaycanı!
Nədir söylə, nədir? Aya
Degilmi sırf vəhşiyyət?

Şerdə «Azərbaycanı» sözü «A. çanı» şəklində verilmişdir. Əsrin əvvəllərində Azərbaycan parçalanmış vəziyyətdə olduğundan, yəqin ki, «Azərbaycan» sözünü işlətmək heç kimin yadına da düşmürdü. Bu təkcə Əmin Abid kimi içində türklük, millilik, vətənpərvərlik, azərbaycanlılıq olan adamların fikrinə, düşüncəsinə gələ bilərdi.

Tarixi, imzası bilinməyən yarımçıq yazıların birində oxuyuruq: «...Vəqtilə oğuzları qoruyan Turan, hazırda özi biganələr tərəfindən saqlanılır»... Bu cümlədən sonra isə «Turan elləri» adlı şeir gəlir:

Bax Turan elləri, Turan elləri,
Fəryadlar edir, daim inliyor.
Göglərində bayqu şərqi söyliyor,

Gədalərə qaldı Turan elləri.

İrmaqlar yerində qanlar çaqlıyor,
Bülbüllər ötuşməz, sızlar, aqlıyor,
Lalənin baqrını dikən daqlıyor,
Əqyarə keçdi həp Turan elləri.

Baqlar xərab oldı bəhar çağında,
Çiçək görünməyür türkün bağında,
Obasında, çölündə, yaylağında
Məzarlığa bənzər Turan elləri.

Bu şeirləri Əli müəllimə oxuyanda həm təsirləndi, həm də sevindi. Üzündəki ifadə nəsə yeni bir şey kəşf elədiyini göstərirdi. Dedi:

– Mən indi Əmin Abidə bir şair kimi yenidən vuruluram. Həmişə məni onun elmi görüşləri maraqlandırıb, şeirlərinə fikir verməmişəm. Amma indi görürəm ki, ideyalarına görə təbliğ etdiyimiz şairlərin çoxundan qüvvətlidir. 15-16 yaşlı bir yeniyetmənin dövrün təsirindən cəmiyyətdəki nöqsanları, tənqid edən əsərlərə, yaxud məhəbbət şeirlərinə deyil, məhz türkçülük, millilik, vətənpərvərlik ruhlu şeirlərə üstünlük verməsi xalqda milli şüurun güclü oyanışından xəbər verir. Bu şeirləri oxuduqca öz-özündən soruşmalı olursan:- həqiqətənmi bunları 15-19 yaşlı bir gənc yazmışdır? Qaynaqları dəfələrlə gözdən keçirdikdən sonra təsdiqləməkdən başqa əlacın qalmır.

Dedim:

– Əli müəllim, əgər Əmin Abid bu yaşda belə qüvvətli şeirlər yazıbsa, gərək onda yetkin dövrdə o, ikinci Hüseyn Cavid olaydı ki...

Dedi:

– Yazsaydı, əlbəttə, olardı. Əmin Abid başqa yol seçdi, ədəbiyyat tarixini tədqiq etməyə girişdi, elə ona görə də ədəbiyyat tariximizin Hüseyn Cavidi oldu. Təqiblərə, sürgünlərə baxmayaraq yorulmadan çalışdı, mübarizə apardı. Qorqudşünaslığın əsasını qoydu, altı cildlik ədəbiyyat tarixi yazdı, türk xalqları ədəbiyyatında mani-bayatıları müqayisəli təhlil etdi, M.F.Axundovun üçcildlik əsərlərini çapa hazırladı, heca vəzninin tarixini araşdırdı...

Ədəbiyyat tarixini öyrənənlər dəfələrlə «İlk dəfə bu mövzunu Əmin Abid araşdırmışdır» yazmalı olurlar. 39 yaşında güllələnmiş türk oğluna bu qədər əsər yaratmağa güc verən Vətən məhəbbəti, xalq məhəbbəti olmuşdur.

Beləcə:

Ey Tanrının əziz qulu, ey Turk oğlu!
Ey şərq səmasının parlaq yıldızı!
Qərb istəməz türkün gözəl simasında
Qalibiyyət təbəssümü hiss olunsun.
Qərb istəməz Türk oçağı, türk dunyası
Mənəviyyət günəşilə işıqlansın.
Qərb istəməz islamiyyət ucalansın...

deyən, millətini, Vətənini canından çox sevən, Türklüyün, milliliyin keşiyində qılıncıyla-qələmiylə duran, dostu ilə düşmənini seçən, sözünü çəkinmədən, qorxmadan birbaşa deyən vətənpərvər bir şairin xatirəsini yad etdik. Ola bilsin ki, gələcəkdə Əmin Abidin daha yeni əlyazmaları aşkara çıxarılsın və onun poeziyası haqqında mükəmməl tədqiqatlar yazılsın.

"Çıraq"jurnalı, 1999, N 7

ƏBDÜLXALIQ YUSİFİN MƏŞHUR QƏZƏLİ

Məni ixtisasımı dəyişməyə məcbur edən, Əlyazmalar İnstitutuna çəkib gətirən Bakı ədəbi mühitinə olan marağım idi. Dissertasiya üçün mövzu seçəndə Ə.Yusifin, Ə.Cənnətinin, H.Saqibin və A.Buzovnalının əlyazmalarını nəzərdən keçirtdik. Yusifin üzərində dayandıq. Mail müəllim dedi:

– Bakı şairləri içərisində Yusifdən böyük şair tanımıram... Vaxtilə onun sorağını eşidən S.Ə.Şirvani təkçə Mirzə Əbdülxalıqı görmək üçün Şamaxıdan Bakıya gəlibmiş...

A-35/478 şifrəsi altında saxlanılan, 21 vərəq həcmində olan əlyazma doğrudan də dəyərllidir. Əbdülxalıq Yusifin (1851-1924) azərbaycanca və farsca yazılmış 59 şeiri vardır ki, bunlar müxtəlif janrları və az işlənən formaları əhatə edir.

Transliterasiya yenicə qurtarmışdı. Bir gün Mail müəllim dedi ki, M.Ə.Yusifin nəvəsi Rauf Yaqubov Mikrobiologiya və Profilaktika İnstitutunda işləyir, onu tapmaq lazımdır. Vasim Məmmədəliyev deyir ki, onda babasının şeirləri var. İnstituta getdim, dedilər ki, Pauf Yaqubov məzuniyyətdədir. Soraqlaşdım, həmkarı Şaiq həkim dedi ki, mən onun telefon nömrəsini taparam və əlavə etdi ki, çalışın onunla tez görüşün, çünki onlar ailəlikcə Amerikaya köçüb getməlidirlər. Bir neçə gündən sonra Rauf müəllimlə telefon əlaqəsi saxlayıb dediyi vaxtda instituta getdik. Söhbət əsnasında Rauf müəllim babasının "Bir tərəfdə" rədifli qəzəlindən bir beyt dedi:

Yusif deyər fəhiməm, zahid deyər cünundur,
Gəncinə bir tərəfdə, viranə bir tərəfdə.

Bu qəzəl C.Rəmzinin "Deyilən söz yadigardır (Bakı, Yazıçı, 1981, səh. 43) kitabında var idi, çoxdan xoşuma gəldiyindən əzbərləmişdim də.

Mail müəllim söhbəti əsl məqsəd üstünə gətirib dedi:

– Yusifin yaradıcılığını Sona dissertasiya üçün mövzu götürüb, amma əlimizdə olan şeirlər kifayət eləmir. Ona görə də istəyirik ki, babanızın sizdə olan əlyazmalarını bizə verəsiniz.

Rauf müəllim xeyli söhbətdən sonra müxtəlif ölçülü kağızlara yazılmış bir torba əsər gətirdi. Vəziyyət bizim düşündüyümüzdən daha sevindirici idi. Əlyazmaları götürüb yenidən görüşmək fikrilə ayrıldıq. Sonralar mən Rauf müəllimdən Yusifin şəklini də aldım və ailəliklə Amerikaya köçüb getdiklərindən bir daha onunla görüşə bilmədim.

İnstitutda elmi rəhbərim olmaq üçün bir neçə alim təklif etdilər. Bakı ədəbi mühiti ilə bağlı olduğu üçün Əziz Mirəhmədovu seçdim. Əziz müəllim səhhətinə görə rəsmi rəhbərlikdən imtina etdi. Amma Hacı Rafiq ona deyəndə ki, mən Əbdülxalıq Yusifin yaradıcılığını işləmək istəyirəm, razılaşdı və qeyd elədi ki, Yusif onun ən çox sevdiyi şairlərdəndir. Sonra da ondan bir beyt dedi:

Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə.

Telefonda Əziz müəllimin səsi aydın eşidilirdi. Yenə də həmin qəzəl idi!.. Sonralar mövzunun təsdiqi gecikdirildiyi üçün mən Əziz müəllimlə görüşə bilmədim.

Bakı Dövlət Universitetində diplom işi üçün mövzular verilində (ixtisasımı dəyişdiyim üçün mən həm işləyir, həm də universitetdə oxuyurdum) institutumuzun direktor əvəzi Məmməd Adilov məsləhət gördü ki, Ə.Yusifin dili ilə bağlı mövzu götürüm. Türkologiya fakültəsində mənimlə razılaşmadılar, dedilər ki, hər müəllimin mövzuları var, onlar artıq təsdiqlənib, başqa mövzu olmaz. Bir azdan Tofiq Hacıyev gəldi. Məsələni danışdım. Düzü, neçə müəllimin sözündən sonra ümidim üzülmüşdü, amma heç gözləmədiyim halda Tofiq müəllim dedi ki, mümkündür. Kafedranın işçisinə tapşırıq verdi ki, mövzunun adını yazsın versin, dekanlıqda təsdiq olunsun. Yenidən mənə sarı dönüb soruşdu ki, kimi rəhbər istəyirəm və özü də daxil olmaqla dörd müəllimin adını çəkdi. Mənim əvvəlki istəyimi nəzərə alıb Samət Əlizadəni rəhbər təyin etdi, həm də Samət müəllimin Bakı ədəbi mühitini daha yaxşı bildiyini xüsusi vurğuladı... Nə isə Ə.Yusiflə bağlı mövzunun təsdiqi, Samət müəllimin rəhbər təyin edilməsi, hər şeydən əvvəl isə Tofiq müəllimin işə münasibəti məni o qədər sevindirmişdi ki... Mən Tofiq müəllimi təzədən kəşf eləmişdim...

Samət müəllim söhbətlərimizin birində Yusifin əsərlərinin azlığına təəccüb edib dedi ki, ola bilməz o cür güclü şairin elə bu qədər əsəri olsun. Sonra isə Yusifin məşhur şair, gözəl sənətkar kimi tanınmasından danışdı. Hələ uşaq vaxtı şairin "Bir tərəfdə" rədifli qəzəlini əzbər bildiyini qeyd edib ondan bir neçə beyt dedi:

Bəzm içrə şəm, ruyi-cananə bir tərəfdə
Mən bir tərəfdə yannam, pərvanə bir tərəfdə.

Bir yanda zülfi-Leyli, bir yanda ahi-Məçnun,
Zənçir bir tərəfdə, divanə bir tərəfdə.

Bir üzdə tari-geysu, bir üzdə xali-hindu,
Bir dam bir tərəfdə, bir danə bir tərəfdə...

Birinçi dəfə idi ki, Samət müəllimi şeir deyən görürdüm. Özü də elə uşaq səmimiyyəti ilə deyirdi ki... Kim bilir bəlkə də bu qəzəl onu

elə bu qəzəli əzbərlədiyi vaxta, o illərə aparmışdı...

Mən isə başqa şey düşünürdüm. Həsənoğlu bir qəzəli ilə ədəbiyyatımızda özünə mövqe tutmuşdu. Bəlkə elə Yusifin də iki sandıq əlyazması kimi bizə çatan əsərləri də məhv edilmiş olsaydı və yaddaşlara həkk olunan bu bir qəzəli qalsaydı, elə bununla da şair yaşayacaqdı.

Dissertasiya mövzum təsdiq olunandan sonra rəhbərlik institutumuzun professoru Cənnət xanım Nağıyevaya tapşırıldı. Cənnət xanım Ə.Yusifin yeni əlyazmalarını tapmaq üçün fraqmentlər bölməsinə baxmağı məsləhət gördü. Axtarış zamanı fraqmentlərdən şairin 41 əsəri əldə edildi ki, bunların arasında naməlum avtoqraflar da var idi, əlimizdə olan əsərlərin fərqli nüsxələri də. Fr-114 şifrəsi altında saxlanılan qəzəllərdən biri də həmin bu məşhur qəzəl idi. Burada C.Rəmzinin təqdim etdiyi variantdan fərqli olaraq bir beyt artıqdır:

Zahid, sözün şəkərdir, söz burda qalsun, amma
Dildar bir tərəfdə, meyxanə bir tərəfdə.

Sonralar Ə.Müznibin arxivində B-1620 şifrəsi altında saxlanılan Ə.Yusiflə bağlı materialların içərisində də bu qəzələ rast gəldik. Burada həmin beyt verilmişdir, lakin "meyxanə" əvəzinə "peymanə" işlənmişdir.

Xalq artisti Hacağa Abbasov (Mütəllib oğlu, 1888-1975) Maştağada anadan olmuşdur, hal-hazırda kəndimizdəki Mədəniyyət Evi onun adını daşıyır. Əlyazmalar İnstitutunda onun böyük həcmli əlyazması saxlanılır ki, burada bir çox görkəmli sənətkarlar haqqında xatirələr vardır. IX xatirə Mirzə Əbdülxalıq Yusif haqqındadır. (C-713/38424, səh.34, 4-cü vərəq)

Hacağa Abbasov yazır: "1915-ci ildə mən artist Cahangir Zeynalovla Mirzə Əbdülxalıq Yusifin yanına gəlib ondan xahiş etdik ki,"Yusif və Züleyxa" adlı bir opera yaratmaq istətyirik. Elə bir mövzunu yazsın ki, biz onun şeirinin əsasında opera düzəldək, Əziz Cəbrayılovdan xahiş edək, ona musiqi bağlasın, opera surətinə salsın.."

H.Abbasov qeyd edir ki, onlar Ə.Yusifi tapmaq üçün onun dükanına gəlirlər. Onlara deyirlər ki, Yusif yaz gələndən Şüvəlanda bağdadır. Soraq-soraqla gəlib Şüvəlanda bağda onu tapırlar.

Aralarında müxtəlif maraqlı söhbətlər olur. Söhbət əsnasında Yusif bir xatirə danışır. Deyir ki, Kazım bəy Hacınski, bu il bahar girəndən onu öz bağına dəvət edib, dostu Repsimə xanımla tanış eləyib, Yusif bir ay bağda qonaq olub. Bir gün qəzəl gecəsi bitən zaman böyük bir hovuzun kənarında üçü əyləşib ədəbi söhbət edirmişlər. Qaranlıq düşdüyündən lampanı yandırırlar. Bu vaxt pərvanələr lampanın ətrafında dolanırlar. Bunlar da yeyib-içirmişlər. Bu vaxt Kazım bəy Yusifdən xahiş edir ki, bu mənzərəni nəzmə çəkib bədahətən şeir desin. Yusif də əlində cam başlayır həmin bu "Bir tərəfdə" qəzəlini deməyə. Üç beyt deyir. Bu vaxt şərab qurtarır. Repsimə xanım bağın içərisinə gedir. Bir neçə gül qoparır, bir əlində gül, o birisində şərab içəri girəndə Yusif qəzəlin ardını gətirir:

Mey şişədə, gül əldə nagah nigar gəldi,
Mey qaldı bir tərəfdə, meyxanə bir tərəfdə...

Kazım bəy və Repsimə xanıma bu şeir çox xoş gəlir və ertəsi gün şair Məşədi Azəri və şair Ağadadaş Münirini çağırıb yeni bir şeir məclisi təşkil edirlər. Burada Azər Buzovnalı həmin geçə yazdığı "Olmaqdan isə" rədifli qəzəlini, Ə.Yusif isə Münirinin xahişi ilə təzə yazdığı "Xurşidi-mey göründü sipehri-piyalədən" misrası ilə başlayan qəzəlini oxuyur. Həmkarları Yusifə "əhsən" deyirlər. Kazım bəy Hacınski isə ona hədiyyələr verir.

Qəzəlin müxtəlif nüsxələrini müqayisə etdikdə H.Abbasovun variantında bir çox səhvlər görünür. Lakin qəzəlin yaranma tarixçəsi kimi bu xatirə qiymətli əlyazmadır.

"Çıraq"jurnalı, 1999, N 5

O HÜNƏRLİ ƏDİB

(Müasirləri Əbdülxalıq Yusif haqqında)

Mirzə Əbdülxalıq Yusif (1851-1924) öz dövründə fəaliyyət göstərən "Məcməüş-şüəra"nın fəal üzvü olmuş, keçirilən şeir məclislərinə başçılıq etmişdir. Bakı şairlərinin ustadı sayılan Yusif bir çox şairlərin, o cümlədən Əliağa Vahidin yetişməsində böyük rol oynamış, ona "Vahid" təxəllüsünü də özü vermişdir. Yusif yaşadığı döv-

rün görkəmli şairləri olan S.Ə.Şirvani, A.Buzovnalı, Ə.Cənnəti, H.Saqib, C.Mənsur, Ş.Gəncəli, Ə.Qarabaği, M.Xürrəmi, M.Cürmi, Mirzə Səməndər, Rahil, Müşkat, Müniri, A.Sürəyya, F.Dərbəndi, Cabit və b. ilə dostluq etmiş, onlarla daim əlaqə saxlamış, şeirləşmişdir. Yusifə həsr olunmuş şeirlərindən görünür ki, dövrünün şairləri onu ustad sənətkar hesab etmiş, daim ondan öyrənməyə çalışmışlar. Novruz Neyyirin Ə.Yusifə ithaf şeirində oxuyuruq:

Yusif, ey safqəlb, pakzəmir,
Ürəfa məhfilinə mahi-münir.
Xaliqi-şer söyləsəm, yeri var,
Səndədir çünki qüdrəti-təqdir.

Ə.Yusif təkcə ustad sənətkar olduğu , deyil, həm də müsbət insani keyfiyyət1ərinə, ağsaqqal kimi hörmət qazandığına görə həmişə yüksək tutulmuş; təsadüfi deyil ki, şairlər məclis üzvlərinə, dostlarına şeir həsr edəndə başda onun adını çəkirmişlər. Bu cəhətdən Mir Həsən Münsifin şeiri səciyyəvidir:

Bakının bir unudulmaz mədəni sərvəti var,
Yazmayıb indiyədək bircə muvərrix ani.
Bakı şairlərinin şeirin oxursa hər kim,
Şübhə yoxdur ki olur aşiqi-sərgərdani.
Birisi Yusif—onu həzrəti-Yusif görsə,
Tərki-Kənan eləyib Misrin olar sultani...

Müəllif Bakı şairlər məclisinin şeirdə mahir olan üzvlərinin adını çəkir, onların xarakterik xüsusiyyətlərindən danışır, sonda isə çoxunun adını çəkmədiyini hər şeiri bəyənməməsilə izah edir. .

Səməd Mənsurun Yusifə göndərdiyi, başlanğıcında öz xətti ilə "Ustadi-möhtərəm Əbdülxalıq Yusif əfəndiyə" sözləri yazılmış bir məsnəvisi diqqəti daha çox cəlb edir. Burada şair insanın qan tökən, başkəsən, yandıran, öldürən bir varlıq olduğunu, hətta o zaman Adəmin yaradılmasına mələklərin etiraz etdiyini, Qurani-kərimdə buyrulan ayələrin təsdiqini verir, bütün dəhşətlərə insanınmı, şeytanınmı bais olduğunu Cavidsayağı sorur, nəhayətdə isə Yusifə müraciətdə deyir ki:

Etdikçə təfəkkür, şaşıyor əqli-zəifim,
Hər mətləbə yetcək sıxılır qəlbi-zəifim.
Anlat, mənə ey mürşidi-kamil, bu müəmma
Bir fəlsəfəmi, nükteyi-barikmidir, ya
Məhsuli-xəyalati-bəşər qayeyi-iqrar,
Axır nə deməkdir bu müəmma, bu oyuncaq?

Ə.Yusifi ustad kimi qiymətləndirib, mürşidi-kamil hesab edən təkcə S.Mənsur deyildir. O dövrdə istər Bakı, istər Şamaxı, istər Gəncə, Dərbənd, Qarabağ, Şəki və s. bölgələrin şairləri Yusifə məktublar yazmış, ona həsr etdikləri şeirlərində şairi ustad sənətkar, kamil müəllim, mahir şair adlandırmışlar. Cabitin öz xətti ilə Ə.Yusifə yazdığı qəzəlin başlığında öz avtoqrafında "Hörmətli ustadım Mirzə Əbdülxalıq Yusif həzrətlərinə yadigari-acizanə namilə təqdim olunur".–Cabit Məhəmmədəli Manafzadə, 3 iyun 1914, Bakü"–sözlərini oxuyuruq.

Haşım bəy Caqib isə özünü Yusif kimi ustadın qapıçısı hesab edir, şeirlərinin sənətkarlıq xüsusiyyətini məhz Yusif kimi bir müəllimə şagird olmasının nəticəsi sayır. H.Caqibin Yusifdən təzmin etdiyi qəzəli də maraqlıdır:

Qandırmaq əhli-həqqin sozün bana çətindir,
Min nadanə ədəb ver, gəlməz yenə kəmalə.

Bica demib bu şeiri şirinkəlam Yusif:
"Ya fındığa dügün vur, ya qandır əhli-qalə".

Azərbaycan ədəbiyyatı tarixinə nəzər salsaq, demək olar ki, təzmin etmə, nəziraçilik həmişə olmuşdur. Ədəbi məclislərin güclü fəaliyyət göstərdiyi XIX əsrdə və XX əsrin əvvəllərində bu cəhət özünü daha bariz şəkildə göstərir. Eyni bir şeirə nəzirə yazmaq, eyni bir qəzəli təxmis etmək sanki o dövrdə şeir-sənət məktəbinin vacib dərslərindən olmuş və şairlərin sənətkar kimi yetişməsinin bəlkə də bünövrəsini qoymuşdur. Elə indinin özündə də şeirə gələn gənclərə əruz vəznli şeiri öyrənmək üçün bu yol göstərilir.

Şairlərin bu cür şeirləşməsi onların dostluğunu, bir-birinə münasibətini möhkəmləndirmiş, şeirin inkişafına təkan vermişdir. Bu

gün isə haqqında heç bir məlumat olmayan şairlərin üzə çıxarılmasında, onların əhatəli tanınmasında bu xüsusiyyət tədqiqatçılara kömək göstərir. Məsələn, Əbdül Qarabağinin "Yusif" rədifli şeirindən yeni məlumat əldə edirik:

Ey olan məmləkəti-nəzmdə sultan Yusif.
Bey qulami-həbəşin nəsrdə loğman Yusif.

Bu beytdən belə çıxır ki, Ə.Yusifin həm də nəsr əsərləri var imiş. Şairin arxivi nəvəsi Rauf Yaqubovun dediyinə görə ölümündən bir il sonra hökumət yoxlanışı zamanı aparılmış, ailəsində çox cüzi bir hissə qalmışdır. Orada şairin şeirləri ilə bərabər yarımçıq nəsr əsəri də tapılmışdır (həmin materiallar hal-hazırda Hacı Maildədir, üzərində tədqiqat işi aparır).

Divan ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olan S.Ə.Şirvaninin Yusifə həsr etdiyi qəzəllər də diqqəti cəlb edir. Deyilənə görə Seyid Əzim o dövrdə Yusifin sorağını eşidib onu görmək üçün Bakıya gəlmişdir. Şairin qəzəllərində də bu məhəbbət açıq-aydın hiss olunur. "Gəlmədi" rədifli qəzəli bu cəhətdən səciyyəvidir:”İntizarım həddən ötdü, gülüzarım gəlmədi.”

Conrakı beytlərdə də şairin intizarı, hicran əzabı, çərxi-fələkdən şikayəti görünür:

Eylədün axir məni, ey çərx, Yusifdən cüda.
Misri-könlüm təxtinə ol tacdarım gəlmədi.

Yusifin arxiv materialları içərisində Seyid Əzimə yazdığı bir məktubu da var ki, burada Yusif onu Qasiri həcv elədiyi üçün qınayır. Lakin bu məzəmmətlərlə yanaşı onun böyüklüyünü, ustad sənətkar olduğunu da qeyd edir. Məzəmmətlərində də o qədər səmimi, mədəni davranır ki, tənqid tərif təsiri bağışlayır. Ümumiyyətlə, o dövrdə şairlərin bir-birinə yazdıqları həcvlərin əksəriyyəti bu stildədir. Bəlkə elə bu böyüklük, bu humanizm onları ustad sənətkar etmişdir.

S.Əzimin qəzəllərində də Yusifdən gileyləndiyinin şahidi oluruq, lakin bu gileyin yanında mütləq məhəbbət, səmimiyyət olur. "Olacaqsan" rədifli qəzəldə oxuyuruq:

Mən eylə bilirdim ki, mənə yar olacaqsan.
Aləmdə mənə əhli-vəfadar olacaqsan.

Növbəti beytlərin birində isə şair ümidlə deyir ki, bir vaxt olacaq mənim kimi qarabəxt aşiqlərin xiridarı olacaqsan:

Bir vəqt olaçaqdır ki, sən ey Yusifi-sani,
Üşşaqi-siyəhbəxtə xiridar olaçaqsan.

Eyni ümidi şairin "Dil" rədifli şeirində də görürük:

Fərağı-Yusifə oldun düçar, ey Seyyid,
Gərəkdi səbr edə bu qəmlərə peyğəmbəri-dil.

Yusif haqqında yazdıqlarımız onun tərifinə deyilən şeirlərin cüzi hissəsidir. Yuxarıda adını çəkdiyimiz şairlərin arxivini axtarsaq, Mirzə Əbdülxalıq Yusif haqqında və ona müraciətlə yazılmış xeyli şeir aşkara çıxar.

"Ədəbiyyat qəzeti" 9 aprel, 1999.

TƏDQİQATÇILAR ƏBDÜLXALIQ YUSİF HAQQINDA

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaradan, oz dövrünun ustad sənətkarı kimi tanınan görkəmli Azərbaycan şairi Mirzə Əbdülxalıq Yusifin ölümündən sonra iki sandıq əlyazması məhv edilsə də, xalq arasında əldən-ələ keçərək yayılmış əsərləri xalqın qədirbilən övladları tərəfindən axtarılıb tapılmış, hal-hazırda Əlyazmalar İnstitutunda saxlanılır. İki illik tədqiqatlar nəticəsində şairin xeyli əsəri aşkara çıxarılmış, transliterasiya edilmiş, haqqında elmi-tənqidi məqalələr yazılıb çap etdirilmişdir.

Bu yaxınlarda isə Salman Mümtazın və Əliabbas Muznibin arxivində aparılan axtarışlar nətiçəsində tədqiqatçıların Yusif haqqında yazdıqları məqalələr əldə edilmişdir.

S.Mümtaz yazır: "Mirzə Əbdülxalıq bakılı olub Ayaz oğullarından Yəqubun oğludur. Atasının adı Yəqub olduğu üçün təxəllüsünu "Yusif" qoymuşdur. Yusifin Hacı Seyyid Əzim, Molla Ağa Bixud, Cənnəti, Mirzə Səməndər və sair ilə müşairəsi olmuşdur, Olar Aşqabadda dukandarlıq edirlərdi. Bir müddət sonra köçüb Bakıya gəldi. Bəhayilərin "müsafirxanə"sində mübəlliğligə (təbliğatçı) baş-

ladı və ömrünün axırına kibi bu vəzifəsinə dəvam etdi. Farsi və türki şeirlərdən ibarət kiçik bir divanı vardır. Əsərlərinin çoxu dini ruhdadır. Füzuli və digər şairlərin təsirində söyləmiş olduğu bir çox gözəl və aşiqanə qəzəlləri də vardır. Mən Yusifi Aşqabaddan tanıyırdım. Xoşxülq, əhli-hal bir şəxs idi. Vəfatı Bakıda 1924-cü ildə noyabrın 2-də vaqe oldu".

Bu yazıdan görünür ki, C.Rəmzi "Deyilən söz yadigardır" kitabında Yusif haqqında verdiyi məlumatı buradan götürmüşdür.

Əlyazmalar İnstitutunda B-1620/3245 şifrəsi altında Əliabbas Müznibin böyük həcmli bir əlyazması saxlanılır ki, onun yeddi vərəqi Əbdülxalıq Yusif haqqında məqalədir, 65 vərəqində isə şairin 42 qəzəli (bunlardan 9-u yeni, qalanı isə müxtəlif mənbələrdən bizə məlum olan qəzəllərdir), bu vaxta kimi bizə məlum olmayan 1 müxəmməsi və Hacı Qəniyə həsr olunmuş 1 həcvi vardır.

Məqalə belə başlayır: "19 minci əsrdə yetişib şairanə iqtidarı, sənətkaranə şeiri ilə şöhrət qazanmış Əbdülxalıq Yusif Kərbəlayi Yəqub oğlu hicri 1270, miladi 1851-cidə Bakıdə doğulmuşdur. Yeddi yaşında üsuli-ətiq üzrə açılmış mollaxanaya verilmiş, dört il oxuduqdan sonra dört il də zərkərlik sənətinə gedmiş, bilaxərə hamusini tərk edüb ticarətə girişmişdir.

Bakıdə 1860-də təsis olunan "Məcməüş-şüəra"da 18 yaşında ikən iştirak eləmiş, onlarca şairlər ilə filməclis qəzəl, müxəmməs və sairə inşad eləmiş dəfələr ilə birincilik qazanaraq təhsinə nail olmuşdur..."

"Deyilən söz yadigardır" kitabında /Yazıçı, 1981, səh.38/ C.Rəmzi eləcə də "Azərbaycan qəzəlləri" kitabında /Azərnəşr, 1991, səh.413/ Məmməd Nuri Əbdülxalıq Yusifin doğum tarixini 1853-cü il qeyd etmişlər. Biz də mətbuatda gedən məqalələrdə tarixi bu çür vermişik. Ə.Müznibin məqaləsi isə 1924-cü ildə Yusifin vəfatından az sonra, bəlkə də elə vəfatı münasibəti ilə yazılmışdır. Ona görə də Müznibin variantını daha düzgün hesab etmək olar.

Ə.Müznibin məqaləsində "Məcməüş-şuəra"nın 1860-cı ildə təsis olunduğu qeyd edilir. Amma bu vaxta kimi "Məcməüş-şuəra" haqqında mətbuatda gedən yazıların hamısında məclisin 1880-cı ildə yarandığı qeyd edilir. Lakin "XIX əsr Azərbaycan Ədəbiyyatı Müntəxəbatı" (tərtibçilər:R.Həsənova, T.Əhmədov. Bakı, Universitet

nəşriyyatı, 1982, səh.35) kitabında "Məcməüş-şüəra "nın XIX əsrin 70-ci illərində fəaliyyətə başlaması, 1880-ci ildən öz əlaqələrini genişləndirərək geniş şöhrət tapması" göstərilir. Ə.Müznibin məqaləsi "Məcməüş-şüəra"nın hələ fəaliyyət göstərdiyi dövrdə yazılmışdır. Ona görə də "Məcməüş-şüəra"nın tarixində Müznibin variantı daha düzgündür.

Məqalədə Ə.Müznib Ə.Yusifin az zaman içərisində şöhrət tapmasını, Qarabağ, Şirvan və s. bölgələrin şairlərilə müşairəsi olduğunu, onlardan bir çoxunun Yusifi mədh edən şeirlər yazmasını qeyd edərək, Məşədi Azər, Ağadadaş Müniri, Əbdül Şahin Qarabaği və s. şairlərin şeirlərindən beytlər götürmüşdür. Eyni zamanda Yusifin "bəzi bağıntı, dilənçi, təmənnaçı şairlar kibi varlıların ətasına göz dikmədiyini", ticarət məqsədilə İrana, Turana və Azərbaycanın bir çox şəhərlərinə gedərək "para qazandığını", özü üçün gözəl, əmniyyətli bir həyat qurduğunu yazan Müznib şairin öz dövründə hamı tərəfindən qəbul edildiyini, həm şair kimi, həm də bir insan kimi sevildiyini, ona mədhiyyələr yazıldığını qeyd eləsə də, eyni zamanda onun bu şöhrətini götürə bilməyən S.Əzimin Cürmini müdafiə məqsədilə Yusifi həçv etməsini göstərir. Sonra isə Yusifin səfərlər zamanı maraqlı əhvalatlarla qarşılaşdığını qeyd edərək, Gəncədə rastlaşdığı şəxslə şairin söhbətini verir. Yusifin "Bakılıyam, şairəm" sözlərinə cavab olaraq Gəncə arifinin Sərdar bağında "Lailahəilləllah, Baküdən şair? Çox qəribə işdir" cavabını, Yusifin həmin söhbəti nəzmə çəkdiyini söyləyir və həmin şeiri verir.

Tədqiqatçı yazır: "Yusif bədii-ədəbi cəhətdən zəmanın sənətkar şairlərindəndir. Dil və ahəng etibarilə böyük bir qiymətə malikdir. Klassik ədəbiyyatı noqteyi-nəzərincə həlavətdə Xətai, səlasətdə Şahi, matanətdə Əmani qədər qüvvətlidir".

Dövri mətbuatda aparılan axtarış zamanı bircə "Dirilik" jurnalında (14 aprel, 1915-ci il) Yusifin Sədidən bir qitənin tərcüməsinə rast gəlmişdik. Ə.Müznibin bu məqaləsini əldə etdikdən sonra başqa arxivlərdə axtarış aparmaqdan vaz keçdik. Müznib burada qeyd edir ki, dövri mətbuatda qətiyyən Yusif adı çəkilmir, onun Sədidən tərcuməsini böyük bir minnətlə ondan alıb jurnalda çap etmişlər. Səbəbini isə bununla izah edir ki, Yusif "Cənnəti, Azər, Müniri və

sairə şairlər kimi vətəni qəzəllər, milli mənzumələr yazmağa cəhd etməmiş, ancaq və ançaq eşqi, hissi və fikri sahələrdə çalışmaqla" kifayətlənmiş, "çünki o poçta qutusunda verilən ağır cavablardan son dərəcə ehtiyat edərdi".

Ə.Müznib öz məqaləsində göstərir ki, Yusifin Füzuli Divanı həcmində 1333-də tərtib elədiyi Divanı vardır ki, bu da "əski üsulla bəhariyyat, qəsaid, müxəmməs, mürəbbe, tərkibbənd, tərcibənd və qəzəllərdən ibarətdir".

Məqalənin sonunda müəllif şairin ömrünün 73-cü ilində böyrək xəstəliyinə tutulduğunu, xəstəxanada çərrahiyyə əməliyyatı zamanı 1343-çü ildə vəfat etdiyini göstərir və Yusifin vəfatı münasibətilə Münirinin bir növhə yazdığını, axırında da vəfat tarixini bildirdiyini yazır.

Əlyazmalar İnstitutunda Ə.Müznibin arxiv materialları içərisində Fr-2202/25782 şifrə altında Ə.Səbura yazdığı 4 mənzum məktubu saxlanılır. Müəllif bu məktublarda dostuna giley-güzarla dövrün dəyişməsini, ustad sənətkarların aradan getməsini və s. bildirir və şairlər haqqında munasibətini də qeyd edir. Bu cəhətdən onun ikinci məktubundan aşağıdakı sətirlər maraqlıdır:

Sana qurban, buyur, görüm hani
Bakünün Yusifi-qəzəlxani?
Şivəsində Xətayiyə bənzər,
Qüvvətində Nəvayiyə bənzər.
Öylə şair ki, yox onun bədəli,
Oxunur daima şirin qəzəli.
Söndü axır onun da müştaqi,
Yetdi dəhrin ona münafaqi.
Aqibət zinəti-türab oldu,
Dilimiz hicrdən kəbab oldu.

"Elm" qəzeti, mart, 1999.

ARİF BUZOVNALI

Ustad sənətkarımız, füzulişünas alim Hacı Mailin başçılıq etdiyi "Füzuli" ədəbi məclisinin ən fəal üzvlərindən biri də Arif Buzovnalıdır. Gənc olmasına baxmayaraq qələmini istər əruz, istərsə də heca vəznli şeirimizin bütün janrlarında sınamış, istedadı, elmi və

ədəbi səviyyəsilə özünü şair kimi təsdiqləmiş Arif Buzovnalının "Ömrün ötən anları" adlı şeirlər kitabı bu yaxınlarda "Ozan" nəşriyyatında çapdan buraxılmışdır. Arifin yaradıcılığında janr, bəhr rəngarəngliyi ilə yanaşı, mövzu müxtəlifliyi də diqqəti cəlb edir. Onun irfani, dini şeirlərilə bərabər ictimai mövzuda qələmə aldığı əsərləri də xoş təsir bağışlayır. Bəzi şeirlərində isə sətiraltı incə yumor duyulur. "Tək səbir" qəzetinin oxucularına onun bir şeirini təqdim edirik:("VAR" rədifli qəzəl).

"Tək səbir" qəzeti,23-30 aprel,1999.

ƏLƏMDAR MAHİR YARADICILIĞINDA İCTİMAİ MOTİVLƏR

Müasir Divan ədəbiyyatının görkəmli nümayəndələrindən biri "Səadət intizarında" adlı kitabın muəllifi Ələmdar Mahirdir. 0, Füzuli sözü, Füzuli ruhu ilə kamilləşərək, klassik şeirin bir çox janrlarında qələmini sınamışdır. Yaradıcılığında klassik şeirin ənənələrini davam etdirən şair geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Ə. Mahir yaradıcılığında dini mövzu əsas xətt təşkil etsə də, onun müxtəlif mövzulara müraciət etdiyini görürük. Şairin lirikasında ictimai motivlər də çox güclü verilmişdir. İstər ana, qadın, ailə münasibətlərini əks etdirən, istər vətənpərvərlik, namus, qeyrət aşılayan, istərsə də cəmiyyətdə insanların özlərinə və bir-birinə münasibətindən bəhs edən şeirlərində verilən məsləhətlər, hikmətamiz deyimlər özünəməxsusluğu ilə diqqəti cəlb edir. "Qadın" rədifli şeirində qadının analıq şərəfindən, fərzanəliyindən, torpaq uğrunda göstərdiyi qəhrəmanlığından bəhs edən şairin ona verdiyi dolğun qiyməti görürük:

Təkcə bu izzəti bəsdir ona ki, o, anadır!
Bu böyüklüklə gəlib aləmə bir danə qadın.
Elmü idrak ilə tarixləri fəth eyləməyə,
Vardır ölkəmdə bu gün də elə fərzanə qadın.

Torpaqlarımızın düşmən tapdağında qalması, igid oğullarımızın şəhid olması, ana və bacıların saçını yolması, gəlinlərin dul, körpə-

lərin yetim qalması bir vətəndaş kimi Ə. Mahirin də köksündə qübara dönür. "Könül nəğməsi" adlı şeirində şair yazır:

Qalx, ey vətənim, ey ana yurdum; ulu torpaq,
Düşmənləri at çapmağa qoyma düzün üstdə.
İnsafdımı hakim kəsilə xalqıma zalım?
İnsafdımı hökm eyləyə əyri düzün üstdə?

Bu şeirdə şairin ədalətsizliyə, cəhalətə, nahaq işlərə qarşı üsyan səsini eşidirik. Eyni zamanda, şairin namus, vicdan, qeyrət itkisindən şikayətinin şahidi oluruq:

Bilməm hanı namus, hanı vicdan, hanı qeyrət,
Yoxdurmu ürəklərdə məgər zərrə ədalət,
Cahilləri etdik həmişə sahibi-dövlət,
Aqilləri məhv eyləmişik haq sözün üstdə.

“Vətən oğullarına” şeirində isə şair dili bir, dini bir qardaşlarını qəflətdən oyanmağa, aldanışlara, cəhalətə son qoymağa, ədalətli həyat uğrunda mübarizəyə səsləyir:

Bəsdi yatdın, bir oyan qəflətdən, ey din qardaşım,
Hər tərəf meydan açıldı, sən də dur meydamə gəl.
Gəl ki, qeyrət çəkməyə çatmış bu gün növbət bizə,
İndi ki növbət çatıb, lazımdu çün qeyrət bizə.
Etməsin övladımız ta bir zaman nifrət bizə.
Biz gərək səy eyləyək bu yolda başü can ilə,
Cəm olaq bir nöqtəyə min əhdilə peyman ilə.

İnsanların düz yoldan azması, elmdən, mədəniyyətdən uzaq düşməsi, şəraba, əxlaqsızlığa qurşanması, xeyir işlərə sərf ediləcək vaxtın mənasız, yaramaz işlərə qurban verilməsi, şairin yaralı ürəyini qanadır:

Əməldə sabit ol ki, xalq ara daim sözün keçsin,
Əməl nöqsanlı olsa, olmaz heç bir vaxt kəsər sözdə.

deyən şairin əməlsiz sözün kəsərsiz olduğunu, boş vədlərin dəyərsiz olduğunu açıqlamaqla, insanlara sözünün üstə durmağı, sözünün ağası olmağı, onu əmələ çevirməyi və məhz bu xasiyyətlə xalq içində

hörmət, etibar, inam qazanmağı tövsiyə etdiyinin şahidi olursan. İlhamla yoğrulan, insanların mənafeyinə xidmət edən şeir əsrlər, minilliklər adlayıb tarixlə birgə yaşa dola-dola yaşayır, müəllifini də yaşadır...

"Vicdanın səsi" qəzeti, 28-31.01.99.

ƏBDÜLXALIQ YUSİFİN LİRİKASINDA İCTİMAİ MOTİVLƏR

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb yaratmış ustad sənətkarlardan biri olan Əbdülxalıq Yusif (1851-1924) hamını heyran edən özunəməxsus deyim tərzi, şirin kəlamı ilə fərqlənir. Sağlığında çap olunmasa da əsərləri əldən-ələ keçib dillər əzbəri olan şairin şeirlərində lirizm qüvvətli olsa da, ara-sıra "şirinkəlam Yusif"ə məxsus incə yumorla verilən tənqidi fikirlər də az deyil. Xüsusən, əsrimizin əvvəllərində yazdığı əsərlərində şairin öz dövrunün ictimai-siyasi hadisələrini izlədiyinin, neqativ hallara qarşı barışmazlığının, uzaqgörənliklə qeyd etdiyi tənqidi münasibətinin şahidi oluruq. Əlyazmalar İnstitutunda FR-103 şifrəsi altında saxlanılan, "Saqiya, sunmə bir də cam müdam, Nəşədən düşdü badeyi-gülfam" beyti ilə başlayan "Tərbi"sində şair öz dövrünü belə təsvir edir:

İmdi Nuşirəvan olub Zöhhak,
İmdi Çingizə müsəlləh olmuş nam.

İmdi dağlardə mövc urur tufan,
İmdi dəryadən od saçır əyyam.

Misr əzizi xəsibdir imdi
Yusif olmuş kənizi-hirsə qulam.

Dəgişib vəzi dövr halatı
Kainatın təmam zərratı.

Şair burada göstərir ki, yaşadığı dövrdə fələyin çərxi tərsinə fırlanır; yaxşı adamlar da pisləşmiş, mərdlər də qovula-qovula namərd olmuş, dağlarda tufan, dəryalarda od görünur, şahlar qulama çevrilmiş, bir sözlə, kainatın bütün zərrələri dəyişikliyə uğramışdır,

siyasi dillə desək, inqilabi şərait yaranmışdır. O qədər gərginlik yaranmışdır ki, artıq hər şeyə həvəs ölmüş, gülrəngli badənin də nəşəsi qalmamışdır, - deyə şair saqiyə bir də şərab süzməməyi məsləhət görür. Çünki belə bir dövrdə artıq nəşə heç kimi maraqlandırmır, hamı dərd, qəm içindədir.

A-35/448 şifrəsi altında saxlanılan əlyazmada şairin "Təsniyyə" adlandırdığı qəzəlində şair fələyin həmişə kəcrəftar olduğunu qeyd edir:

Nə vaxt dövr qılıb aşiqin muradı ilə?
Həmişə kəc edib, ol çərxi-kəcmədar, mədar.

Artıq burada şairin dövran ilə hesablaşdığını, fələyin işlərini təbii hal kimi qəbul etdiyini görürük. Həmin əlyazmada olan "İmiş" rədifli qəzəlində isə şair zəmanənin insanlara verdiyi möhnətdən, ehtiyacdan çox vaxt şahinlərin seydə şikar olmasından, "Ehtiyac üzündən aslanların tülküləşməsi"ndən, sərvətin zəmanədə "səbəbi-iqtidar" olmasından yazır, sonra isə sərvəti olmayanların xar olduğunu qeyd edir:

Yusif, o kim, nə məknəti varmış, nə sərvəti,
Arif da olsa, öz vətəni içrə xar imiş.

"Gözə gəlməz" rədifli qəzəl isə qüvvətli lirizmi ilə diqqəti cəlb edir. Burada şair öz fəlsəfi fikirləri ilə, eşqdən, Günəşin gülməsindən, buludun ağlamasından, "Hüsn ilə fərəh"dən, "rəncilə rahət"dən, zülmət ilə işıqdan bəhs edir, "şər olmasa xeyir də olmaz" fikrini açıqlayır:

Yusif, gecə olmazsa günüz qədri bilinməz,
Cəhl olmasa, keyfiyyəti-ürfan gözə gəlməz.

Nadanlar əlindən bu qədər eyləmə şikvə,
Heyvanlar əgər olmasa, insan gözə gəlməz.

Göründüyü kimi burada da şairin yenə mühitə güzəştə getdiyinin, mənfiliklərə təbii hal kimi baxdığının şahidi oluruq. Ə. Yusif sırf satirik-tənqidi əsərlər yazmasa da, lirik şeirlərində bəzi beytlərdə obyektə tənqidi münasibətini özünəməxsus zarafatla, incə yumorla bildirmiş, bu zaman atalar sözlərinə, zərb-məsəllərə də müraciət etmişdir. FR-693 şifrəsi altında saxlanılan

Mah ruxsarında zülfün müshəf içrə mişkinab,
Hüsni-xəttin vəsfə gəlməz gündə yazsam min kitab.

mətləli, irfani, elmi fikirlərlə zəngin qəzəlində şair bir beyt ilə onu başa düşməyən xəlqə öz münasibətini bildirir. Burada o, xalqı anlamamaqda günahkar saymır, əksinə özünü yuxuda gördüyünü başa sala bilməyən lal adama bənzədir, ironiya ilə tənqidi münasibətini bildirir:

İncimə, Yusif, əgər göftaruvi bilməzsə xəlq!
Xəlqə müşkül anladır bir lal əgər gördisə xab.

FR-114 şifrəsi altında saxlanılan "bir tərəfdə" rədifli qəzəlində isə şair zahid sözünün zahirdə təntənəli, batində boş bir şey olduğunu qeyd edərək, özü haqqında və eyni zamanda zahidin arif adamlar haqqındakı fikrini bildirir:

Zahid sözün şəkərdir, söz burda qalsun amma,
Dildar bir tərəfdə, meyxanə bir tərəfdə.

Yusif deyər fəhiməm, zahid deyər cinundur,
Gəncinə bir tərəfdə, viranə bir tərəfdə.

A-35/448 şifrəsi altında saxlanılan "kimi" rədifli qəzəlində isə şairin zahidə açıq-aşkar meydan oxuduğunun şahidi oluruq:

Zahida, mən rəhi-meyxanə tutum, sən məscid,
Görəlim, aqibətində aparır kim kimi.

FR-1410-da saxlanılan qəzəlində şair əql ilə eşqin məqamını göstərir. Onları müqayisə edir, onların bir yerdə olmasının namümkünlüyünü, əqlin eşq hüzurunda lal olduğunu, əql əhlinə məhəbbət məqamının dərd, məlal kimi göründüyünü qeyd edir, eşqi birinci qəbul etdiyini bildirir:

Məcnun üçün kamali-sədarətdə əsl söz
Leyli sözüdür, yerdə qalan qeylü qaldır.

Zahid sözünə bavər edib baxma Yusifə,
Kafər də olsa Yusif əgər, əhli-haldır.

Şairin dostu Azər Buzovnalıya müraciətlə yazdığı qəzəldə isə onu da öz getdiyi yola dəvət etdiyinin şahidi oluruq. Aləmin gülrəngli məhəbbət şərabından məst olduğunu söyləyən şair dostuna da eşq badəsini içməyi məsləhət görür.

Oldu aləm meyi-minayi-məhəbbətdən məst,
Sən də nuş eylə bu meydən neçə sağər, Azər.

Sən də çək başına Yusif kimi bir sağəri-eşq,
Qoy desinlər sənə də dəhrdə kafər Azər.

Burada da Yusifin onu kafər hesab edənlərə meydan oxuduğunu görürük.

Ə. Yusifin dostluq, məhəbbət tərənnüm edən şeirlərində də incə yumorla, zarafatla verilən giley-güzara rast gəlirik. Lakin digər hədəflərdən fərqli olaraq bu şikayətlərin yanında nifrət, ikrah deyil, məhəbbət, rəğbət durur.

FR-693-də saxlanılan "İstərdim" rədifli qəzəlində şairin dostu ilə keçən günlərinin həsrətini, dostuna məhəbbətini görürük. Şair səhər küləyinə müraciət edərək, ona dostundan xəbər gətirməsini istəyir:

Səba, hərgah güzarın düşsə Bakü şəhrinə bir gün,
Mənim də bir nəfərdən, var sözüm, cuyalıq istərdim.

Yüzün bazardan sal, bir xəbər dut sən Kazım bəgdən,
Anunçun mən həmişə o cur istiğnalıq istərdim.

Di kim, ey həmdəmi-namehriban, ej mənşeyi-urfan,
Səni ki, hamıdan mən xeyli birdunyalıq istərdim.

Sənun də yaduvə hərgiz düşərmi, zikr edərsənmi
Ki, mən də bir nəfər dünyada Əbdülxalıq istərdim?

FR-1410-da saxlanılan "məndən" rədifli qəzəlində "şikayət etməyək" deyən şairin əslində şikayətini görürük:

Gəl ey hicranı könlüm xanəsin viran edən dilbər,
Şikayət etməyək hərgiz nə mən səndən, nə sən məndən.

Cəfa səndən, əziyyət səndən, afati-bəla səndən,
Vəfa məndən, məhəbbət məndən, izhari-həzən məndən.

Dəxi, bəsdir, bu qədri eyləmə ahü fəğan, ey dil,
Məbadə incisün ol Yusifi-şirinsüxən məndən.

FR-686-da saxlanılan "olsun" rədifli qəzəlində də hicran görən, daim naləvü fəryad edən, "evi yıxılan", lakin bununla belə "qarğışında dua edən" aşiqin səsini eşidirik:

Razı oldun ki, könul hicr ilə bərbad olsun,
Oldu, bundan sonra, ey məh, ürəgün şad olsun.

Mən hara, hicr hara, naləvü fəryad hara,
Yaxşı yıxdın evimi, get, evün abad olsun.

Qəzəlin başqa beytində isə yenə də aşiqin şikayətini görürük:

Bir belə dərdü qəmü firqətə, ey şirindil,
Bisütun tab gətirməz, o ki, Fərhad olsun.

Ə. Yusifin incə yumorlu şirin kəlamlarından çoxlu misallar gətirmək olar:

Əhbab deyər, gülşənə gəl, seyr elə Yusif,
Mən sevdigim gül ki, o gülzardə yoxdur!

***

Ləbi-dildardən sordum keçən gün axırın eşqin,
Dedi: - Səbr eylə, Yusif, səndən ötrü bir xəyalım var.

***

Dedim: - Bəs Yusifi-biçarəyəm, əfv eylə təqsirim,
Dedi: - Get, get sənlə eşq mizan eyləyən kimdir?

***

Yusifdən ülfətün kəsəcəksən eşitmişəm,
Ey məh, amandu, eyləmə beylə zərafəti.

***

Yusif, tələsmə, dərdivün axir əlacini
Mən bilmişəm ki, kimdədü,-Pərvərdigardə!

A-35/478-də saxlanılan bir qəzəl daha maraqlıdır. Şair başına gələn bir əhvalatı nəql edir. Bir gün Gəncə şəhər bağında seyr edərkən bir gözəl ona yaxınlaşır. Ondan kim olduğunu soruşur:

Yusifəm,-dedim,-şairi-fani, şeirdə mahir,
Badikubə əhlindən bitiçarətü tənqah.

Bir donüb bana baxdı, söylədi təəccüblə,
"Badikubədən şair? Lailahəillələllah!"

"Tək səbir" qəzeti, dekabr,1998-yanvar,1999.

ƏBDÜLXALIQ YUSİF VƏ ONUN ƏLYAZMA İRSİ

"Məçməüşşüəra"nın fəal üzvü olmuş, zəmanəsində Bakı şairlərinin müəllimi sayılan Mirzə Əbdülxalıq Yusif 1851-ci ildə Bakıda doğulmuş, ömrünün müəyyən hissəsini Mərdəkanda, sonra Balaxanıda yaşamış, bir müddət Aşqabadda ticarətlə məşqul olmuş, yenidən Bakıya qayıdaraq ömrünün sonuna kimi burada yaşamış və 1924-cü il noyabrın 2-də vəfat etmişdir.

Əbdülxalıq Yusif dövrünün görkəmli və məşhur şairləri Seyid Əzim Şirvani, Əbdülxalıq Cənnəti, Azər Buzovnalı, Haşım bəy Saqib və b. ilə çox yaxın olmuş, keçirilən şeir məclislərinə başçılıq etmişdir. Bir çox şairlərin, o cümlədən Vahidin bir şair kimi yetişməsində böyük xidmət göstərmiş, ona Vahid təxəllüsünü də özü vermişdir. Zəmanəsinin şairləri öz şeirlərində Yusifi "Zəmanənin şüəra şəmsi", "Ürəfa məhfilinə mahi-münir", "Yusifi-şirinkəlam" və s. kimi qiymətləndirmişlər. Seyid Əzim onun sorağını eşidib, təkcə onu görmək üçün Şamaxıdan Bakıya gəlmişdi.

Yaşadığı dövrdə şairə çap imkanı verilməmiş, lakin onun şeirləri o taylı-bu taylı Azərbaycanda əldən-ələ keçərək yayılmış və sevilə-sevilə oxunmuş, dillər əzbəri olmuşdur. Şairin vəfatından sonra 1925-ci ildə NKBD onun evində axtarış apararaq, iki sandıq əlyazmasını aparmışdır. Zəmanə dəyişəndən sonra görkəmli adamların bir-bir üzə çıxarılması aktual məsələ kimi ortaya çıxanda Əbdülxalıq Yusif də yada düşmüş, Şıxəli Qurbanovun göstərişi ilə onun əlyazmaları axtarılıb tapılmış, televiziyada üç veriliş hazırlanmış, Yusifin qəzəlləri muğam üstündə Rübabə Muradovanın ifasında səslənmişdir.

Sonralar Cəfər Rəmzi tərtib etdiyi "Deyilən söz yadigardır" kitabının birinci nəşrində (1981) Əblülxalıq Yusifin on dörd şeirini, ikinci nəşrində isə (1987) iki şeirini və müxtəlif şeirlərindən yeddi beytini çap etmişdir. 1991-çi ildə Məmməd Nuru oğlunun tərtib

etdiyi "Azərbaycan qəzəlləri" kitabında isə Yusifin beş şeiri çap olunmuşlur.

"Deyilən söz yadigardır" kitabında Cəfər Rəmzi qeyd edir ki, "Yusifin Füzuli və digər şairlərimizin təsiri ilə yazılmış gözəl aşiqanə qəzəllərdən ibarət kiçik divanı qalmışdır. Bu divanın harada olması bizə məlum deyildir. Hazırda Azərbaycan EA Əlyazmalar İnstitutunda şairin A-35/478 şifrəsi altında 11x18 ölçüdə, 21 vərəq həcmində dəyərli bir əlyazması aşkar edilmişdir. Əlyazmada azərbaycanca 33, farsca 12 qəzəl, azərbaycanca 1, farsca 3 qitə, 1 mənzum məktub vardır. Əlyazma üzsüzdür və ilk vərəqində fars dilində aşağıdakılar yazılmışdır:

"Mirzə Fəzlullah Mirzə Məhəmməd Həsən oğlu Mövlaül-Vəranın əmisi oğlu 1913-cü il may ayının 19-da Məqsud əyalətindən (Məkkədən) gəlib bu rübaini dedi. Mən olduğum evdə babaları Abbas ibn Rzaqulu Takuri cənabları ilə tanış oldum. Həmin rübaini öz xətti ilə evin təvanına yazmışdır: "Dost evinə yetişəndə "ləbbeyk" de. Oraya çatanda nə səlam, nə də əleyk demək gərək deyil. Bura eşq evidir, ayaq saxla. Bura bir müqəddəs yerdir, nələyinini çıxart".

Yusifdə üç cür şeir görürük: fars dilində, fars sözlərilə zəngin olan Azərbaycan dilində və təmiz Azərbaycan dilində olan şeirlər.

Qrammatik quruluşda dilimizdəki ismi birləşmələrlə yanaşı ərəb-fars tərkibli izafətlərə rast gəlirik. Yəqin ki, şair buradakı fonetik, leksik və qrammatik müxtəlifliyi əruzun ahənginə və axıcılığına riayət etmək üçün vermişdir. Bəzən klassik əsərlərin çapında tərtibçilər müasir dilimizə müvafiq redaktələr edir, bunun vəzndə nə kimi pozuntular əmələ gətirdiyinin fərqinə varmırlar. Yusifin bir beytinə nəzər salaq:

Əlbəttə, tənələr oqi şayəstədir bana,
Dil vermişəm o guşeyi-əbru kəmanə mən.

Göründüyü kimi, şair bir beytdə həm "bana" həm də "mən" sözlərini işlətmişdir. C.Rəmzinin tərtib etdiyi "Deyilən söz yadigardır" kitabında birinci misra "Əlbəttə, tənələr oxu şayəstədir mənə" kimi getmişdir. Burada "q" hərfinin "x" ilə əvəz olunması kütləvi nəşr üçün təbii sayıla bilər və ahəngə də heç bir təsiri yoxdur. Amma

"bana" sözünün "mənə" sözü ilə əvəz olunması vəznin ahəngini pozur. Eyni səhvləri başqa şeirlərdə də və eyni zamanda "Azərbaycan qəzəlləri" kitabında verilmiş şeirlərdə də görmək olar. Məsələn:

Şayəd ki, dustlər oxiyandə kəlamını,
Bəzmi-çəməndə Yusifi də yadə saləl/ər,-

beytinin birinci misrası "Azərbaycan qəzəlləri" kitabında "Şayəd ki, dostlar oxuyanda kəlamını" kimi getmişdir ki, burada "dustlər" sözünün "dostlar" kimi verilməsi əruz vəzninin bəhr ahənginə ciddi xələl gətirir.

Yusifin əlimizdəki əlyazmada olan şeirlərini yuxarıda adını çəkdiyimiz kitablardakı şeirləri ilə müqayisə etdikdə, təkçə leksik-fonetik deyil, həm də bütöv misra əvəzlənmələrinə də rast gəlirik. Məsələn, həm əlyazmada, həm də "Azərbaycan qəzəlləri" kitabında

Bu vazehdir ki, can, tən sevənlər vəslə yetməzlər,
Məhəbbət atəşində yanmağa pərvanə layiqdir.

beyti "Deyilən söz yadigardır" kitabında "layiqdir" əvəzində "lazımdır" sözü ilə bitir. Əlyazmada olan qitənin birinci beytinin

Bana, ey tən edən, bir gün noleydi,
İçəydin sən də eşqin badəsindən.

birinci misrası "Deyilən söz yadigardır" kitabında "Mənə tən eyləyən, bir gün nolaydı" kimi getmişdir.

Əlyazmadakı təsniyyədə

Nə vəqt dövr qılub aşiqin muradı ilə,
Həmişə kəc edüb ol çərxi-kəcmədar, mədar.

beytinin birinci misrası "Azərbaycan qəzəlləri" kitabında "Nə vaxt dövr eləyib aşiqin muradı ilə" kimi getmişdir. Şerin beşinci beyti əlyazmada

Qərarsız tapılur min şəhidi-navüki-naz,
Dutanda yüzdə o geysuyi-biqərar, qərar.

kimi verilmiş və vərəqin kənarında birinci misra dəyişilib "Tən cismdə bu qəlbi-naşəkib şəkib?" kimi qeyd olunmuşdur. "Azərbaycan qəzəlləri" kitabında isə beyt yuxarıdakı kimi verilmiş, sadəcə ikinci misrada "dutanda" sözü əvəzinə, "atanda" işlədilmişdir.

Əlyazmada eyni xətlə edilmiş düzəlişlərə, başqa şeirlərdə də rast gəlinir. Məsələn, "imiş" rədifli qəzəlin

Yoq imiş hiç tərəfdə sifəti-elmü kəmal,
Nə ki var elmü kəmal aləmi-ürfanda imiş.

beytində "sifəti-elmü kəmal" ifadəsi "ədəbü elmü kəmal" kimi və ikinci misradakı "nə ki var" sözü ilə əvəz olunmuşdur. Lakin beyt "Deyilən söz yadigardır" kitabında

Yoq imiş hiç tərəfdə sifətü-elmü kəmal,
Ədəbü elmü kəmal aləmi-ürfanda imiş.

kimi verilmişdir. Əslinə baxanda hər üç variantda beyt öz məna dəyərini saxlayır, sadəcə olaraq əlyazmada düzəliş olunmuş beyti qəbul etmək mətnşünaslıq baxımından daha doğrudur. Yusif yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri də onun muxtəlif şeir formalarına müraciət etməsidir. Yuxarıda adı çəkilən kitablarda oxuculara sadəcə qəzəl kimi təqdim olunan bəzi qəzəllərə əlyazmada formasına görə fərqləndirilmiş və "fərq", "kinayə", "təsniyyə", "sənglax" adları verilmişdir. Bunlar klassik şeirdə az işlənən indi isə tamamilə unudulub sıradan çıxmaq üzrə olan formalardır ki, onların tədqiq edilib ortaya çıxarılması vaçib məsələlərdəndir.

Əlyazmada şairin məsnəvi formasında yazılmış bir mənzum məktubu vardır. Məktub güclü sənətkar qələminin məhsulu kimi diqqəti cəlb edir və belə başlayır:

Əla, ey noküli-bağı-müvəddət,
Cüruri-sineyi-ərbabi-rifət.
Səlam olsun sana, ey həmdəmü raz,
Sipehri-mərhəmət, xurşidi-əqraz.
Səlam olsun sana, ey qibləgahim,
Ənisim, munisim, izzilə cahim.

Məzmunundan məlum olur ki, bu cavab məktubudur. Məktubda ərəb-fars sozləri həddən ziyadə çoxdur. Eyni zamanda Yusif yaradıcılığına xas çoxlu şərhə ehtiyacı olan beytlər vardır:

Nə xoş məzmun, nə xoş ayinü üslub,
Vüsalın nisfidir, əlhəq, bu məktub.
Məgər Xızr idi abi-zindəgani,
Ki qıldı tazə cism içrə cani,
Və ya pirahəni-Yusif deyərsən
Ki, etdi dideyi-Yəqubi rövşən.
Va ya kim, nəfheyi- qüdsi-Məsiha
Ki, bu əzmi-rəmimi qıldı ehya.

Qissəyə görə, Xızr İlyas Musa peyğəmbrin dövründə yaşamış, dirilik suyu axtarıb tapmış, içib əbədi həyat qazanmışdır. Yusif peyğəmbər Yəqub peyğəmbərin on iki oğlundan ən sevimlisi olmuşdur. Qardaşları paxıllıqdan onu aradan götürmək istəmiş, ova çıxmaq bəhanəsilə aparıb quyuya salmışlar. Yəqub qırx il Yusifin fəraqında göz yaşı tökmüş və gözləri kor olmuşdur. Sonralar Yusifin köynəyinin ətri ilə onun gözlərinə işıq gəlmişdir. Məsiha isə İsa peyğəmbərin adlarından biridir. Onun möcüzələrindən biri nəfəsi ilə ölünü diriltməsidir. Şair burada aldığı məktubu tərif edərək bildirir ki, doğrudan da, bu xoş məzmunlu, xoş üslublu məktub yarımın vüsalıdır. Xızrın dirilik suyu kimi cismimdəki canı təzələdi, Yusifin köynəyi Yaqubun gözlərini açan kimi mənim gözlərimə işıq verdi, İsanın nəfəsi kimi çürümüş sümüklərimi diriltdi.

Yusifin qəzəllərində şərhə ehiyacı olmayan çox az beyt tapılar.

Xuda səfinəsinin sakinindən ol, ey dil,
Ki, nuşi-naci naxudasının biridir.

Nuh peyğəmbər Adəmin oğlu Şis peyğəmbərin nəslindəndir. Nuhun tayfası öz yolundan azıb bütlərə sitayiş edirmiş. Allah-təaladan əmr gəlir və Nuh bir gəmi düzəldir, özünə iman gətirənləri və hər heyvandan bir cüt həmin gəmiyə yığır. Tufan zamanı gəmi Cudi dağına yan alıb xilas olur, imansızlar isə hamısı məhv olurlar. Şair bu beytdə öz ürəyinə müraciətlə deyir ki, Allah gəmisinin sakinindən ol ki, nicat tapan Nuh həmin gəmiçilərdən biridir.

Zülfi-mişkindir ki, çin-çin arizi-dilbərdədir,
Ya sipahi-Əbrəədü, Xosrovi-Xavərdədir.

Əbrəə ibn Səbbah VII əsrdə Yəmən padşahı olub. Ərəbləri Kəbədən ayırıb öz kilsəsinə ibadətə çağırmış, lakin xalq ona qulaq asmamışdır. Ona görə da Əbrəə Kəbəni dağıtmaq üçün fillərlə hücuma keçmişdir. Bu zaman göydə qoşunun sayı qədər əbabil (göyərçin nəslindən olan quş) görünmüş və onlar ağızlarındakı daşlarla qoşunu məhv etmişlər. Bu islam tarixində "Fil ili" kimi məşhurdur. Şair bu beytdə yarın saçını Əbrəənin qoşununa bənzədərək deyir ki, bu qoşun Kəbəni necə əhatə eləmişdisə, eləcə də yarın qara zülfü çin-çin onun üzündə yer tutmuşdur.

Qalırdı çahi-ədəmdə müdam, Yusif, şeir,
Əgər bileydi ki, miqdari bir kəlafdədir.

Tacirlər quyudan çıxarılmış Yusif peyğəmbəri satmaq üçün bazara gətirəndə onu almaq istəyən hər bir kəs imkanı olan məbləği gətirib gəlmişdi. Bir qarı da onu almaq üçün bir kəlaf gətiribmiş. Klassik şeirdə buna tez-tez müraciət olunur. Şair bu beytdə şeirin qiymətsiz olduğundan gileylənir və deyir ki, Yusif, əgər şeir bilsəydi ki, qiyməti bir kəlaf qədərdir, ölüm quyusunda qalardı.

Əlbəttə, Əbdülxalıq Yusifin yaradıcılığındakı məna çalarlarını daha da dərindən açıqlamaq, onun sənətkarlıq xüsusiyyətlərini daha qabarıq və müfəssəl şəkildə açıb göstərmək vacibdir.

Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri
V elmi-nəzəri konfransının materialları, Bakı-1998.

MAHİR YARADICILIĞINDA ƏSAS XƏTT

Yaradıcılığında Azərbaycan klassik şeirinin ənənələrini davam etdirən, müasir Bakı ədəbi mühitinin tanınmış nümayəndələrindən biri, keçirilən şeir məclislərində mahirliyi ilə seçilən Ələmdar Mahirin adı klassik şeir xiridarlarına çoxdan tanışdır.

Bu yaxınlarda Ə.Mahirin «Səadət intizarında» adlı klassik şeir həvəskarları üçün gözəl bir hədiyyə olan və Azərbaycan klassik şeir inciləri siyahısına daxil olan qiymətli bir kitabı işıq üzü görmüşdür.

Ə.Mahir haqq aşiqidir. Mahir üçün şeirdə həqiqi eşq var, aşiq-məşuq var, onun şeirinə eşqdən kənar obrazlar yaddır. Obrazlı deyimlərinin obyekti isə yerin, göyün, bütün yaranmışların yaradıcısı olan Xaliq, bütün insanların ləyaqətlisi, şərafətlisi olan peyğəmbərimiz və onun övladlarıdır.

Hər bir sənətdə qudrəti var bir sənətkarın,
Heç nə yaranmaz öz-özünə, Xaliq olmasa.

Mahirin şeirində olan obrazlılıq, ifadəlilik, şeir qaydalarına düzgün riayət onun bu sənətə çoxdan aşina olduğunu göstərir, Şair hər şeirində yenilik, orijinallıq göstərməyə çəhd edir.

Əgər təbində qüdrət varsa, Mahir, bir qəzəl söylə,
Bu şərt ilə ola hər beyti bir insanın haqqında.

Başqa birində isə:

Tut sözü daim ozündən artıq, ey şair könül,
Çünki Allah göndəribdir Əhmədi-Muxtarə söz.

Hər sözə meyl etmə, Mahir, salma qiymətdən sözü,
Çıxdı bir gün bəlkə qiymət almağa bazarə söz.

Burada biz şairin mühütdən şikayətini görürük. Lakin Mahir bədbinləşmir, sələfləri kimi, o da bir gün şeirin, sənətin QIYMƏT alacağına ümid edir.

Ə.Mahirin əsərlərində sələflərinə müraciət, onların dərdinə şərik olmaq, arzularına qoşulmaq deyimləri də güclüdür.

O aqillər ki, mən tək möhnəti-hiçranı çəkmişlər,
Olub bimari-eşqin, mən çəkən əfqanı çəkmişlər.

Diyari-eşqdə hər binəvanın surətin gördüm,
Elə bildim müsəvvirlər məni-nalanı çəkmişlər.

«Səadət intizarında» kitabında qəzəllər və dini şeirlər bölməsindən başqa, ithaf şeirləri, nəzirə və təxmislər də vardır. Bundan başqa, kitabda şairin klassik şeirin başqa janrlarında yazdığı əsərlərdən nümunələr verilmişdir. Ə.Mahiri ətraflı tanıyan, yaradıcılığına bələd olan həmkar kimi deyə bilərəm ki, bu kitab şairin yaradıcılığının çox

kiçik bir hissəsidir. Əminik ki, bu kitab ədəbiyyatsevərlərə və geniş oxucu kütləsinə gözəl hədiyyədir.

Şair dostumuza 55 illik yubileyi ərəfəsində uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

"Şəhriyar" qəzeti, 1998

CƏHL OLMASA, KEYFİYYƏTİ-ÜRFAN GÖZƏ GƏLMƏZ

Məcməüşşüəra ədəbi məclisinin fəal üzvlərindən olan, zəmanəsində Bakı şairlərinin müəllimi sayılan Mirzə Əbdülxalıq Yusif 1851-ci ildə Bakıda doğulmuş, Mərdəkanda, Balaxanıda yaşamış, bir müddət Aşqabadda işləmiş, yenidən Bakıya qayıdaraq ömrünün sonuna kimi burada yaşamışdır.

Əbdülxalıq Yusif dövrünün görkəmli şairlərindən S.Ə.Şirvani, Əbdülxalıq Cənnəti, Azər Buzovnalı, Haşım bəy Saqib və b. ilə çox yaxın olmuş, keçirilən şeir məclislərinə başçılıq etmişdir. Bir çox şairlərin, o cümlədən Vahidin sənətkar kimi yetişməsində xidməti olmuş, ona Vahid təxəllüsünü də özü vermişdir. O dövrün qəzəl şairləri öz şeirlərində Yusifi "zəmanənin şüəra şəmsi", "ürəfa məhfilinə mahi-münir", "Yusifi-şirinkəlam" və s. kimi qiymətləndirmişlər. Sorağını eşidən S.Ə.Şirvani bir onu görməkdən ötrü Şamaxıdan Bakıya gəlib-qayıtmışdır.

Şairin üç oğlu və iki qızı olmuşdur. Qız nəvələrindən Pərviz İranda, Firuzə Kanadada, Fəxrunda Amerikada yaşayır. Oğul nəvələrindən Səfa, Rauf, Pərviz, Gülnaz, Rəna və b. Bakıdadırlar.

Yusif sağlığında çap olunmasa da, onun əsərləri istər Şimali, istərsə də Cənubi Azərbaycanda əldən-ələ keçərək yayılmış, sevilərək dillər əzbəri olmuşdur. Şairin vəfatından bir il sonra 1925-ci ildə "NKBD" tərəfindən evində yoxlama keçirilmiş və iki sandıq əlyazması aparılmışdır. Əsərlərin aqibəti məlum deyildir. Lakin zəmanə dəyişəndən sonra görkəmli adamların üzə çıxarılması məsələsi ortaya çıxanda Yusif də yada duşmüş, Şıxəli Qurbanovun göstərişi ilə onun əlyazmaları əldə edilmiş, televiziyada silsilə verilişlər verilmiş, şairin qəzəlləri muğam üstündə Rübabə Muradovanın ifasında səslənmişdir.

Sonralar C.Rəmzinin "Deyilən söz yadigardır" kitabında Yusifin on altı şeiri, Məmməd Nuru oğlunun tərtib etdiyi "Azərbaycan qəzəlləri" kitabında isə beş şeiri çap olunmuşdur.

Azərbaycan EA Əlyazmalar İnstitutunda Əbdülxalıq Yusifin A-35/478 şifrəsi altında 21 vərəq həcmində bir əlyazması saxlanılır.

Burada həm azərbaycanca, həm də farsca müxtəlif janr və formalarda şeirlər vardır ki, bu da əlyazmanın qiymətini artırır. Maraqlı burasıdır ki, şair oxuculara sadəcə qəzəl kimi tanış olan formaları öz adları ilə verir. "Sənglax" adlı şeir daha çox diqqəti cəlb edir. Biz Füzulinin "Divan"ında həmin formada cəmi bir qəzələ rast gəlirik:

Yetər, ey fələk, bu cəfa, yetir məni-zarə sərvi-rəvanımi,
Məhi-tələtilə münəvvər et, dilü dideyi-nigəranimi.

Bakı şairlərindən Biqələmin bu formada şeiri vardır. Tədqiqat aparılsa, yəqin ki, başqa şairlərin yaradıcılığında da bu formaya təsadüf edilə bilər.

"Sənglax" sözünün hərfi mənası "daşlıq" deməkdir. Əruzun kamil bəhrində olan şeirə bu adın verilməsində bir təbiilik vardır. Bu bəhr oynaqlıqdan, axıcılıqdan çox uzaqdır, elə bil burada şair, doğrudan da, daşlığa düşür. Yəqin elə o səbəbdən də bu formada çox az şair qələm çalmışdır.

Əbdülxalıq Yusifin əlyazmasında olan "Sənglax"ı oxuculara təqdim edirik.

"Ədəbiyyat qəzeti", 23 yanvar, 1998.

BABA PÜNHANIN PÜNHAN DÜNYASI

"Füzuli ədəbi məclisi"ndə elmi-ədəbi söhbətlərdən sonra şairlər öz şeirlərini oxuyurlar. Bu zaman hamı səbirsizliklə Baba Pünhanın növbəsini gözləyir. Niyə? Çünki dörd-beş saatlıq zehni yorğunluqdan sonra hamının üzü gülür, beyni dincəlir. Kimdir belə şeiri ilə üzlərə gülüş, zehinlərə dinclik gətirən Baba Pünhan?

Bəziləri Baba Pünhanı bu günün Sabiri adlandırır. Sabirmi? Bir zaman Füzuli stilində yazan yüzlərlə şair yetişdiyi kimi, Sabir stilində yazan onlarla satirik olmuşdur. Amma mən Baba Pünhanın

adını bu şairlərlə bir sırada çəkmək istəmirəm. Sabirsayağı yazanlar elə bizim məclisimizdə də vardır. Onların yazdıqları şeirin qaydaqanunlarına cavab versə də, fikirlər bizim üçün təkrardır. Baba Pünhanın pünhan dünyasından isə təkcə özü xəbərdardır. Hər məclisdə o dünyadan bizə bir-iki yarpaq dərib verir ki, onun növbəsini səbirsizliklə gözləyənlərin məqsədi də elə budur. Bəli, Baba Pünhan Sabir deyil, Füzulidən Sabirə nə qədər fərq varsa, Sabirdən Baba Pünhana da bir o qədər olar... Baba Pünhan Sabirdən bir əsr sonra bu torpağın bizə bəxş etdiyi öz yolu, öz stili olan satirikdir...

"Zarafat" qəzeti, noyabr, 1997.

AZ İŞLƏNƏN ŞEİR FORMALARI

Mirzə Əbdülxalıq Yusif (1851-1924) Bakıda doğulmuş, sağlığında çap olunmasa da, şeirləri o taylı-bu taylı Azərbaycanda yayılıb, sevilə-sevilə oxunmuşdur. Bakı şairlərinin müəllimi sayılan, muasirlərinin şeirlərində "zəmanənin şüəra şəmsi", "Yusifi-şirinkəlam" və s. kimi tərif olunan şair S.Ə.Şirvani, Ə.Cənnəti, H.Saqib, A.Buzovnalı və b. şairlərlə yaxın olmuş, şeir məclislərinə başçılıq etmişdir. Şairin nəvəsi, biologiya elmləri doktoru Rauf Yaqubovun verdiyi məlumata görə, Yusifin ölümündən bir il sonra evində axtarış aparılmış və iki sandıq əlyazması aparılmışdır. Kiçik bir hissə isə onun özündə saxlanılır.

Azərbaycan EA Əlyazmalar İnstitutunda Əbdulxalıq Yusifin saxlanılan əlyazmasında 33 azərbaycanca, 12 farsca qəzəli, 1 azərbaycanca, 3 farsca qitəsi və bir mənzum məktubu vardır.

Əlyazmanın dəyərli cəhətlərindən biri də bizim sadəcə qəzəl kimi tanıdığımız şeir formalarının öz adı ilə verilməsidir.

Açıb çəməndə o sərvi-səmənüzar, üzar,
Gəlib tərənnümə hər guşədə həzar həzar.

Edəndə naz ilə ol kəbki-xoşxuram, xuram,
Düşər dalınca könullər quşu qətar-qətar.

Bu qəzəl "təsniyyə" (ikili) formasındadır, misraların sonunda sözlər iki dəfə, lakin müxtəlif mənalarda verilir. Biz bu formaya

S.Ə.Şirvani, A.Müniri, Ə.Cənnəti, Hacı Mail və b. yaradıcılığında rast gəlirik. Bəzi şairlərdə isə bu prinsip təkcə ikinci misrada gözlənilir, birinci misra sərbəst olur. Çoxlarında isə misranın sonunda sadəcə təkrar verilir.

İkinçi forma "Sənglax" adlanır ki, bu da əruzun kamil bəhrində yazılır:

Sitəmindən, ey büti-səngdil, cigərin dönə-dönə parədir,
Bu nə zülmdür, bu nə cövrdür, bu nə zəxmdür, bu nə yarədir?

Bu formaya Füzulinin Divanında rast gəlirik. Orada bu bəhrdə cəmi bir qəzəl vardır:

Yetər, ey fələk, bu cəfa, yetir məni-zarə sərvi-rəvanını,
Məhi-tələtilə münəvvər et, dilü dideyi-nigəranimi.

Bakı şairlərindən Biqələmin də bu formada şeiri vardır. Sənglax" sözünün mənası "daşlıq" deməkdir. Doğrudan da, oynaqlıqdan, axıcılıqdan uzaq olan bu bəhrdə şair elə bil daşlığa düşür. Bu səbəbdən də bu formaya çox az şair müraciət etmişdir.

Formalardan biri da "Fərq" dir:

Mehr asimanda ilvə edər, yer üzündə yar,
Yerdən göyə bu mehrin o mehrilə fərqi var.

O bir hilalə cilvə verir tazələnsə mah,
Bunda həmişə var iki əbruyi-canşikar.

Əsər boyu hər beytdə beləcə müqayisə aparılır, sonda ümumiləşmə verilir.

Əlyazmada "Kinayə" adlı formaya da rast gəlirik:

Dəmadəm eylədik tərif insaf ilə vicdandan,
Bəli insaf nə, vicdan nədir bibəhrələr ondan.

Həmişə bəhslər qıldıq, danışdıq ünsü ülfətdən,
Belə vəhşilik etdik kim, verilməz fərq heyvandan.

Şair şeir boyunca bəşərin elədiyi eybəcərlikləri sayır, sonuncu beytdə kulminasiya nöqtəsində kinayəsini tamamlayır:

Cahan cənnət təcri-təhtəhülənhar olur, Yusif,
Əgər tarixi-min üç yüz otuz beş çıxsa böhrandan.

Bu tarixi hicri tarixinə çevirdikdə Birinci Dünya müharibəsi illərinə təsadüf edir ki, bununla da biz şairin təsvir etdiyi neqativ halların müharibə dövründə baş verdiyini dəqiqləşdiririk.

Axırıncı iki formaya fikir verdikdə görürük ki, adlar zahiri formadan çox batini mənaya görə verilmişdir. Burada məna formaya yenilik gətirir. "Fərq"də hər beytdə müqayisə, fərqləndirmə formalaşır, şeiri başqa qəzəllərdən ayırır. "Kinayə"də isə insanların törətdikləri vəhşilikləri bunlara nifrət edən, aradan qaldırılması üçün daim mübarizə aparan yaxşı bir insan (şair) öz üstünə götürür, "biz elədik" deyir. Hər beytdə verilən kinayəli "biz"lər şeiri özünəməxsus şəkildə formalaşdırır və ad da buradan yaranır. Bu cür kamil əsərlərə çox az şairdə rast gəlmək olar.

"Şəhriyar" qəzeti, 9-15 oktyabr, 1997.

SÖZ GÜLZARININ BÜLBÜLLƏRİ

İstər ərəb və fars, istərsə də türkdilli Azərbaycan ədəbiyyatının ən zəngin qollarından birini dini ədəbiyyat təşkil edir. Bu ədəbiyyatın yaranma və inkişaf prosesində Bakı və Abşeron ədəbi mühitinin özünəməxsus rolu vardır ki, bunun da əsas qollarından birini Maştağa ədəbi mühiti təşkil edir.

Yüz illərlə bundan əvvəl yaşamış maştağalı şair Kərbəlayı Nazim Kərbəla torpağının insanlara şəfa verdiyini, arzu-diləyi olanı mətləbinə çatdırdığını, ona pənah aparanların səadət tapdığını qeyd edərək Kərbəla ziyarətinə getməyi məsləhət görür:

Olsa hər kimsədə bu zövqü səfa, bismillah,
Eyləsin qoy səfəri-Kərbübəla, bismillah!

Dini poeziyada əsasən Peyğəmbərin, imamların gözəl əxlaqı bədii dillə tərif olunur. Mərhum şair Mircəlal Həzrət İmam Əlinin(ə) şücaət və səxavətini, İslamın təbliği yolunda fədakarlıqlarını poetik şəkildə belə vəsf edir:

Kürsüvü ərşin sütunusan, zəminin ləngəri,
Zahirə gün tək çıxartdın məzhəbi-Peyğəmbəri,
Ey müşərrəf eyləyən İslama cəmən kafəri,
Onlara təklif edən kəlmə-şəhadət, ya Əli!

Maştağa şairlərinin yaradıcılığında Kərbəla faciəsi daha çox işıqlandırılır:

Ya rəbb, bu gecə seyyidi-səccad qan ağlar,
Əzbəs tökülüb baş yerə, cəllad qan ağlar.

deyən İsmayıl Zəbih Kərbəlada o gecə "səhni-çəmənlərin xəzan olduğunu", bülbüllərin də nalə və fəryad etdiyini, Şümrün əlindəki xəncərin belə Hüseynin(ə) halına ağladığını, göydə mələklərin fəryad qopardığını bəyan edərək yazır:

Təqdiri-qəzadır bu məgər ruzi-Ələstə,
Atdan düşə ləbtəşnə Hüseyn dadimü xəstə,
Billah, deyə billəm ki, duşüb ərş yer üstə,
Peyğəmbər ilə aləmi-icad qan ağlar!

İllər boyu Kərbəla torpağını ziyarət etmək mumkün olmamışdır. Dindar şairlər əsərlərində buna öz münasibətlərini gizlətməmişlər. Mircəlalın bu mərsiyəsinə diqqət edək:

Bağlandı yolların, qıl çarə, ya Hüseyn,
Bais olubdular zəvvarə, ya Hüseyn!

Yoxdur bu kafərin rəhmi, mürüvvəti,
Zahir deyil bu gün mərdin əlaməti,
Fikri budur poza gül tək şəriəti,
Bu qəm salıb bizi azarə, ya Hüseyn!

Lakin nə müqəddəs torpaqlara gedən yolların bağlanması, nə İslamın təbliği üzərində qoyulan qadağalar xalqı dindən, Allah yolundan, şəriətdən uzaqlaşdıra bilmədi. "Gec-tez haqq yerini tapar"-deyiblər. Bir zaman məcburiyyət qarşısında haqdan dönənlər də bu gün düz yola qayıdırlar. Günlərin birində zəmanə sahibinin zühur edərək dünyanı ədalətlə dolduracağına inam qəlblərə hakim kəsilir. Muxtar Bisavadın sətirləri bu baxımdan səciyyəvidir:

Cəbr elə, ey Bisavad, gərdişi-dövrü zaman
Arifi dilgir edər, cahil olar şadman.
Bir gün olar ki, gələr Həzrəti-Sahibzaman,
Onda verər hər kəsə qiymət, Əliəkbərim!

Sevindirici haldır ki, son illərdə insanlarda, xüsusilə gənclərdə dinə qayıdış meyli aydın görünməkdədir. Bu proses Maştağanın müasir ədəbi mühitində də müşahidə edilir. İnanırıq ki, qədim ədəbi ənənələrə malik Maştağada dini ədəbiyyat daha da təşəkkül tapacaq və bu sahədə istedadlı qələm sahibləri yetişəcəkdir.

"Şəhriyar" qəzeti , 26 iyun, 1997.

GÖRKƏMLİ QƏZƏLXAN

Keçmiş sovet cəmiyyəti dövründə ədəbi fəaliyyətlə məşğul olanlar əsasən yaradıcılıq ittifaqları ətrafında cəmləşirdilər, buna görə də onların əsərləri müntəzəm olaraq ədəbi məcmuələrdə, qəzetlərdə dərc olunur, kitabları çapdan çıxırdı. Yazıçılar və şairlər bu ittifaqların üzvü olurdular. Lakin elə həmin dövrlərdə bu cür birliklərin üzvü olmayıb, belə birliklərin nüfuz dairəsindən kənarda ədəbi fəaliyyətlə məşğul olan, yazıb-yaradan şəxslər də olurdu. Onların əsərləri xalq arasında yayılırdı. Belə şairlərin bir qismi də Bakıda və onun ətraf kəndlərində fəaliyyət göstərirdilər. Məhz belə şairlərin fəaliyyəti nəticəsində Bakı ədəbi mühiti öz xüsusiyyət və ənənələrini davam etdirə bilmişdir. Bakı ədəbi mühiti təkcə bir əsrin içərisində Müniri, Cənnəti, Səməd Mənsur, Azər, Ə. Vahid kimi görkəmli şəxsiyyətlər yetişdirmişdir. Onların ənənələri indi da yaşamaqda və qorunmaqdadır. Belə şairlərdən biri də şeirsevərlər, qəzəlsevərlər arasında adı çoxdan məşhur olan Ələkbər Şahiddir. Ələkbər Şahbaz oğlu Axundov Bakının Maştağa kəndində bağban ailəsində dünyaya gəlmişdir. Kənddəki orta məktəbi bitirmişdir. Hələ məktəbli ikən şeir yazmağa həvəs göstərmişdir. «Yeni Yol» qəzetində ilk şeiri çıxmışdır.

Orta məktəbi bitirdikdən sonra müharibə başlamış və hamı kimi o da vətənin müdafiəsi naminə cəbhəyə getmişdir. İl yarım vuruşduqdan sonra yaralanmış və arxaya qayıtmışdır. Müharibədən sonra

Ələkbər indiki Bakı Universitetinin ədəbiyyat fakültəsinə girmiş, lakin ailə vəziyyətinin çətinliyi üzündən təhslini başa vurmamışdır.

Ələkbər Şahid öz poetik yaradıcılığında ən çox Füzulidən və Seyid Əzimdən bəhrələnmişdir. Özünün dediyinə görə, atası Kərbəlayi Şahbaz şeir-sənət vurğunu olmuşdur. Qırxıncı illərdə Çənbərəkənddə yaşayarkən atası, evlərində ədəbi məclislər, şeir gecələri təşkil edərmiş. Ələkbər də bu məclislərdə iştirak etmiş, buradakı söhbətlərin, yaradıcılıq müzakirələrinin şahidi olmuşdur. O, ən çox Əliağa Vahidlə dostluq etmişdir. 1943-cü ildən 1965-ci ilə kimi daim ünsiyyətdə olmuşlar. Bundan başqa Ələkbər Şahid Maştağa şairlərindən Şəfai, Səfa, Hacı Kazım, Ağahüseyn, Ənvər, Əliheydər və başqaları ilə sıx yaradıcılıq əlaqəsi saxlamış, klassik üslubda yazıb-yaratmış, müasir poeziyada qəzəlin itib getməməsinə çalışmışdır. Çünki qəzəli qoruyub saxlamaq Azərbaycan poeziyasının ilkin dəyərlərini qoruyub saxlamaq deməkdir.

Ələkbər Şahidin ilk qəzəllər kitabı 1967-ci ildə işıq üzü görmüşdür. Onun bir sıra qəzəlləri mətbuatda, «Ədəbiyyat və incəsənət» qəzetində dərc olunmuşdur. Nəşriyyatların buraxdıqları qəzəl toplularında onun da qəzəllərindən bəzi nümunələr daxil edilmişdir,

Ələkbər Şahid də öz qəzəllərində qədim və həmişəyaşar lirik janrın mövzu ənənəsinə sadiqdir. Ancaq başqa müasir qəzəlxanlar kimi, o da öz qəzəllərini ancaq bu mövzu ilə məhdudlaşdırmamışdır.

Almış məni ağuşi-məramında böyütmüş,
Canım, ciyərim, xuni-damarım vətənimdir!

Aramü qərar qürbət ara tutmaram əsla,
Asudəliyim, səbrü qərarım vətənimdir!

Mən Azəri övladıyam aləm bunu bilsin,
Odlu ürəyim, dövlətü varım vətənimdir!

Qəzəlin əsas və başlıca qəhrəmanı aşiqdir. Ələkbər Şahidin də lirik qəhrəmanı aşiqdir, ancaq bu, dünyadan, doğma torpaqdan, eldən-obadan təcrid olunmuş şəxs, fərd deyil. O sevir, öz eşqi yolunda hər cür cəfayə hazırdır. Ancaq həmçinin vətənə, xalqa bağlı olduğunu, xalq, vətən hissi qarşısında cavabdehliyini də unutmur:

Öz xalqını, öz yurdunu sevsin gərək insan,
Gər sevməsə, bica yerə ömrün hədər eylər.

Ələkbər Şahidin qəzəllərində biz Azərbaycanın mənəvi birliyi və bölünməzliyinin, Cənubi və Şimali Azərbaycanın mənəvi-hissi vəhdətinin tərənnümünü görürük. Bu motivlər ümumiyyətlə Şahidin qəzəlini ictimai əhatəlilik, ictimai mənalılıq cəhətdən əhəmiyyətli dərəcədə zənginləşdirmişdir:

Kəsmiş aranı gərçi Araz, bunca qəm deyil,
Övladi-Azərik ki, bölünməz diyarımız.

Şahid, bu tayda sən dilə gəl, xoş tərənəni
Əks eyləsin o tayda gərək Şəhriyarımız.

Bütün bunlar Ələkbər Şahidin qəzələ münasibətinin ciddiliyini və tələbkarlığını göstərir. Ancaq bununla belə Ələkbərin qəzəli öz mövzusu etibarilə janrın ənənəvi dəyərlərini də özündə çox parlaq və geniş surətdə əks etdirir. Onun yaradıcılığında aşiqanə-lirik qəzəllərin əsas və mühüm yer tutmasını da bununla izah etməliyik. Belə bir cəhət də diqqətəlayiqdir ki, şairin qəzəlləri insan məhəbbətinin gözəlliyini, ülviliyini, nəcibliyini təsdiqləyir. Məhəbbət həyatın və qəlbin sevincidir. İnsan sevirsə, deməli o, dünyanın böyük və əzəli dəyərlərinə bağlıdır. Sevgi ötəri həzz, ötəri ləzzət deyil, sevgi sədaqət və vəfa deməkdir, insanın öz sevdiyi qarşısında cavabdehliyidir. Sədaqət məhəbbətin məhək daşıdır:

Sönən deyil, gözəlim, mehrimiz, məhəbbətimiz,
Günəş kimi bizi cəzb eyləyib hərarətimiz.

Rəqiblər sözü təsir edən deyildi bizə,
Çün bir-birimizə var eşqimiz, sədaqətimiz.

Ələkbər Şahidin qəzəllərini oxuyarkən biz onun qəhrəmanının— aşiqin zərif və kövrək, mərdanə və sədaqətli hisslərindən təsirlənirik, öz sevgilisinin hər cəfasına hazır olmasından riqqətə gəlirik. Bu qəzəllərdəki nəciblik, işıq və hərarət qəlbimizi isidir, duyğulandırır:

Razıyam yarım mənə qılsın cəfa, öldürməsin,
Naz ilə can almağı görsün rəva, öldürməsin.

Qəzəl yaradıcılığında uzun və səmərəli bir yol keçmiş qocaman şair, ustad qəzəlxan Ələkbər Şahidin əsərlərindən belə nümunələri çox gətirmək olar və bunlar bir daha sübut edir ki, şair öz böyük ömrünü, böyük həyat yolunu nəcib, işıqlı insan hisslərinin, təmiz və gözəl mənəviyyatın tərənnümünə həsr etmişdir. Və inanırıq ki, bundan sonra da xalqımızın sevimli şairi və qəzəlxanı öz yeni şeirləri ilə, qəzəlləri ilə oxucularını, qəzəlsevərləri sevindirəcəkdir.

"Bakının səsi" qəzeti, 28 dekabr, 1994.

MAŞTAĞA FOLKLORU

Nənələrin dilindən nağıllar yazılıb, babaların dilindən dastanlar. Sözü məzəli adamlar lətifə söyləyib, əməkçi qızlar nəğmə, əkinçilər holavar oxuyub. Dərdi olan bayatı deyib, əzizi ölən ağı... Toylarda bəy-gəlin tərif olunub, bayramlarda meydan tamaşaları oynanılıb. Hələ gülüzlü balaların oyunları, tap-tapmacaları... Laylalar, atalar sözləri, zərb-məsəllər... beləcə yaranıb folklor!..

Azərbaycan folkloru bütün janrlarda zəngin irsə malikdir. Lakin hələ də yazıya köçürülməmiş nümunələrimiz çoxdur.

Bakıətrafı kəndlərin özünəməxsus folklor nümunələri vardır. Nədənsə tədqiqatçılar Qarabağ, Şirvan, Qazax tərəflərə daha çox meyl edirlər. Baki folkloru da ayrı bir aləmdir. Onun bir qolu olan Maştağa folkloru zənginliyi ilə fərqlənir.

Mən neçə ildir bu nümunələri toplamaqla məşğulam. Buyurun, siz də tanış olun.

"Cik-cik" qəzeti, 16 iyun, 1994. səh. 5.

SONA XƏYALIN QISA TƏRCÜMEYİ-HALI

Sonaxanım Həmid qızı Hadiyeva 1961-ci il iyunun 19-da Bakının Maştağa qəsəbəsində anadan olub. 1976-cı ildə 255 saylı səkkizillik məktəbi, 1978-ci ildə 187 saylı orta məktəbi bitirib.

1981-ci ildə Bakı 1 saylı Tibb Məktəbinin mamalıq şöbəsini, 1991-ci ildə BDU-nun biologiya fakültəsini bitirmiş, 1986-88-ci illərdə İxtiraçılıq İnstitutunda, 1995-1999-cu illərdə Elmi-Tədqiqat Əkinçilik İnstitutunun aspiranturasında (qiyabi) təhsil almışdır.

Tibb məktəbində oxuyarkən, 1979-cu ilin sentyabrında 7 saylı Birləşmiş Şəhər Xəstəxanasının laboratoriya şöbəsinə işə qəbul edilmişdir. Tibb Məktəbini bitirdikdən sonra xəstəxananın cərrahiyyə şöbəsinə tibb bacısı vəzifəsinə keçirilmiş və altı aylıq anesteziya və reanimatologiya kursuna göndərilmişdir. Bir müddət cərrahiyyə şöbəsində çalışmış, yenidən laboratoriya şöbəsinə böyük laborant vəzifəsinə keçirilmişdir. Kliniki, biokimyəvi, seroloji laboratoriya kurslarında təkmilləşmişdir. Qiyabi təhsil aldıqdan sonra bir il laboratoriya həkimi işləmiş sonra həmin laboratoriyaya müdir vəzifəsinə təyin olunmuş və beş il bu vəzifədə çalışmışdır. İki il tədris-istehsalat kombinatında IX-X siniflərə tibb bacısı kursunu tədris etmiş və daha sonra Maştağa Mədəniyyət Evindəki ikillik tibb kursunu aparmışdır. Xəstəxanada işlədiyi on yeddi il ərzində dəfələrlə müdiriyyətin, rayon səhiyyə şöbəsinin, rayon icraiyyə komitəsinin və rayon komsomol komitəsinin fəxri fərmanları ilə təltif edilmişdir. Beş il xəstəxana komsomol təşkilatının katibi, daha sonra həmkarlar təşkilatının sədri vəzifələrində çalışmışdır. İşlədiyi müddətdə bir sıra qəzet və jurnallarda elmi-publisistik, tibbi-bioloji yazıları, habelə elmi hekayələri çap olunmuşdur. Hal-hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, elm tarixi ilə məşğuldur.

* * *

Qarabağ münaqişəsi başlandıqda hərəkata qoşulmuş, bir sıra qadın təşkilatlarında qaçqınlarla iş aparmış, bir sıra yardımların təşkilində iştirak etmiş, dəfələrlə cəbhə bölgələrinə getmiş, qaynar nöqtələrdə belə, əsgərlərlə görüşmüş, bir müddət könüllü hərbi qospitalda laboratoriya həkimi kimi çalışmışdır. Həmin müddətdə müxtəlif qəzetlərdə vətənpərvərlik mövzusunda onlarla publisistik məqalələri çap olunmuş, «Maştağadan Qarabağa bir yol vardı gedərgəlməz» adlı kitabını yazmışdır. 1992-ci ildə ikillik Jurnalist Sənətkarlığı İnstitutunu bitirmiş və 1993-cü ildə Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunmuşdur. Maştağa Mədəniyyət Eivndə Gənc jurnalistlər dərnəyi təşkil etmiş və onun rəhbəri olmuşdur. «Murovdağ», «Paklıq» və «Vətən həsrəti» qəzetlərində müxbir işləmişdir. Sonralar “Respublika” qəzetinin əməkdaşı olmuşdur. 2008-2009-cu illərdə “Yazıçı qadın” jurnalının baş redaktor müaini olmuş, hal-hazırda «Paklıq» qəzetinin baş redaktorudur.

* * *

Sona Xəyal 12 yaşından şeir, 14 yaşından hekayə yazmağa başlayıb. 1987-ci ildə Maştağa Mədəniyyət Evində Novruz Gəncəlinin təşkil etdiyi Səməd Vurğun poeziya klubunun üzvü olub və həmin il «Azərbaycan gəncləri» qəzetində Novruz Gəncəlinin «Yaradıcılıq iradə tələb edir» adlı «Uğurlu yolu» ilə birlikdə ilk şeiri dərc olunub.

1993-cü ildə «Aç qapını gəlim, dünya» adlı ilk şeirlər kitabı çap olunub. Həmin il Maştağa Mədəniyyət Evində «Maştağa şairlər məclisi»ni təşkil edib, məclisin sədri olub. 1994-cü ildə «Məcməüşşüəra» ədəbi məclisinin üzvü olub və elə həmin ilin dekabrında Hacı Maillə birlikdə «Füzuli ədəbi məclisi»ni təşkil edib, məclisin katibi olub. 1995-ci ildə Füzuli məclisinin nəzdində Maştağa qəsəbəsində «Şəfai», Bakıxanov qəsəbəsində «Qüdsi» və I Zabrat qəsəbəsində «Vahid» ədəbi məclislərini təşkil edib. 1996-cı ildə Məhəməd Füzuli adına Əlyazmalar İnstitutuna işə qəbul olunub və XIX əsrin dəyərli şairlərindən «Mirzə Əbdülxaliq Yusifin həyat və yaradıcılığı» mövzusunda namizədlik işi yazıb. Sonralar II Zabrat qəsəbəsində Mədəniyyət Evində «Yusif» ədəbi məclisini təşkil edib və ona rəhbərlik edib. Hacı Mailin vəfatından sonra Füzuli ədəbi məclisini bərpa edib. Amma məclis davam etməyib. 2000-ci ildə ustadına verdiyi sözə əməl edərək «Divan» bağlayıb. 2005-ci ildə həmin divandan seçilmiş 101 qəzəl daxil edilmiş «Qəzəllər» kitabı nəşr olub. Nəhayət: Maştağada «Bakı şairlər məclisi»ni yaradıb, əruz vəznli şeirin inkişafı üçün bakılı şairləri bir araya gətirmək istəyib, yenə alınmayıb, bir müddətdən sonra məclis dağılıb. Bütün bunlardan sonra məclislərdən yığışıb. Əlyazmalar İnstitutunda ciddi tədqiqat işi ilə məşğul olmağa başlayıb. Bir-birinin ardınca bakılı şairlərin şeir kitablarını nəşrə hazırlayıb və klassik şeirlə bağlı iyirmiyə yaxın təlif və tərtib kitabları nəşr olunub. Qəzet və jurnallarda, eləcə də konfrans materiallarında klassik şeirlə bağlı iki yüzdən artıq məqaləsi çap olunub.

* * *

1993-98-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində axşam, 2004-06-cı illərdə Bakı Slavyan Universitetinin magistraturasında qiyabi təhsil alıb, 1997-98-ci dərs ilində 255 saylı orta məktəbdə biologiya və dil-ədəbiyyat fənlərini tədris edib.

1998-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilib. Yazıçıların XI qurultayına nümayəndə, qurultaydan sonrakı plenumda Yazıçılar Birliyinin «İrs» komissiyasının sədri seçilib. Altı il müasir ədəbiyyatın tədqiqi ilə məşğul olub və «Müasirlərim» seriyasından iyirmidən artıq monoqrafiya yazıb. Yaradıcılığı bir sıra mükafat və diplomlarla qiymətləndirilib. Dövri mətbuatda çağdaş yazıçılar haqqında məqalələrlə çıxış edib. «İrs» komissiyasının işi kimi dünyasını dəyişmiş şairlərlə bağlı xatirə kitabları və «Yüzilliklər» silsiləsindən toplular üzərində çalışır.

2003-cü ildə Akademiyada qadın alimləri birləşdirən və onların elmi fəaliyyətinin tədqiqi və təbliği ilə məşğul olan «Nigar» elmi-ədəbi məclisini yaradıb, hal-hazıra qədər onun sədridir. 2009-cu ildə «Gənc qələm» ədəbi birliyini yaratmışdır. 2011-ci ildə “Ziyalı qadınlar məclisi”ni yaradıb, onun sədridir.

MÜDƏRİCAT

ŞEİR-SƏNƏT ŞƏHƏRİNİN 3
YETİRMƏLƏRİ HAQQINDA NOTLAR 3
HƏZRƏT ƏLİ SEVGİSİ....5
SƏMƏD MƏNSUR....11
ƏBDÜLXALIQ CƏNNƏTI....15
HACƏLİ PƏRİŞAN 17
MİRZƏ ƏBDÜLXALİQ YUSİFIN ŞEİRLƏRİNDƏ DİNİ MÖVZULAR 21
HACI MAİL ŞEİRİNİN HİKMƏTİNDƏN....31
MƏRD OL, AŞİKARƏ DANIŞ....41
ŞAİRLƏR ÖLÜB GETMƏSƏ, EL BAXƏBƏR OLMAZ....45
EŞQ İLƏ GÜLƏN ŞAİR 49
DÖVRÜ TƏNQİD ETDİİNƏ GÖRƏ HƏBSƏ ATILMIŞDI....52
TALEYİ DÜYÜNƏ DÜŞƏN SAİR....55
ZAHİRİM ZÖVQİ-SƏFADIR, ...58
BATİNİM DƏRYAYİ-QƏM....58
BAKI VƏ ABŞERON ŞAİRLƏRİ....62
MİRZƏ HƏSİB QÜDSİ....65
DİZ ÜSTDƏ YAŞAMAQDANSA, ...67
AYAQ ÜSTDƏ ÖLMƏK YAXŞIDIR... 67
GÖZƏL BİR ŞAİR–ƏBDÜLXALIQ YUSİF 72
BABA PÜNHAN 79
ÖMRÜN ÖTƏN ANLARINI VƏRƏQLƏRKƏN....80
UNUDULMUŞ ŞAİR....82
ƏBDÜLXALIQ YUSİFİN MƏŞHUR QƏZƏLİ 89
O HÜNƏRLİ ƏDİB....93
TƏDQİQATÇILAR ƏBDÜLXALIQ YUSİF HAQQINDA....97
ARİF BUZOVNALI....100
ƏLƏMDAR MAHİR YARADICILIĞINDA İCTİMAİ MOTİVLƏR 101
ƏBDÜLXALIQ YUSİFİN LİRİKASINDA 103
İCTİMAİ MOTİVLƏR....103
ƏBDÜLXALIQ YUSİF VƏ ONUN ƏLYAZMA İRSİ 108
MAHİR YARADICILIĞINDA ƏSAS XƏTT....113
CƏHL OLMASA, KEYFİYYƏTİ-ÜRFAN GÖZƏ GƏLMƏZ....115
BABA PÜNHANIN PÜNHAN DÜNYASI 116
AZ İŞLƏNƏN ŞEiR FORMALARI....117
SÖZ GÜLZARININ BÜLBÜLLƏRİ....119
GÖRKƏMLİ QƏZƏLXAN....121
MAŞTAĞA FOLKLORU....124
SONA XƏYALIN QISA TƏRCÜMEYİ-HALI 125

S O N A X Ə Y A L

BAKI GÜLZARININ BÜLBÜLLƏRİ

Naşir: *Rafiq Xan-Sayad oğlu*
Korrektor: *Ülviyyə Hadiyeva*
Texniki redaktor: *Ülvi Novruzov*
Dizaynerlər: *İradə Əhmədova, Ceyhun Əliyev*
Operator: *Rübabə Vəliyeva*

Yığılmağa verilib: 17.07.2010
Çapa imzalanıb: 01.02.2011
Ş.ç.v. 8, tiraj 300
«MBM» mətbəəsində çap olunub.